RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 170 (10190) 18 sentyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## TDT aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilir



### Prezident İlham Əliyev TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi, Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının baş katibi Okay Memişi, Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudovu, Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Adilet Orozbekovu, Qazaxıstan Respublikasının Təhlükəsizlik Şurası sədrinin müavini Aida Balayevanı, Şimali Kipr Türk Respublikası Baş nazirinin müşaviri Mehmet Ağanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

4-5



### Prezident İlham Əliyevin sosial media hesablarında Şamaxı rayonuna səfərinə dair videoçarx paylaşılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Şamaxıya səfəri ilə bağlı videoçarx paylaşılıb.

**https://www.facebook.com/reel/1081952594314953**

## Türk dünyası ilə Qafqazı birləşdirən əməkdaşlıq mərkəzi

### Azərbaycan qlobal layihələr və əməkdaşlıq təşəbbüsləri ilə ölkələri bir araya gətirir

Hazırda dünyada baş verən mürəkkəb proseslər, müxtəlif gərginliklər fonunda belə bir sabitliyin təmin olunması iqtisadi tərəfdaşlığın, ticarət əlaqələrinin və siyasi dialoqun inkişafı üçün son dərəcə vacibdir.

Bakıda keçirilən mühüm beynəlxalq tədbirlər də ölkəmizin regionda, eləcə də türk-islam dünyasında artan nüfuzunu və birləşdirici mövqeyini aydın göstərir. Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı və böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın eyni vaxtda Bakıda keçirilməsi xüsusi məna daşıyır. Toplantılarda türk dövlətlərinin dini rəhbərləri ilə yanaşı, Gürcüstan, Suriya və Şimali Qafqazdan olan dini liderlərin də fəal iştirak etməsi Azərbaycanın türk dünyası, Qafqaz və islam aləmi arasında əlaqələndirici rola malik olduğunu bir daha sübut edir. Bu mötəbər tədbirlər türk dünyasının dini və mənəvi bağlarını möhkəmləndirməklə yanaşı, xalqımızın zəngin mədəni və mənəvi irsinin dünya səviyyəsində tanıdılmasına da xidmət edir.

Azərbaycan qədim dövrlərdən etibarən türk dünyası ilə Qafqaz arasında əsas mərkəz rolunu oynayıb.

10

## Sınaqlardan qalib çıxan kəmər

### BTC-nin təməlinin qoyulduğu gündən 24 il keçir



2002-ci il sentyabrın 18-də Bakıdan 45 kilometr cənubda yerləşən Səngəçal terminalında BTC-nin təməli qoyuldu. "Əsrin müqaviləsi"ndən sonra bu, ölkəmizin neft-qaz sənayesində baş verən növbəti tarixi hadisə idi.

BTC-nin təməlinin qoyulması, əslində, "Əsrin müqaviləsi"ndən doğan reallıq idi. Belə ki, 1994-cü ildə imzalanan bu möhtəşəm saziş çərçivəsində 1997-ci ildə neft hasilatına başlanmışdı. Hasilat getdikcə artırdı və yaxın illərdə daha çox neft əldə olunacağına şübhə yox idi. Bu səbəbdən də Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

11

## İldə 200 milyon kilovat-saatlıq günəş işığı

### "Qobustan" Günəş-Elektrik Stansiyası Azərbaycanın "yaşıl enerji"sini gücə çevirir



"Qobustan" GES-in istifadəyə verilməsi ilə regionun təbii potensialının iqtisadi imkanlara çevrilməsinin daha bir nümunəsi ortaya çıxır. Günəşin yaratdığı enerji imkanlarından yararlanmaqla Qobustan artıq bərpaolunan enerji layihələrinin ünvanlarından birinə çevrilir. Günəş şüalarını elektrik enerjisinə çevirəcək stansiya regionun enerji potensialından daha səmərəli istifadə etməyə və "yaşıl enerji"nin istehsalını genişləndirməyə hesablanıb. Layihə Qobustanın enerji xəritəsində yeni bir səhifə açır və ölkənin daha təmiz və dayanıqlı enerji mənbələrinə keçidi sürətləndirir. Günəş panellərindən əldə olunan enerjinin elektrik şəbəkəsinə ötürülməsi həm "yerli enerji" istehsalına dəstək verir, həm də ənənəvi enerji mənbələrindən asılılığın azaldılmasına yönəlmiş tədbirlərin bir hissəsini təşkil edir.

10

## Qərəz və məkr ünvanına çevrilənlər

### Onların da Azərbaycanın yaratdığı reallıqları qəbul etməkdən başqa yolları yoxdur

Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfransların iştirakçılarını qəbul edən zaman Avropa Parlamentinin bu rəzil siyasətini açıq və sərt şəkildə tənqid etdi: "Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Neçə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır".

Azərbaycana və geniş mənada müsəlman dünyasına münasibətindəki bu ikili standartların kökündə həm də dərinləşən islamofobiya dayanır. Müqəddəs "Qurani-Kərim"in təhqir olunması, müsəlman aləminin sistemli şəkildə terrorla eyniləşdirilməsi təsadüfi hallar deyil, məqsədyönlü siyasətin tərkib hissəsidir.

9



◆ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıya səfər ediblər

# ŞAMAXI

# qədim tarix, gözəl təbiət, zəngin mədəni irs

## Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxı rayonuna səfərə gediblər.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.**



## Prezident İlham Əliyev Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

"Nəsimi Bağları" kompleksi Şamaxı rayonunda yeni istifadəyə verilən, sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış növbəti bir məkandır.

Kompleks Şamaxı rayonunda turizmin inkişafına töhfə vermək, bölgənin turizm potensialını artırmaq, ərazinin təbii xüsusiyyətlərini qorumaq, həmçinin ailəvi istirahətin və asudə vaxtın səmərəli təşkili üçün rahat mühit yaratmaq prinsipləri əsasında qurulub.

Çoxfunksiyalı turizm, mədəniyyət və rekreasiya layihəsi kimi fəaliyyət göstərən "Nəsimi Bağları" kompleksinin ərazisində müxtəlif istirahət obyektləri, ailəvi əyləncə infrastrukturu, fərqli mövzularda incəsənət nümunələri, iaşə obyektləri yerləşir.

Ərazidəki üçmərtəbəli əsas bina kompleksin informasiya və turizm mərkəzi funksiyasını yerinə yetirir. Burada ziyarətçilərə "Nəsimi Bağları"ndakı məkanlar, turist marşrutları və xidmətlər barədə məlumat verilir. Binanın daxilində ziyarətçilərin rahat və səmərəli vaxt keçirmələri üçün "Capybara Cafe" və suvenir mağazası var.

*Ardı 3-cü səh.*








## Prezident İlham Əliyev Şamaxıda "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak edib















**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, "Pasha Hospitality" şirkətinin baş icraçı direktoru Mehmet Balçik dövlətimizin başçısına və birinci xanıma Şamaxı rayonunun Meysəri kəndində yeni inşa olunan "Meysari Grand Hotel & SPA" barədə məlumat verərək dedi ki, kompleks çoxfunksiyalı turizm və istirahət məkanıdır.

Bildirildi ki, dəniz səviyyəsindən 1050 metr yüksəklikdə yerləşən kompleks özündə hotel və kotteclər, restoranlar, konfrans mərkəzi, SPA və sağlamlıq mərkəzi, idman və istirahət zonaları, uşaq əyləncə mərkəzi, avtomobil dayanacağı və helikopter meydançasını birləşdirir.

Kompleksin əsas hotel binasında müxtəlif kateqoriyalarda 88 otaq, kottec hissəsində isə 116 otaq olmaqla, ümumilikdə 204 otaq mövcuddur. Bundan əlavə, kompleksin ərazisində 3 villa da yerləşir.

Burada fəaliyyət göstərən sağlamlıq mərkəzində qonaqların istirahəti, sağlamlıqlarının bərpası üçün geniş imkanlar yaradılıb. Kompleksdə 3 hovuz, idman və pilates zalları, tennis kortu, futbol meydançası, padel kortu və uşaq əyləncə mərkəzi qurulub. Helikopter meydançası isə zəruri hallarda qonaqların hava nəqliyyatından istifadə etmələri üçün nəzərdə tutulub. Kompleksdə restoranlar da fəaliyyət göstərəcək.



Ərazidə Nəsimi Konfrans Mərkəzi də yerləşir. Ümumilikdə 420 nəfərlik mərkəzdə konfransların, toplantıların, təqdimatların, işgüzar görüşlərin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, kompleksin ərazisində daha kiçikmiqyaslı tədbirlər və görüşlərin təşkili məqsədilə zal da var. Kompleksdə qapalı və açıq avtomobil dayanacağı zonaları yaradılıb. Burada ümumilikdə 320 yeni iş yeri açılıb.

Qeyd edək ki, qədim tarixi, zəngin mədəni irsi, gözəl təbiəti və özünəməxsus mülayim iqlimi ilə seçilən Şamaxı Azərbaycanın cəlbedici turizm məkanlarından biridir. Dağ mənzərələri, üzüm bağları, qədim abidələri və qonaqpərvərlik ənənələri bu bölgəni istirahət və səyahət üçün həm yay, həm də qış fəslində əlverişli edir. Şamaxıda yeni hotelin açılması isə turizm infrastrukturunun inkişafına töhfə olaraq yerli və xarici qonaqların rahat istirahəti, rayonun turizm potensialından daha səmərəli istifadəsi və yerli iqtisadiyyatın inkişafı üçün əlavə imkanlar yaradacaq.

◆ Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıya səfər ediblər

# ŞAMAXI

# qədim tarix, gözəl təbiət, zəngin mədəni irs

## Prezident İlham Əliyev Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olub









*Əvvəli 2-ci səh.*

Dördmərtəbəli digər korpusda Şamaxının qədim və müasir tarixini, mədəni irsini əks etdirən zəngin ekspozisiyaya malik muzey yaradılıb. Bu binada həmçinin əsas restoran zalı, tədbirlərin keçirilməsi üçün zal və geniş terras var.

Kompleks ərazisindəki "Magic Village" hobbit evləri üslubunda inşa edilən tematik evlər, əsasən uşaqların maraqla qarşılayacağı "Honey Nest" kafesi, geniş uşaq oyun meydançası və hündürlüyü 9 metr olan baxış qülləsindən ibarətdir. Buradakı evlər tam yaşayış şəraiti ilə təmin edilib və turistlərin ilboyu qalması üçün nəzərdə tutulub.



Qeyd edək ki, burada Azərbaycanda ilk və yeganə ixtisaslaşmış kapibara ferması -"Capybara Land" var. Fermada heyvanları yaxından görmək, toxunmaq və yemləmək mümkündür.

Kompleks ərazisində Azərbaycan, eləcə də xarici rəssam və heykəltaraşların yaratdığı 100-dən çox əsər və instalyasiya nümayiş etdirilir. Burada Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin müasir üslubda hazırlanmış abidəsi (instalyasiyası) də var. Hündürlüyü 21 metr olan abidə (instalyasiya) nəhəngliyi ilə diqqət çəkir və Şamaxının bir çox yerindən görünür.

"Nəsimi Bağları" kompleksində 20 kottec, qeydiyyat binası və çimərlik hovuzundan ibarət şəhərcik də salınıb.

Kompleksdə eyni zamanda məscid də fəaliyyət göstərir.

Ərazidə şam ağacları, üzüm bağları, müxtəlif dekorativ bitkilər, həmçinin dünyada ən sürətlə böyüyən ağac növlərindən hesab edilən pavlovniya da daxil olmaqla 150 mindən çox ağac və bitki əkilib.

## Şamaxıda "Pirqulu Park" hotelinin açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Pirqulu Park" hotelinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, "Moderngroup" MMC-nin təmsilçisi Fariz Abbaszadə dövlətimizin başçısına və birinci xanıma hoteldə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Pirqulu qəsəbəsində inşa edilən hotel Şamaxı Astrofizika Rəsədxanasının yaxınlığında yerləşir. Ərazisi 16 hektar olan kompleksə 2 hotel binası daxildir. Binalardan biri 188, digəri isə 172 yerlikdir. Burada müxtəlif kateqoriyadan 175 nömrə və 2 kottec var. Bu isə eyni vaxtda hoteldə 366 qonağın qalmasına imkan verir. Kompleksdə restoranlar, kafelər, görüş və təlimlər üçün 160 yerlik zal mövcuddur. Ərazidə 600 nəfərlik konqres binası, uşaq əyləncə mərkəzi, amfiteatr yaradılıb.

Qeyd edək ki, Azərbaycanda turizm sektorunun davamlı və hərtərəfli inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Vətənimizin zəngin təbii resursları, qədim tarixi-mədəni irsi və nadir iqlim müxtəlifliyi ilə yanaşı, turizm sənayesinin inkişafı ilə bağlı dövlət səviyyəsində görülən işlər Azərbaycanı dünyanın hər yerindən olan turistlər üçün cəlbedici ölkəyə çevirib.










## Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, tarixi Pir Ömər Sultan ziyarətgahı Şamaxı rayonunun Avaxıl kəndində yerləşir. Burada aparılan ilkin arxeoloji tədqiqatlar nəticəsində XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən artefaktlar tapılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci ildə Şamaxıya səfərləri çərçivəsində ziyarətgahda olub və abidədə konservasiya işlərinin aparılmasına dair tapşırıqlar veriblər.





Ziyarətgahın çay və qaya daşlarından tikilmiş qalıqları ötən müddət ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə konservasiya edilib. Ziyarətgahın içərisində Pir Ömər Avaxılıya, kənarlarında isə başqa şəxslərə aid 8 qəbir aşkar edilərək səliqəyə salınıb. Ziyarətgahın və onun ətrafının konservasiya işlərindən sonra qorunması üçün eyni daş materialından divar hörülüb. Divarın üzərində 16 metr hündürlüyündə səkkizbucaqlı metal konstruksiyadan hazırlanmış çardaq qurulub. Ziyarətgah və onun ətrafında konservasiya olunan sahədə buraya gələnlər üçün gəzinti zolağı yaradılıb. Aparılan işlər zamanı təbiətə və ətrafdakı qəbirlərə ziyan dəyməməsinə xüsusi diqqət yetirilib. Qeyd edək ki, bu ziyarətgahın bərpası dini-tarixi abidələrin qorunub saxlanılması istiqamətində dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir. Pir Ömər Sultan ziyarətgahının konservasiyasının Heydər Əliyev Fondunun dəstəyi ilə aparılması isə fondun ölkəmizdə dövlət səviyyəsində icra edilən bu işlərə verdiyi böyük dəstəkdir.

Ziyarətgahla tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma Şamaxı rayonundakı Kələxana türbələr kompleksində başa çatmış bərpa işləri barədə də məlumat verilib. Bildirilib ki, Şamaxının Kələxana kəndində yerləşən və XVII əsrə aid bu kompleksə daxil olan doqquz türbədən səkkizi dövrümüzə gəlib çatıb, onlardan da biri ciddi dağıntılara məruz qalıb.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə bu tarixi abidədə də bərpa və konservasiya işləri aparılıb. Xarici mütəxəssislərin də cəlb olunduğu bərpa işləri Kələxana kompleksindəki 7 türbəni əhatə edib.

# TDT aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilir

## Prezident İlham Əliyev TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edib





## Prezident İlham Əliyevin çıxışı

- Salam. Bu gün Bakıda Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində növbəti tədbir keçirilir. Cəmi bir neçə gün əvvəl ölkələrimizi təmsil edən dini liderləri qəbul etmişdim. Bu gün isə təşkilatın təhlükəsizlik şuralarının katibləri şuranın 5-ci iclasını keçirmək üçün Bakıda toplaşıblar. Bütün bunlar təşkilatımız çərçivəsində fəal qarşılıqlı əlaqənin göstəricisidir. Həmçinin onu göstərir ki, Türk Dövlətləri Təşkilatı çox böyük beynəlxalq nüfuza malik olan bir təşkilatdır. Çünki müxtəlif formatlarda müzakirə olunan məsələlər beynəlxalq gündəliyi, beynəlxalq təhlükəsizliyi, multikulturalizm, ticarət, nəqliyyat, ümumilikdə humanitar əməkdaşlıqla bağlı məsələləri əhatə edir. Ona görə də əminliklə demək olar ki, təxminən iyirmiillik fəaliyyətindən, təşkilatın yaradıldığı 2009-cu ildə Naxçıvanda keçirilmiş tarixi Zirvə görüşündən sonra Türk Dövlətləri Təşkilatı mühüm məsələlərin həlli və üzv ölkələr arasında qarşılıqlı əlaqələrin inkişafı, həmçinin təşkilatın beynəlxalq arenadakı mövqeyinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsi üçün öz potensialından maksimum istifadə edir. Biz hamımız bunda maraqlıyıq. Təşkilata üzv ölkələrin rəhbərlərinin ümumi mövqeyi məhz ondan ibarətdir ki, beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var. Ölkələrimizin potensialı kifayət qədər böyükdür və güclənməkdə davam edir. Biz çox geniş coğrafi məkanda yerləşirik. Ərazimizdən bu gün təkcə ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün də mühüm rol oynayan ən vacib enerji və nəqliyyat yolları, dəhlizlər keçir. TDT regionunun qərbində və şərqində də təşkilatımızın və onun beynəlxalq məsələlərdə, o cümlədən bağlantılar, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi və ümumilikdə təhlükəsizliklə bağlı məsələlərdə müsbət rolunun güclənməsini böyük maraqla izləyirlər. Ona görə də əminəm ki, bu gün keçiriləcək şura çərçivəsində, o cümlədən bu məsələlər də müzakirə olunacaq. Çünki bu gün enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları olmadan, ümumiyyətlə, təhlükəsizlikdən danışmaq mümkün deyil.

Ölkələrimiz böyük təbii ehtiyatlara malikdir və bu da böyük üstünlükdür. Bu təbii ehtiyatlar dövlətlərimizin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir, həmçinin bütün dünya üçün mühüm rol oynayır. Xüsusilə sərhədlərimizin perimetri boyunca mövcud olan bugünkü şəraitdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir.

Azərbaycana gəldikdə isə biz həm dünya iqtisadiyyatını enerji resursları ilə təchiz edən ölkəyik, həm də Mərkəzi Asiya ölkələrindən Xəzər vasitəsilə enerji resurslarının daha sonra beynəlxalq bazarlara tranzitini həyata keçiririk. Beləliklə, Avropa ilə Asiyanın qovşağında yerləşən və həm TDT-yə üzv Mərkəzi Asiya ölkələri, həm də Türkiyə ilə fəal qarşılıqlı əlaqədə olan Azərbaycanın coğrafi mövqeyi, əlbəttə ki, bütün ölkələrimiz üçün maksimum fayda ilə nəqliyyat və enerji təhlükəsizliyi layihələrinin həyata keçirilməsində oynadığımız rolu şərtləndirir.

Həmçinin deməliyəm ki, Azərbaycan TDT-yə üzv ölkələrlə ikitərəfli formatda fəal əməkdaşlıq edir. Mənim təşkilata üzv ölkələrə çoxsaylı səfərlərim və TDT-yə üzv dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun parlaq göstəricisidir. Eyni zamanda Azərbaycan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla müttəfiqlik haqqında müqavilələr və bəyannamələr imzalayıb. Yəni bu, ikitərəfli qarşılıqlı əlaqələrin ən yüksək səviyyəsidir və bu müqavilələr uğurla həyata keçirilir.

Qazaxıstan, Özbəkistan və Qırğızıstanla birgə investisiya fondları yaratmışıq, qarşılıqlı investisiyaların cəlb edilməsi və səfərbər olunması prosesi fəal şəkildə davam edir. Yəni ölkəmizin ikitərəfli gündəliyi ilk növbədə türk dünyası ölkələrinə yönəlib. Bu, açıq çıxışlarımda dəfələrlə ifadə etdiyim kimi, bizim əsas xarici siyasət prioritetimizdir. O cümlədən demişəm ki, türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur.

Təşkilatımızın daha bir üstünlüyü ondan ibarətdir ki, o, ümumi etnik köklərə malik ölkələri birləşdirir. Dünyada belə təşkilatlar o qədər də çox deyil. Beynəlxalq təşkilatların siyahısına nəzər salsaq, nadir hallarda belə mənzərəyə rast gəlmək olar. Bu isə həmrəyliyin mühüm amilidir. Çünki iqtisadi və siyasi maraqlardan əlavə, ölkələrimizin ərazisində yaşayan insanlar, xalqlar arasında münasibətlər də qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsində mühüm rol oynayır. Buna görə də belə mənəvi birlik, mədəniyyətlərin və dillərin oxşarlığı, ümumi etnik köklər - bütün bunlar təşkilatımızı möhkəmləndirir və ona xüsusi əhəmiyyət verir.

TDT-nin uğurlu inkişafının digər mühüm amili isə ondan ibarətdir ki, bu gün, necə deyərlər, xaotik dünyada ölkələrimizin ərazilərində sabitlik, sülh və təhlükəsizlik hökm sürür. Bugünkü siyasi və xarici siyasi reallıqlarda bu, inkişafın mühüm amilidir. Çünki məlumdur ki, sabitlik və təhlükəsizlik olmadan heç bir ölkənin inkişafı mümkün deyil. Bu və ya digər ölkədə sabit vəziyyət, siyasi və iqtisadi sabitlik yoxdursa, heç bir ölkəyə nə investisiyalar, nə texnologiyalar, nə də innovasiyalar gələcək. Yəni bu da bu gün ölkələrimizi yerləşdiyimiz regionlardakı digər ölkələrdən fərqləndirən mühüm amildir.

Ölkələrimiz həmçinin inamlı iqtisadi artım nümayiş etdirir. Durğunluq, iqtisadi geriləmə, digər iqtisadi və sosial çətinliklər bu gün, ümumiyyətlə, müasir dünyanın reallıqlarıdır, xüsusilə də planetin müxtəlif yerlərində əks proseslərin getdiyini gördüyümüz bir vaxtda. Lakin TDT məkanında müsbət dinamikanı - həm sənaye istehsalının artımını, həm iqtisadi göstəriciləri, həm də sabit maliyyə sistemlərini görürük. Bütün bunlar ölkələrimizin və ölkələrimizdə dövlət səviyyəsində həyata keçirilən siyasətin böyük nailiyyətidir.

Əlbəttə, ölkələrimizin və xalqlarımızın daha bir oxşarlığını, yəni bizim öz mənəvi və milli prinsiplərimizə sadiq olmağımızı da qeyd etmək çox vacibdir. Əlbəttə, ölkələrimizdə milli prinsiplər, milli özünüdərk prinsipləri bəzən bizə kənardan təlqin etməyə çalışdıqları digər prinsiplərdən üstündür. Gənc nəslin ölkələrimizdə vətənpərvərlik, milli prinsiplərə və mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə olunması da çox vacibdir. Bu kontekstdə, əlbəttə, bu, TDT-nin fəal çalışmalı olduğu geniş sahədir, o cümlədən gənclər siyasəti ilə bağlı tədbirlər çərçivəsində.

Əlbəttə ki, ölkələrimizin əhalisinin gənc və demoqrafik vəziyyətin müsbət olması da üstünlükdür. Çünki bir çox ölkələrdə əhalinin sürətlə azaldığını görürük. Bəzi ölkələr artıq həyəcan təbili çalırlar ki, belə davam edərsə, əhali sadəcə olaraq, kritik səviyyəyə qədər azalacaq. Bizim ölkələrimizdə isə əks proses gedir, yəni əhalinin artması prosesi müşahidə olunur. Bəli, bu, müəyyən mərhələdə, əgər fəal iqtisadi siyasətlə, o cümlədən sosial infrastrukturun yaradılması və iş yerlərinin sayının artırılması ilə dəstəklənməzsə, müəyyən iqtisadi, hətta sosial problemlərə gətirib çıxara bilər. Lakin ölkələrimizdə həm iqtisadi artımın, həm də sosial rifahla bağlı məsələlərin uğurla həll edildiyini görürük.

Bildiyiniz kimi, mən TDT-yə üzv ölkələrə tez-tez səfər edirəm. Elə keçən ay Özbəkistana, Qırğızıstana iki səfərim oldu, Türkiyədə də, Türkmənistanda da tez-tez oluram. Buna görə də TDT məkanında müşahidə etdiyimiz müsbət dəyişikliklərin özüm şahidiyəm. Bütün bunlar qardaşlarımız üçün sevinc və qürur hissi doğurur.

Əlbəttə, sizin müzakirə edəcəyiniz əsas mövzu daim diqqət tələb edən təhlükəsizlik sistemi ilə bağlı məsələlər olacaq. Yenə də ölkələrimizin üstünlüyü ondan ibarətdir ki, geniş coğrafiyada ictimai asayişlə, müxtəlif terror təhdidləri ilə bağlı vəziyyət nəzarət altındadır. Lakin bu o demək deyil ki, biz arxayınlaşmalıyıq. Ətrafımızda müharibələr gedir və bu müharibələrin nə sonu, nə də qurtaracağı görünür. Müharibələrin coğrafiyası genişlənir. Döyüşən tərəflər arasında qarşılıqlı düşmənçilik açıq xarakter alır. Bütün bunlar ölkələrimizin perimetri boyunca mövcud olan münaqişələrin coğrafiyasının genişlənməsinə səbəb ola bilər və prinsipcə, səbəb də olur. Hazırkı vəziyyətdə də, Azərbaycan haqqında danışsaq, həm şimalda, həm də cənubda qonşularımız müharibə aparan ölkələrdir. Bu kontekstdə də, əlbəttə ki, regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir.

Artıq dediyim kimi, bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Bu kontekstdə dövlət təhlükəsizliyinə cavabdeh qurumların fəaliyyətinin əlaqələndirilməsi, məlumat mübadiləsi, operativ məlumat mübadiləsi, birgə fəaliyyət və mövcud təhdidlərə qarşı mübarizədə, ən başlıcası isə, mümkün təhdidlərin qarşısının alınmasında və profilaktikasında koordinasiyanın gücləndirilməsi, hesab edirəm ki, hamımız üçün həyati əhəmiyyət daşıyır. Əminəm ki, Bakıda keçiriləcək şura çərçivəsində bütün bu məsələlər müzakirə olunacaq. Lakin bunlar həm də daim ölkələrimizin rəhbərliyinin nəzarətindədir.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri müntəzəm xarakter daşıyır. Azərbaycanın təşəbbüsü ilə yaxın vaxtlardan etibarən qeyri-rəsmi Zirvə görüşləri də keçirməyə başlamışıq. Çünki hesab etdik ki, dövlət başçılarının ildə bir dəfə məhz bu formatda görüşməsi kifayət deyil. Lakin dediyim kimi, ölkələrimizin hər birinin üzv ölkələrlə ikitərəfli gündəliyi kifayət qədər fəaldır. Ancaq biz birlikdə ildə bir dəfə toplaşırıq və hesab etdik ki, bu azdır. Həmkarlarımız da bunu dəstəklədilər və ilk qeyri-rəsmi Zirvə görüşü Şuşada, daha sonra isə digər ölkələrdə də keçirildi.

Beləliklə, rəhbərlik səviyyəsində ümumi maraqlarımızın, ümumi planlarımızın olduğu barədə ümumi anlayış mövcuddur və onların həyata keçirilməsi, yenə də daha çox ölkələrimizin mövcud və mümkün təhdidlərdən nə dərəcədə qorunmasından asılı olacaq.

Bugünkü təhdidlərin təkcə fiziki deyil, həm də ideoloji xarakter daşımasına gəldikdə isə hesab edirəm ki, bu barədə danışmağa ehtiyac yoxdur, hamımız bunu çox yaxşı bilirik. Ölkələrimizin ardıcıl inkişafını və konstitusiya quruluşunun qorunmasını təmin etmək üçün ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır. O cümlədən, adətən, ölkələrimizin hüdudlarından çox uzaqda yerləşən, lakin nədənsə məlum mərkəzlərdən maliyyələşən müxtəlif media strukturları vasitəsilə həyata keçirilən təxribatlara qarşı. Bu maliyyələşdirmə ölkələrimizin dövlət quruluşunun sarsıdılmasına, ictimai həmrəyliyin pozulmasına, yad narrativlərin və dəyərlərin aşılanmasına yönəlib. Biz buna qarşı Azərbaycanda çox fəal mübarizə aparırıq və deməliyəm ki, böyük uğurlar əldə etmişik.

Azərbaycanda xain, antimilli, satqın strukturlar mahiyyət etibarilə son dərəcə marjinal xarakter daşıyır. Ən başlıcası isə onlar xalqımızın mütləq əksəriyyəti tərəfindən ittiham olunur. Çünki Azərbaycanda mənəvi dəyərlərə, ənənələrə, həyat tərzimizə sadiqlik yenə də əsas istiqamətdir, başlıca tendensiyadır. Buna zərər vurmağa çalışan hər şey cəmiyyətimiz tərəfindən son dərəcə mənfi qarşılanır. Lakin bu, bütün işləri başa çatdırdığımız anlamına gəlmir, çünki ölkələrimizdə sabitliyi pozmaq cəhdləri davam etdiriləcək.

Əminəm ki, hər biriniz öz ölkənizdəki vəziyyəti çox yaxşı bilirsiniz. Təbii ki, ölkələrimizdə vəziyyət eyni deyil. Lakin müəyyən beynəlxalq mərkəzlərdən ölkələrimizin dövlət maraqlarının sarsıdılmasına yönəlmiş fəaliyyət prinsipləri dəyişməz olaraq qalır. Həm metodlar, həm də məqsədlərinə nail olmaq cəhdləri kifayət qədər şablon xarakter daşıyır, deyərdim ki, primitivdir. Bir sözlə, bədxahlarımızda, deyərdim ki, yaradıcılıq çatışmır. Əlbəttə ki, onlar əsas səylərini hələ formalaşmamış, formalaşma mərhələsində olan və manipulyasiya etməyin daha asan olduğu gənc nəslə yönəldirlər. Məhz buna görə deyirəm, bilirəm ki, ölkələrimizin hər birində fəal gənclər siyasəti həyata keçirilir. Lakin hesab edirəm ki, TDT çərçivəsində məhz gənclər təşkilatlarımızın qarşılıqlı fəaliyyətinə daha çox diqqət yetirməliyik, müntəzəm tədbirlər, forumlar, konfranslar keçirməliyik ki, gənc vətəndaşlarımız bir-biri ilə ünsiyyət qursunlar. Onlar qohum xalqlara bizim nəslin münasibət göstərdiyi kimi münasibət göstərsinlər. Bunu, əlbəttə, öz nümunəmiz, uğurlu fəaliyyətimiz, təşkilatımızın möhkəmləndirilməsi ilə yanaşı, düzgün ideoloji iş vasitəsilə onlara ötürməliyik.

Beləliklə, ölkələrinizin təhlükəsizlik şuralarının rəhbərləri kimi qarşınızda duran vəzifələr, təbii ki, kifayət qədər böyükdür. Düşünürəm ki, 5-ci iclas çərçivəsində həm məlumat, həm də təcrübə mübadiləsi aparılacaq. Hesab edirəm ki, zəif yerlərimizin harada olduğunu, bizə zərər vurmağa çalışan yad ünsürlərin nüfuz edə biləcəyi, necə deyərlər, hansı pəncərələrin mövcud olduğunu müəyyənləşdirmək faydalı olacaq.

Sonda daha bir məqamı qeyd edəcəyəm. Qədim tariximizi nəzərə almasaq, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin böyük hissəsinin dövlətçiliyinin yaşı cəmi 35 il olan ölkələrdir. Əlbəttə, ölkələrimizin ərazisində qədim dövlətlər mövcud olub, xalqlarımız zəngin dövlətçilik tarixinə malikdirlər və biz haqlı olaraq bununla fəxr edirik. Lakin son dövrə gəldikdə, 1991-ci il Azərbaycanın dövlətçiliyini bərpa etdiyi ildir. Təbii ki, bu da nəzərə almalı olduğumuz amildir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın yenidən müstəqillik əldə etməsindən o qədər də uzun müddət keçməyib, lakin bu dövr həm mürəkkəb, həm də şərəfli olub. Hər bir ölkənin öz çətinlikləri olub, Azərbaycanın da öz çətinlikləri olub, lakin hamımız ən mürəkkəb sınaqlardan şərəflə çıxmışıq. Bu gün isə mahiyyət etibarilə problemlərin böyük hissəsini, - problemlər deyərkən qarşımızda duran qlobal problemləri nəzərdə tuturam, - arxada qoymuşuq. Qarşıda isə birgə iş, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi, ölkələrimiz və xalqlarımız arasında daha sıx əlaqələrin qurulması, Türk Dövlətləri Təşkilatının beynəlxalq arenadakı rolunun gücləndirilməsi dayanır. Biz TDT-ni birgə səylərimizlə aparıcı beynəlxalq institutlardan, aparıcı beynəlxalq təşkilatlardan birinə çevirməyə çalışmalıyıq. Əlbəttə, qeyd etdiyim tezislər belə bunun üçün bütün imkanların mövcud olduğunu göstərir.

Beləliklə, sizə uğurlu iş arzulayıram, sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

❖ ❖ ❖

**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil USUBOV** dedi:

- İcazə verin, bir daha təşəkkür edim ki, həmkarlarımın da müraciətlərini, xahişlərini nəzərə aldınız. Baxmayaraq işiniz çoxdur, bilirəm, amma Siz bizi qəbul etdiniz və gözəl də tövsiyələr verdiniz. Gündəlikdəki məsələlər əsasən elə Sizin, digər Türk Dövlətləri Təşkilatının rəhbərlərinin qarşılıqlı tövsiyələri əsasında hazırlanmış, xüsusən də Qəbələ Bəyannaməsi əsasında hazırlanmış məsələlərdir. Biz bunu icazənizlə müzakirə edəcəyik. Həmçinin həmkarlarım da xahiş edirlər, imkan olsa onlar da qısa çıxış etsinlər.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə. Buyurun. Kim istəyirsə, buyursun.

❖ ❖ ❖

**Qazaxıstan Respublikası Təhlükəsizlik Şurası sədrinin müavini Aida BALAYEVA** dedi:

- Çox hörmətli İlham Heydər oğlu, ilk növbədə bugünkü qəbula görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Azərbaycanda olmaq mənim üçün böyük sevincdir.

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, göstərdiyiniz səmimi qəbula görə minnətdarlığımı bildirim, həmçinin Qazaxıstan Prezidenti Kasım-Jomart Kemeleviç Tokayevin ən səmimi salamlarını çatdırım.

İki ölkə arasında dostluq və qardaşlıq bağlarının möhkəmləndirilməsinə Sizin xüsusi diqqətiniz və şəxsi töhfəniz ölkəmizdə yüksək qiymətləndirilir. Qazaxıstan üçün Azərbaycan xüsusi ölkədir. Xalqlarımızın tarixi, etnik, mədəni yaxınlığından və qardaşlığından əlavə, bizi iqtisadi sahədə təbii qarşılıqlı maraqlar da bağlayır. Bütün istiqamətlər üzrə konkret məzmunla zəngin əməkdaşlığımız uğurla inkişaf edir. Bunu iqtisadi əlaqələrin gücləndirilməsinə və Trans-Xəzər infrastrukturunun formalaşdırılmasına yönəlmiş birgə iri layihələrimiz, o cümlədən Xəzər dənizinin dibi ilə optik-lif rabitəsinin yaradılmasını nəzərdə tutan nadir layihə də təsdiq edir.

Sizin səyləriniz sayəsində Orta dəhliz xüsusi əhəmiyyət kəsb edib.

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına rəhbərlik edərək, milli maraqların qorunması, sülh və sabitliyin təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirirsiniz. Müasir geosiyasi şəraitdə təhlükəsizlik problemləri getdikcə daha kompleks xarakter alır. Siz bunu indicə çox yaxşı qeyd etdiniz. Terrorizm və ekstremizmin, mütəşəkkil cinayətkarlığın yeni formaları, informasiya sahəsində və kibermәkanda təhdidlər əlaqələndirilmiş fəaliyyətin və təcrübənin daimi mübadiləsini tələb edir.

Ölkələrimizin təhlükəsizlik şuralarının aparatları arasında, həmçinin çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı əlaqələrin daha da gücləndirilməsini vacib hesab edirik və onların arasında Türk Dövlətləri Təşkilatı xüsusi yer tutur.

Bu gün mən ilk dəfə burada Təhlükəsizlik Şurası sədrinin müavini qismində iştirak edirəm. Biz həmkarlarımızla Azərbaycan tərəfinin təklif etdiyi çox aktual gündəliyi nəzərdən keçirəcəyik. Əminəm ki, işimizin nəticələri ümumi çağırışlara vaxtında reaksiya verilməsinə xidmət edəcək və TDT məkanında sabitliyin təmin olunmasına mühüm töhfə verəcək.

Əminəm ki, qarşılıqlı etimadın yüksək səviyyəsi və strateji maraqların yaxınlığı bundan sonra da əməkdaşlığımızı dərinləşdirməyə imkan verəcək.

Hörmətli İlham Heydər oğlu, səmimi qəbulunuza görə Sizə bir daha təşəkkür edirəm. Sizə möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə məsuliyyətli fəaliyyətinizdə tükənməz enerji, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Təşəkkür edirəm.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun. İlk növbədə sizi çox mühüm və məsuliyyətli vəzifəyə təyin olunmağınız münasibətilə təbrik etmək istərdim. Siz Azərbaycanda dəfələrlə olmusunuz və Prezident Kasım-Jomart Kemeleviç Tokayevi bizdə qonaq olanda, o cümlədən Qarabağa səfərimiz zamanı müşayiət etmisiniz. Buna görə də ilk növbədə ölkələrimiz arasında humanitar əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində əvvəlki vəzifənizdə gördüyünüz işə görə sizə təşəkkür etmək və yeni məsuliyyətli fəaliyyətinizdə hər cür uğurlar arzulamaq istərdim.

Münasibətlərimizə gəldikdə isə qeyd etdiyiniz kimi, onlar strateji, müttəfiqlik və qardaşlıq xarakteri daşıyır. Bu yaxınlarda Bişkekdə Kasım-Jomart Kemeleviçlə görüşdük və gələn ay onu yenidən Azərbaycanda gözləyirik. Əlbəttə, qeyd etdiyiniz optik lifli kabel layihəsi, - artıq demək olar ki, açılışa hazır olan bu layihə, - həm ölkələrimiz, həm də daha geniş coğrafiya, o cümlədən Türk Dövlətləri Təşkilatı məkanının coğrafiyası üçün mühüm əhəmiyyət daşıyır.

Əminəm ki, biz bundan sonra da fəal qarşılıqlı fəaliyyət göstərəcək, Qazaxıstan və Azərbaycan xalqlarının rifahı naminə çalışacağıq. Əlbəttə, Qarabağın bərpasına göstərdiyiniz köməyə görə xüsusi təşəkkürümü bildirirəm. Siz Kurmanqazı adına İncəsənət Mərkəzinin açılışında iştirak etmisiniz. Hazırda orada çoxlu gənc qarabağlı təhsil alır və onlar görürlər ki, bu, qardaş xalqın hədiyyəsidir. Bununla da onlar Qazaxıstanı daha çox sevirlər. Çox sağ olun, sizə bütün işlərinizdə uğurlar arzulayıram.

❖ ❖ ❖

**Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek ÖMÜRALIYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, icazənizlə mən də təşəkkürümü bildirmək istəyirəm. Sizin qəbulunuzda olmaq və təhlükəsizlik şuralarının baş katibləri ilə görüşünüz də dövlət başçılarımızın ilk növbədə təhlükəsizlik məsələlərinə diqqətinin təzahürüdür.

Siz qeyd etdiyiniz kimi, biz həqiqətən də tarix, mədəniyyət, dil və din əsasında yaradılmış nadir təşkilatıq. Qeyd etdiyiniz kimi, biz məhz bununla fərqlənirik. Eyni zamanda Siz də bildirdiyiniz kimi, əhalimiz demoqrafik cəhətdən artır. Bu gün bizdə məcmu ÜDM 2,4 trilyondur və bu, dünyada təxminən on ikinci yer deməkdir.

*Ardı 5-ci səh.*

# TDT aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilir

## Prezident İlham Əliyev TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul edib








*Əvvəli 4-cü səh.*

Bununla yanaşı, ticarət dövriyyəsi ildənilə artır və 1,7 trilyondur. Bu, həmçinin təşkilatımızın iqtisadi cəhətdən necə gücləndiyini göstərir.

Bugünkü görüşün mövzusu təhlükəsizlikdir. Təkcə son 10 gündə Qazaxıstanda, Astanada Daxili İşlər nazirliklərinin rəhbərləri, daha sonra isə Türküstanda baş prokurorlar görüşüblər. İki gün əvvəl Siz dini liderləri qəbul etdiniz. Oktyabrın 1-də müdafiə sənayesi rəhbərlərinin də görüşü keçiriləcək. Bütün bunlar qısa müddət ərzində baş verir.

Hazırda bizdə xarici siyasətdən tutmuş mədəniyyətə qədər 63 mexanizm və platforma mövcuddur. Siz bu gün gəncləri bir neçə dəfə xüsusi qeyd etdiniz. Hörmətli Aida Qalımovnanın özü gənclərə və mədəniyyətə rəhbərlik edirdi. Bizdə təhlükəsizlik məsələləri həqiqətən çox aktualdır.

Nisbətən başqa vacib məsələlərə gəldikdə, bizdə temp durmadan artır. Bizdə həmin 63 istiqamətdə yalnız görüşlər keçirilmir, konkret qərarlar qəbul edilir, bəyannamələrdə və çıxışlarınızda qarşıya qoyulan konkret tapşırıqlar liderlər tərəfindən yerinə yetirilir. Xüsusən də Sizin təşəbbüsünüzlə keçirilən liderlərin qeyri-rəsmi görüşü böyük əhəmiyyətə malikdir.

Düşünürəm ki, bizim nadirliyimiz, həmçinin birliyimizdədir. Biz deyirik: "Birlikdə güclüyük". Siz iki gün əvvəl dini liderlərlə görüşdə də bu barədə danışdınız. Biz bütün istiqamətlərdə birlikdə olsaq, məhz belə dünyada təhlükəsiz olacağıq və inkişaf edəcəyik. Sağ olun.

❖ ❖ ❖

**Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının baş katibi Okay MEMİŞ** dedi:

- Cənab Prezident, çox təşəkkür edirik.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuralarının katiblərini qəbul etdiyiniz üçün çox təşəkkür edirik. Çıxışınız, həqiqətən, çox təsiredici, bir dərs xarakterli idi. Son dərəcə diqqətlə dinlədik. Əslində, bu gün biz bütün bu mövzuları müzakirə edəcəyik.

Mən burada özümü Türkiyədəki kimi hiss etdim. Sanki bizim dövlət rəhbərlərimiz çıxış edirmişlər kimi hiss etdim. Hadisələri son dərəcə səmimi, çox dəqiq və əhatəli şəkildə ifadə etdiniz.

Cənab Prezident, dünyada baş verən münaqişələrin tam da bizim ətrafımızda baş verdiyini görürük. Bu müharibələr və münaqişələr mühitinə baxmayaraq, burada olan, bu masa ətrafında olan ölkələrin, bizim Türk Dövlətləri Təşkilatının əslində bir sabitlik adası olduğunu da görürük. Həm bizim ölkəmiz, həm Can Azərbaycan, həm Qazaxıstan, Özbəkistan, Qırğızıstan, - aramızda Şimali Kipr Türk Cümhuriyyəti da var. Dəvətə görə çox təşəkkür edirik. Çox şeylər öyrəndik, cənab Prezident.

Biz görürük ki, XX əsrin balansı artıq dəyişib, bunun, demək olar ki, başa çatdığını müşahidə edirik. Beynəlxalq hüququn, beynəlxalq prinsiplərin dəyişdiyini müşahidə edirik. Biz yenə də Türk Dövlətləri Təşkilatı olaraq, bu təşkilatın üzv ölkələri olaraq beynəlxalq hüquqa, beynəlxalq prinsiplərə axıra qədər bağlı qalacağıq. Buna heç bir şübhə yoxdur.

Amma tarazlıq və nizam dəyişir, əslində, bütün dünya bizi izləyir. Yəni biz heç vaxt nə bölgəmiz üçün, nə də digər ölkələr üçün heç bir şəkildə təhdid deyilik. Lakin baş verən proseslərdən çıxardığımız çox mühüm dərslər var. Cənab Prezident, baş verən münaqişələrin artıq regionlara keçdiyini də görürük.

Yaxşı ki, biz Türk Dövlətləri Təşkilatı olaraq bu təməlləri 1992-ci illərdə qoyduq. Bu təşkilatın 34 illik tarixi var. Əslində, hələ qət edəcəyimiz çox məsafənin olduğunu Zati-aliniz də söylədi. Biz də bunun, həqiqətən, çox fərqindəyik. Amma yenə də hər ötən gün daha yaxşıya doğru gedirik.

Bu mənim Bakıya bəlkə də yeddinci səfərimdir. Cənab Prezident, daha əvvəl də AFAD-ın rəhbəri idim, Zati-aliniz məni qəbul etmişdi. Buraya da bir hədiyyə gətirdim. Kahramanmaraşdakı Azərbaycan məhəlləsi, Zati-aliniz oraya gəlmişdiniz, bilirsiniz.

Cənab Prezident, biz 2023-cü il fevralın 6-da, demək olar ki, kiçik bir qiyamət yaşadıq. Bütün dünya, Allah razı olsun, hamısı kömək üçün səfərbər oldu. Lakin bu masa ətrafında olan qardaşlarımız, hətta azərbaycanlı bir qardaşımız qırmızı avtomobili ilə gəlmişdi.

**Prezident İlham ƏLİYEV** dedi: Köhnə bir avtomobillə yorğan-döşək - əlində nə var idi onu gətirmişdi.

**Okay MEMİŞ** dedi: Cənab Prezident, bu, inanılmaz bir hadisədir. Yəni bu, əlbəttə, bizim unuda biləcəyimiz bir hadisə deyil.

Cənab Prezident, fevralın 6-da, demək olar ki, 2 min atom bombası böyüklüyündə enerji yarandı. Ancaq buna baxmayaraq, Siz dostlarımız sayəsində, cənab Prezidentimizin rəhbərliyi, böyük türk millətimizin sayəsində hazırda 550 min evi, Maraşda da möhtəşəm Azərbaycan məhəlləsini təhvil verdik. Əslində, bu, həmrəyliyin çox konkret göstəricilərindən biri idi.

Biz özümüzü burada evimizdəki kimi hiss edirik. Bizim aramızdakı ən böyüyümüz, cənab Ramil Usubov qardaşımız bizə hər dəfə çox yüksək səviyyədə qonaqpərvərlik göstərir. Hətta fikirləşirik ki, biz Türkiyəyə qayıdanda qardaşlarımıza necə qonaqpərvərlik göstərəcəyik.

Cənab Prezident, Zati-alinizin liderliyi çox önəmlidir. Xüsusilə Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi müddətində uzaqgörən liderliyinizlə gördüyünüz işlər çox əhəmiyyətli oldu. Sizin hər açıqlamanızı izləyirik, yəni Türkiyədə çox əks-sədası olur.

Bizim Milli Təhlükəsizlik Şurasının iclaslarında, cənab Prezidentimizin rəhbərliyi ilə keçirdiyimiz toplantılarda Türk Dövlətləri Təşkilatı mütləq gündəm olur, yəni dünyada nə qədər hadisə baş verirsə-versin. Çünki bu, bizim üçün, həqiqətən, çox mühümdür, demək olar ki, bir milli məfkurədir.

Həm Azərbaycanın, həm bu masa ətrafında təmsil olunan bütün ölkələrin hər gün inkişaf etdiyini, böyüdüyünü görmək, həqiqətən, bizim gələcəyə çox ümidlə baxmağımıza səbəb olur.

Mən bir daha cənab Ramil Usubov qardaşımıza, bizi müşayiət etdiyi üçün səfirimizə və bütün dostlara Zati-alinizin şəxsində təşəkkür edir, ehtiramımı bildirirəm.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Xoş gəlmisiniz.

Siz də qeyd etdiyiniz kimi, Azərbaycanda dəfələrlə olmusunuz və Azərbaycan da sizin vətəninizdir, necə ki, Türkiyə. Bütün türk cümhuriyyətləri bizim vətənimizdir.

Türkiyə-Azərbaycan əlaqələrinin, təbii ki, xüsusi yeri, rolu var. Deyə bilərəm ki, dünya miqyasında buna oxşar əlaqələr yoxdur. Bir-birinə bu qədər bağlı olan ikinci ölkə tapmaq mümkün deyil. Çünki burada bütün amillər birləşir. Həm tarixi əlaqələr, həm mədəni əlaqələrimiz, həm siyasi maraqlarımız, təhlükəsizliklə bağlı olan məsələlər, enerji, nəqliyyat, insanlar arasındakı əlaqələr. Yəni Türkiyə-Azərbaycan bu gün dünyada və bölgəmizdə vahid bir məkan kimi çox önəmli amildir. Bizim birgə fəaliyyətimiz bölgəmizdə və dünyada sabitliyi daha da gücləndirir, xüsusilə indiki çətin bir geosiyasi vəziyyətdə.

Təbii ki, 2021-ci ildə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla Şuşa şəhərində imzaladığım Şuşa Bəyannaməsi bizim münasibətlərimizin sanki zirvəsidir, tacıdır. Biz, əslində, ondan əvvəl də müttəfiq idik, amma bu Şuşa Bəyannaməsi bizi rəsmən müttəfiq etdi. Artıq o gündən demək olar ki, 5 ildən çox bir vaxt keçir və hər il, hər ay bizim birliyimiz daha da güclənir və dünyadakı apardığımız rol daha da möhkəmlənir.

Siz də qeyd etdiyiniz kimi, biz hamımız beynəlxalq hüququn üstünlüyünü qəbul edirik və bu gün dünyada beynəlxalq hüquqdan başqa bir mexanizm yoxdur. Ancaq o da həqiqətdir ki, beynəlxalq hüquq bir çox hallarda pozulur və "kim güclüdür o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Buna qarşı təkbaşına mübarizə aparmaq çox çətindir. Ona görə bizim təşkilatdakı ab-hava, mövqe, təşkilata üzv ölkələrin mövqeyi beynəlxalq hüququn normalarının ali prinsiplər kimi bütün dünya tərəfindən qəbul edilməsi çox önəmlidir. Əminəm ki, siz bu gün bu barədə də danışacaqsınız.

Bir daha sizi salamlayıram. Xoş gəlmisiniz.

❖ ❖ ❖

**Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor MAHMUDOV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Çox gərgin iş qrafikinizə baxmayaraq, bizi şəxsən qəbul etmək qərarına gəldiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Miromonoviç Mirziyoyev Sizə böyük və səmimi salamlarını çatdırmağı xahiş edib.

Biz Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə Azərbaycanın dinamik tərəqqisinə, iqtisadiyyatın, sosial sahənin və infrastrukturun inkişafı istiqamətində qazandığı möhtəşəm nailiyyətlərə səmimi-qəlbdən heyranıq.

Sizin ardıcıl sülhsevər siyasətiniz sayəsində göstərdiyiniz səylər nəticəsində bu gün Cənubi Qafqaz köklü şəkildə transformasiya olunur və firavan, sülhün hökm sürdüyü region statusunu möhkəmləndirir. Bu, qarşılıqlı iqtisadi-ticari və nəqliyyat-logistika əlaqələrinin inkişafı, həmçinin TDT ölkələri arasında vahid əməkdaşlıq məkanının formalaşdırılması üçün geniş perspektivlər açır.

Azərbaycanın Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik etmək istəyirəm. TDT-nin beynəlxalq nüfuzunun və siyasi statusunun möhkəmləndirilməsinə mühüm töhfə verən bir sıra böyük tədbirlər keçirilib.

TDT-nin Qəbələdə keçirilmiş Zirvə görüşündəki çıxışınızla diqqətlə tanış oldum. Siz həmin çıxışınızda strateji baxış və çağırışları dərindən dərk etdiyinizi nümayiş etdirərək, regional sülh və təhlükəsizliyin sədrliyin əsas prioritetlərindən biri olduğunu vurğuladınız. Siz də haqlı olaraq qeyd etdiyiniz kimi, bu gün sülh və təhlükəsizlik istənilən dövlətin inkişafının əsas amilləridir. Özbəkistan müasir qlobal çağırışlar şəraitində TDT-ni sabitliyin, rifahın və əlaqələndirmənin təmin edilməsində səmərəli mexanizmə çevirmək barədə Sizin strateji təşəbbüsünüzü tam dəstəkləyir. Bu baxımdan bizim fikrimizcə, təşkilatın təhlükəsizlik şuraları katiblərinin görüşü ölkələrimizin müdafiə və təhlükəsizlik sahəsində dialoqunun dərinləşdirilməsi üçün əlaqələndirici platformaya çevrilməlidir.

Hörmətli İlham Heydər oğlu, Özbəkistan və Azərbaycan prezidentləri arasında səmimi, açıq və etimad üzərində qurulan dialoq ölkələrimizin görünməmiş yaxınlaşmasının əsas hərəkətverici qüvvəsinə çevrilib. Sizin ölkəmizə bu yaxınlarda dövlət səfəriniz çərçivəsində əbədi dostluq haqqında tarixi müqavilə imzalanıb və bu sənəd Özbəkistan-Azərbaycan münasibətlərində tamamilə yeni bir dövrün başlanğıcını qoyub. Dövlətimizin başçısı qarşımıza konkret vəzifələr qoyub ki, Daşkənddə əldə olunmuş bütün razılaşmaların vaxtında həyata keçirilməsi üçün var qüvvə və imkanlarımızı səfərbər edək. Baş nazirin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana bugünkü səfərinin məqsədi məhz bu vəzifələrin həyata keçirilməsi ilə bağlıdır.

Fürsətdən istifadə edərək, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin görüşünün keçirilməsi üçün yaratdığınız möhtəşəm şəraitə görə Sizə təşəkkürümü bildirmək istərdim. Əminəm ki, görüş konstruktiv dialoq ruhunda keçəcək, əsas məsələlər üzrə mövqelərimizi dəqiqləşdirməyə imkan verəcək və onun nəticələri təşkilatımızın bütün məkanında təhlükəsizliyin möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

Sonda Sizə, hörmətli İlham Heydər oğlu, məsuliyyətli fəaliyyətinizdə qardaş Azərbaycan xalqının rifahı və tərəqqisi naminə bundan sonra da uğurlar və yeni nailiyyətlər arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş sözlərinizə görə təşəkkür edirəm. Xahiş edirəm, Şavkat Miromonoviçə də ən xoş arzularımı və Özbəkistana dövlət səfərim zamanı mənə və ailə üzvlərimə göstərdiyi qonaqpərvərliyə görə bir daha minnətdarlığımı çatdırın.

Bildiyiniz kimi, biz mütəmadi olaraq ölkələrimizə səfərlər edirik və mən artıq Özbəkistanın bir çox tarixi məkanlarında - həm Səmərqənddə, həm Xivədə, indi isə artıq Buxarada olmaq imkanı əldə etmişəm.

Özbəkistanın zəngin tarixi və mədəni irsi məndə böyük təəssürat yaratmaqla yanaşı, məni çox heyrətləndirən daha bir məqam regionların sürətli inkişafı oldu.

Daşkəndə gəldikdə isə bəli, Şavkat Miromonoviç Daşkəndin inkişafına çox böyük diqqət yetirir və əlbəttə, onun təşəbbüsü ilə həyata keçirilən layihə - Yeni Daşkənd. Biz birlikdə orada olduq və mən necə böyük miqyasda şəhərsalma işlərinin aparıldığının şahidi oldum.

Lakin regionların da tarixi görkəmin və mədəni ənənələrin qorunub saxlanılması ilə yanaşı, eyni dərəcədə sürətlə inkişaf etməsi, müasir infrastrukturun yaradılması Özbəkistanın belə ardıcıl inkişafının parlaq göstəricisidir. Əlbəttə, Daşkənddə universitet binasının qarşısında Nizami Gəncəvinin abidəsinin ucaldılmasına görə xüsusi təşəkkürümü bildirirəm. Biz bu abidənin açılışını da birlikdə etdik. Bu, bir daha belə möhkəm tarixi köklərin mövcudluğunu göstərir.

Bakıda Əlişir Nəvainin abidəsi çoxdan ucaldılıb, indi isə Daşkənddə Nizami Gəncəvinin abidəsi var. Onlar müxtəlif dövrlərdə yaşasalar da, xalqlarımızın böyük nümayəndələridir. Onların arasındakı belə mənəvi bağlılıq və ən əsası, xalqlarımızın tarixində qoyduqları iz sarsılmazdır.

Ona görə də Şavkat Miromonoviçə ən xoş arzularımı çatdırın. Həmçinin gələn ay onu Azərbaycanda keçiriləcək beynəlxalq tədbirdə gözləyirik.

Sizə hər şeyin ən yaxşısını və Azərbaycanda xoş istirahət arzulayıram.

❖ ❖ ❖

**Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Adilet OROZBEKOV** dedi:

- Hörmətli İlham Heydər oğlu.

İcazə verin, ənənəvi Azərbaycan qonaqpərvərliyinə görə Sizə səmimi minnətdarlığımı bildirim. Təhlükəsizlik məsələlərinə göstərdiyiniz şəxsi diqqəti və bizi, təşkilatın təhlükəsizlik şuralarının katiblərini qəbul etmək qərarınızı ayrıca qeyd etmək istərdim.

Bu fürsətdən istifadə edərək, Qırğız Respublikasının Prezidenti, hörmətli Sadır Nurqojoyeviç Japarovun Sizə ən səmimi salamlarını və xoş arzularını çatdırıram.

Qırğızıstanı və Azərbaycanı dərin tarixi köklər bağlayır. Xalqlarımızı mənəvi yaxınlıq, ümumi dəyərlər və səmimi qarşılıqlı hörmət birləşdirir. Bu gün Qırğızıstan ilə Azərbaycan arasında tam etimad, açıqlıq və qarşılıqlı dəstək mühiti formalaşıb. Xüsusilə vacib olan budur ki, ikitərəfli əməkdaşlıq keyfiyyətli yeni səviyyəyə yüksəlir. Siz çıxışınızda qeyd etdiyiniz, cari ilin yayında Qırğız Respublikasına dövlət səfəriniz çərçivəsində imzalanmış müqavilə ikitərəfli əlaqələrin inkişafında mühüm tarixi addım oldu. Əminəm ki, müttəfiqlik formatları münasibətlərimizin daha da möhkəmləndirilməsi üçün əlavə imkanlar açacaq.

Təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətin inkişafı bizim üçün xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, məhz etimad və operativ informasiya mübadiləsi mövcud çağırış və təhdidlərə vaxtında reaksiya verməyə imkan yaradır.

Hörmətli İlham Heydər oğlu, müasir çağırış və təhdidlər getdikcə daha çox transmilli xarakter alır: terrorizm və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, kibertəhdidlər və müasir texnologiyalardan qanunsuz istifadə daim diqqət və əlaqələndirilmiş yanaşmalar tələb edir.

Bu şəraitdə qarşılıqlı etimada əsaslanan dialoq, peşəkar əlaqələr və vaxtında məlumatlandırma xüsusi əhəmiyyət kəsb edir. Məhz belə qarşılıqlı fəaliyyət müştərək maraq doğuran məsələlər üzrə razılaşdırılmış yanaşmalar hazırlamağa və səmərəli qərarların qəbulunu təmin etməyə imkan verir.

Qırğız Respublikası regionumuzda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin ardıcıl tərəfdarıdır. Bununla yanaşı, biz qarşılıqlı hörmət və ümumi maraqların nəzərə alınması əsasında bütün tərəfdaş dövlətlərlə konstruktiv fəaliyyətin vacibliyini əsas götürürük.

Əminəm ki, təşkilatın iştirakçısı olan ölkələrin təhlükəsizlik şuralarının aparatları arasında əməkdaşlıq bundan sonra da möhkəmlənəcək, birgə praktiki tədbirlər isə qarşılıqlı etimadın və sabitliyin daha möhkəm təməlini təşkil edəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV** dedi:

- Təşəkkür edirəm. Bildiyiniz kimi, ötən ay hörmətli Sadır Nurqojoyeviçin dəvəti ilə Qırğızıstanda iki dəfə səfərdə oldum, - ona ən xoş arzularımı və qonaqpərvərliyinə görə bir daha minnətdarlığımı çatdırın, - həm İssık-Kulda Mərkəzi Asiya ölkələri və Azərbaycan rəhbərlərinin qeyri-rəsmi Zirvə görüşü çərçivəsində, həm də dövlət səfəri çərçivəsində. Eyni zamanda ölkənin sosial-iqtisadi inkişafında əldə olunan bütün uğurlar, Qırğızıstanın sürətli inkişafı münasibətilə də Sizi təbrik etmək istərdim.

Mən İssık-Kula ikinci dəfə səfər etdim. İlk dəfə kifayət qədər uzun müddət əvvəl orada olmuşdum. Əlbəttə, təkcə Qırğızıstanın deyil, hesab edirəm ki, dünyanın da incilərindən biri olan bu məkanın necə sürətlə inkişaf etdiyini görməmək və buna sevinməmək mümkün deyil. Müasir infrastruktur, müasir istirahət zonaları, hotellər, açılışında iştirak etdiyimiz möhtəşəm qolf-klub - bütün bunlar onu göstərir ki, Qırğızıstanın hazırkı rəhbərliyi öz köklərinə çox möhkəm bağlıdır və belə deyim, Sadır Nurqojoyeviçdən əvvəl itirilmiş imkanların bərpası üçün çox böyük işlər görür.

Onun işi bizdəkindən daha çətindir. Çünki o, vəziyyəti mənfi birinci mərtəbədən başlayaraq yüksəltməli idi. Lakin ölkənin necə inkişaf etməsi, tədbirlərin necə təşkil olunması, - çünki Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən tədbirlər ən yüksək səviyyədə təşkil olunmuş ən böyük beynəlxalq tədbirlərdir, - bütün bunlar həm tədbirlərin keçirildiyi məkan, həm iştirakçıların yerləşdirilməsi, həm təşkilati məsələlər, həm də yeni stadionda nümayiş etdirilən möhtəşəm təqdimat baxımından yüksək səviyyədə təşkil olunub və bütün bunlar böyük xərclər tələb edir. Bu isə o deməkdir ki, iqtisadiyyat işləməlidir. Əks halda heç bir layihəni həyata keçirmək mümkün deyil. Ona görə də Sizi, bütün qardaş Qırğızıstan xalqını bir daha təbrik etmək istərdim.

Əlbəttə, səfər çərçivəsində Qırğızıstan ilə Azərbaycan arasında müttəfiqlik haqqında Müqavilə imzalandı. Mən artıq qeyd etdim ki, demək olar, bütün ölkələrlə, - Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla, - müttəfiqlik münasibətlərimiz var. Həmkarımızın qeyd etdiyi kimi, Özbəkistanla biz əbədi dostluq haqqında müqavilə imzalamışıq. Yəni beynəlxalq təcrübədə bundan yüksək səviyyədə münasibət yoxdur.

Bütün bunlar ikitərəfli formatdan əlavə, təşkilatımızı möhkəmləndirir. Biz birgə səylərlə çalışmalıyıq ki, TDT beynəlxalq məsələlərdə, beynəlxalq təhlükəsizlik, beynəlxalq ticarət, enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları ilə əlaqədar məsələlərdə daha böyük rol oynasın. Bütün bunlar bizim əlimizdədir. Bu gün dünya üçün mühüm əhəmiyyət daşıyan bütün məsələlər bizim coğrafiyamızda baş verir. Buna görə də təşkilatın nüfuzunu, onun beynəlxalq proseslərə təsir etmək imkanlarını artırmaq üçün bu potensialdan maksimum istifadə etmək, o cümlədən haqqında danışdığımız kimi beynəlxalq hüquq müstəvisindən təsir göstərmək, beynəlxalq hüququn üstünlüyünü qorumaq və beynəlxalq hüququn uzun illər ərzində pozulmasına imkan verməmək lazımdır.

Bildiyiniz kimi, Azərbaycan 30 il ərzində bununla üzləşib. Biz öz hüquqlarımızı döyüş meydanında bərpa etməli olduq. Lakin beynəlxalq mexanizmlər işləsəydi və BMT sistemi normal fəaliyyət göstərsəydi, - yeri gəlmişkən, ŞƏT çərçivəsindəki qısa çıxışım zamanı bu barədə də danışmışdım, çünki mövzu BMT və beynəlxalq təşkilatlarla bağlı idi, - ərazilərimizi güc yolu ilə geri almağa məcbur qalmazdıq, bu qədər itki olmazdı.

Sadəcə olaraq, beynəlxalq hüquq iflic vəziyyətinə düşmüşdü, lakin bu, öz-özünə baş verməmişdi. Onu həyata keçirməli olan qurum, - BMT Təhlükəsizlik Şurası, - sadəcə olaraq, buna qadir olmadı, daha doğrusu, çox güman ki, bunu etmək istəmirdi. İkili standartlar, bəzi ölkələrə verilən üstünlüklər prinsiplərdən üstün olduqda, münaqişələr də məhz belə yaranır.

Buna görə də münaqişələrin qarşısını almaq və ya onlar artıq baş veribsə, onları sülh yolu ilə həll etmək üçün hansı mexanizm mövcuddur? Yalnız beynəlxalq hüquq. Buna görə də Birləşmiş Millətlər Təşkilatı çərçivəsində elə bir mexanizm hazırlamaq lazımdır ki, bu mexanizm qətnamələrin həyata keçirilməsinə gətirib çıxarsın. Əks halda, bu, seçici yanaşmadır.

Böyük dövlətlər, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri üçün bu, maraqlı olduqda, qətnamələri bir gün ərzində həyata keçirirlər. Bu, onlar üçün maraqlı olmadıqda və ya bizim vəziyyətimizdə olduğu kimi, bunu özləri üçün əlverişsiz hesab etdikdə isə həmin qətnamələr 30 il ərzində kağız üzərində qaldı. Sonra biz gəlib bizə məxsus olanı geri aldıq.

Ona görə də bu məsələlər daha qlobal xarakter daşıyır. Lakin bir daha demək istəyirəm ki, biz birgə səylərlə təşkilatımızın potensialını o dərəcədə gücləndirməliyik ki, o, ən yüksək tribunlardan təkcə öz mövqeyini bəyan etməsin, həm də onu müdafiə edə bilsin. Bütün bunlar bizim, ölkələrimizin əlindədir. Buna birgə səylərlə nail olacağıq.

Beləliklə, bir daha "Xoş gəlmisiniz!", uğurlar arzulayıram və bizə tez-tez gəlin.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci toplantısının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci Toplantısında Bakı şəhərində səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu mötəbər tədbirin ilk dəfə Azərbaycanda təşkil edilməsi məmnunluq doğurur.

Qardaş xalqlarımızı ortaq etnik köklər, dil, mədəniyyət və ənənələr möhkəm ailə kimi birləşdirir. Təbii müttəfiqliyimizi rəsmiləşdirən Türk Dövlətləri Təşkilatı geniş coğrafi məkanda yerləşən, nəhəng siyasi və iqtisadi potensialı əhatə edən dost və qardaş ölkələrimizin birliyinin və səmərəli qarşılıqlı fəaliyyətinin bariz nümunəsidir.

Bu gün türk dünyası özünün yüksəliş mərhələsinə qədəm qoymuşdur. Ölkələrimizdə hökm sürən sülh, əmin-amanlıq və sabitlik şəraiti, uğurla davam etdirilən inkişaf prosesləri xalqlarımızın və dövlətlərimizin böyük nailiyyətidir.

Altı il əvvəl Azərbaycanın qazandığı, ümumi fəxr və qürur mənbəyimiz olan Qarabağ Zəfəri regionda yeni geosiyasi reallığın əsasını qoydu. Bu Zəfər eyni zamanda ölkələrimizi iqtisadi, logistik və strateji cəhətdən bir-birinə bağlayan tarixi bir qapının - Zəngəzur dəhlizinin reallaşmasına zəmin yaratdı. Fürsətdən istifadə edərək, işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında və bərpasında göstərdikləri dəstəyə görə təmsil etdiyiniz ölkələrə təşəkkürümü bildirirəm. Bu təşəbbüslər Azərbaycan xalqı tərəfindən dərin rəğbət və minnətdarlıq hissi ilə qarşılanır.

Bizim sarsılmaz dostluğumuz və qardaşlığımız bu gün vahid ailəmiz olan Türk Dövlətləri Təşkilatının artan beynəlxalq nüfuzunu və potensialını, təşkilatın dünyanın güclü geosiyasi mərkəzlərindən birinə çevrilməsini şərtləndirən əsas amillərdəndir.

Türk Dövlətləri Təşkilatına sədrliyi çərçivəsində Azərbaycan ölkələrimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, qarşılıqlı fəaliyyətimizin geniş potensialının reallaşmasına və bütövlükdə regionumuzun davamlı inkişafına, sülhə və təhlükəsizliyə töhfələr vermək üçün səylərini əsirgəmir. Keçən il Qəbələ Zirvə Görüşündə qəbul edilmiş Bəyannamə üzv ölkələrin siyasi, iqtisadi, enerji, humanitar, hərbi və təhlükəsizlik sahələrində sıx əməkdaşlığını və inteqrasiyasını ehtiva edən mühüm yol xəritəsidir.

Avropa ilə Asiyanı birləşdirən, türk dövlətlərinin rifahına töhfə verən mühüm nəqliyyat-logistika layihəsi olan Orta dəhlizin, o cümlədən Zəngəzur dəhlizinin və digər nəqliyyat bağlantılarının inkişaf etdirilməsi istiqamətində sədrliyimiz çərçivəsində səy göstəririk.

Türk Dövlətləri Təşkilatına sədrliyimiz dövrünə təsadüf edən əlamətdar hadisələrdən biri də Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin keçirilməsidir. Fürsətdən istifadə edərək, təşkilata üzv ölkələrin dəyərli liderlərinə ehtiramımı ifadə edir, qurultaya ünvanladıqları müraciətlərə və ümumiyyətlə, Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatındakı sədrliyinin işinə göstərdikləri daimi dəstəyə görə təşəkkürümü bildirirəm.

Hörmətli tədbir iştirakçıları!

Müasir dünyada ənənəvi təhdidlərlə yanaşı, bəşəriyyəti narahat edən yeni çağırışlar, o cümlədən kibertəhdidlər meydana gəlir, yeni qeyri-sabitlik ocaqları yaranır, beynəlxalq hüququn böhranı müşahidə olunur. Bunların hamısı regional və qlobal problemlərin həlli istiqamətində ortaq gündəliyimizin müəyyənləşdirilməsini, mühüm məsələlərə dair vahid mövqeyimizin formalaşdırılmasını və bütün istiqamətlər üzrə fəaliyyətimizin əlaqələndirilməsini labüd edir. İkitərəfli əsasda həyata keçirdiyimiz hərbi təlimlər müdafiə sahəsində əməkdaşlığımıza töhfə verməklə, dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini bir daha bariz şəkildə təsdiq edir.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları arasında əməkdaşlıq türk dünyasının inteqrasiya prosesinin, sadəcə, siyasi, iqtisadi və mədəni sahələrlə məhdudlaşmadığının, həm də uzunmüddətli strateji xarakter daşıdığının göstəricisidir.

Təhlükəsizlik Şuraları katiblərinin mütəmadi əsasda toplaşaraq aktual təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparması ortaq qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi və onların neytrallaşdırılması yollarının araşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir, Türk Dövlətləri Təşkilatı məkanında təhlükəsizlik sahəsində dialoqu tamamilə yeni səviyyəyə qaldıraraq ortaq təhlükəsizlik arxitekturasının formalaşdırılmasına xidmət edir. Belə ki, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, dini ekstremizm, hibrid təhdidlərlə mübarizə, kritik infrastrukturun mühafizəsi kimi məsələlər istənilən dövlətin təkbaşına həll edə bilməyəcəyi məsələlərdir. Bu səbəbdən, mühüm koordinasiya mexanizmi olaraq, təhlükəsizlik şuralarının üzərinə böyük məsuliyyət düşür.

Əminəm ki, toplantı zamanı gündəlikdə duran mühüm məsələlər ətrafında aparılacaq müzakirələr, irəli sürüləcək təşəbbüs və təkliflər ölkələrimizin əmin-amanlığına, təhlükəsiz gələcəyinə, türk dünyasının qlobal təhdidlər qarşısında daha dayanıqlı və sarsılmaz bir gücə çevrilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

Toplantının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2026-cı il*

## F.F.Mustafayevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elmi fəaliyyətin qiymətləndirilməsi sahəsində səmərəli fəaliyyətinə görə Famil Front oğlu Mustafayev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2026-cı il*

# Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci toplantısı keçirilib

Sentyabrın 17-də Bakı şəhərində, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, general-polkovnik Ramil Usubovun sədrliyi ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 5-ci toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ramil Usubov Azərbaycan Prezidenti İlham Əliyevin müraciətini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan, eləcə də Şimali Kipr Türk Respublikası və Türk Dövlətləri Təşkilatının Katibliyi təmsilçilərinin iştirak etdiyi tədbirdə müzakirə olunan mövzularla bağlı Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubovun məruzəsi dinlənilib. Diqqətə çatdırılıb ki, qlobal geoiqtisadi münaqişələrin, müharibələrin, beynəlxalq hüququn zəifləməsi kimi mürəkkəb və təhlükəli proseslərin mövcudluğu şəraitində illik toplantıların keçirilməsi müasir çağırışların qabaqlanması, ümumi təhdidlərə qarşı birgə cavabların hazırlanması baxımından səmərəli platforma, ölkələrimiz arasında təhlükəsizlik sahəsində əməkdaşlığın güclənməsinə, ortaq maraqlarımızın həyata keçirilməsinə mühüm töhfədir.




Gündəlikdə duran məsələlər - Yaxın Şərqdə cərəyan edən hadisələr fonunda regional təhlükəsizlik problemləri, süni intellekt sahəsində milli inkişafın imkanları və digər mövzularla bağlı nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər. Müzakirə zamanı Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçıları tərəfindən əldə olunan razılaşmaların, eyni zamanda 2025-ci il oktyabr ayının 7-də imzalanmış Qəbələ Bəyannaməsinin müddəalarından irəli gələn təhlükəsizlik məsələləri üzrə vəzifələrin həyata keçirilməsi istiqamətində görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

# DTX-nin rəisi Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 28-ci iclasında iştirak edib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstanda keçirilən Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 28-ci iclasında iştirak edib.

Bu barədə AZƏRTAC-a DTX-nin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, tədbirdə çıxış edən DTX-nin rəisi müasir geosiyasi proseslərin doğurduğu yeni qlobal və regional təhdidlərə, o cümlədən davam edən genişmiqyaslı hərbi qarşıdurmaların nəqliyyat dəhlizlərinin fəaliyyətində yaratdığı ağır fəsadlara diqqət çəkib. Çıxışda vətəndaşların müxtəlif yollarla hərbi əməliyyatlara muzdlu döyüşçü qismində cəlb olunması, habelə döyüş zonalarından qanunsuz çıxarılan silah-sursat və partlayıcı maddələrin qaçaqmalçılığı kriminogen vəziyyəti ağırlaşdıran təhlükəsizlik mühitinə ciddi təhdid kimi qiymətləndirilib.

Xidmət rəisi Yaxın Şərqdə davam edən böhranların, o cümlədən strateji boğazların blokadaya alınmasının dünya ticarətinə, enerji təhlükəsizliyinə və qlobal iqtisadiyyata mənfi təsirlərini qeyd etməklə mövcud qeyri-müəyyənliklər şəraitində heç bir dövlətin baş verən proseslərdən kənarda qala bilməyəcəyini, milli təhlükəsizliyin etibarlı təmin edilməsi və qarşıda duran çağırışlara vahid mövqedən yanaşılması məqsədilə tərəfdaş dövlətlər arasında təcrübə və məlumat mübadiləsinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.




Dünyada mövcud vəziyyətin qiymətləndirildiyi, müasir çağırışlar fonunda regional təhlükəsizliyin təmin olunması istiqamətində zəruri addımların müzakirə edildiyi iclasda müvafiq məsələləri əhatə edən yekun sənəd imzalanıb.

# Milli Məclisin komitə iclaslarında

Sentyabrın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 11 məsələ - 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə komitədə görülən işlər barədə hesabat, komitənin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi və bir sıra qanun layihələri müzakirəyə çıxarılıb.

Komitənin sədri Azər Əmiraslanov iclası açaraq yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Sonra gündəlikdəki məsələlər təqdim edilib.

Azər Əmiraslanov bildirib ki, komitənin 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə 24 iclası olub, 103 məsələ, o cümlədən 41 qanun layihəsi və 2 hesabat geniş müzakirə edilib. Bununla yanaşı, komitə sədri tərəfindən mütəmadi olaraq vətəndaşların qəbulu keçirilib, onların ərizə və müraciətləri baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib.

Sonra komitə sədri cari ilin payız sessiyasında görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, növbəti sessiyanın iş planının layihəsinə qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələri, bəzi qanunlara təklif olunan dəyişikliklərlə bağlı sənədlər, habelə 2027-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan qanun layihələri daxil edilib. Sessiya ərzində həmçinin komitədə aidiyyəti qurumlarla, sahibkarlarla, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərin keçirilməsi, milli iqtisadiyyatın müxtəlif aspektləri ilə bağlı ictimai dinləmələrin təşkili nəzərdə tutulub.

İclasda 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində görülən işlər qənaətbəxş hesab olunub, komitənin cari ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

Daha sonra gündəlikdəki qanun layihələrinə baxılıb.

Komitə sədri Azər Əmiraslanov "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) məlumat verib. Qeyd edilib ki, layihədə balıqçılıq sahəsində dövlət nəzarətinin operativliyinin və fasiləsizliyinin təmin edilməsi, habelə aqrar sektor üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) öhdəliyinin risk əsaslı yanaşmaya və konkret, ölçülə bilən kəmiyyət meyarlarına keçirilməsi ilə bağlı bir sıra dəyişikliklər təklif olunur. Gündəliyin növbəti 3 məsələsinin beynəlxalq sazişlərin təsdiqi ilə bağlı qanun layihələri olduğu bildirilib. Bu məsələləri komitənin üzvü Zaur Şükürov təqdim edib.

"Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı diqqətə çatdırılıb ki, saziş Azərbaycan Respublikası ilə Monqolustan arasında beynəlxalq hava əlaqələrinin yaradılması, razılaşdırılmış marşrutlar üzrə sərnişin, baqaj, yük və poçt daşımalarının təşkili, habelə tərəflərin təyin etdikləri aviasiya şirkətlərinin fəaliyyətinin tənzimlənməsi üçün hüquqi əsasları müəyyən edir.

Digər məsələ - "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi haqqında söhbət



açılaraq qeyd edilib ki, sənəd tərəf dövlətlər arasında avtomobil əlaqələrini və onların əraziləri üzrə tranziti daha da inkişaf etdirmək və daşıma şərtlərini sadələşdirmək məqsədi daşıyır, sərnişin və yük daşımaları istiqamətində münasibətlərin tənzimlənməsinə xidmət edir.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında 2022-ci il 11 oktyabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında İkinci Əlavə Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə dair məlumat verilib. Bildirilib ki, sözügedən saziş iki dövlət arasında investisiya əməkdaşlığının genişləndirilməsi və birgə investisiya layihələrinin maliyyələşdirilməsi üçün Azərbaycan-Qırğız İnkişaf Fondunun nizamnamə kapitalını artırmaq məqsədi daşıyır.

Növbəti məsələni - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) komitənin sədr müavini Azər Badamov təqdim edib.

Diqqətə çatdırılıb ki, sənəddə Əmək Məcəlləsində nəzərdə tutulan ümumi normalardan istisna olaraq, aviasiya heyətinin iş və istirahət rejimlərinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarına uyğun şəkildə Nazirlər Kabinetinin qaydaları ilə tənzimlənməsi təklif olunur.

Gündəliyin digər məsələsini - "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) komitənin üzvü Vüqar Bayramov diqqətə çatdırıb. Qeyd olunub ki, sözügedən qanuna 15.5-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddəyə əsasən, insanların həyat və sağlamlığı üçün təhlükəli hesab edilən və texniki tənzimləmənin şamil olunduğu malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi nəzərdə tutulur. Sonra "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb.

Komitə sədri Azər Əmiraslanov qanunun 48-1-ci maddəsinin yeni redaksiyada təqdim edildiyini söyləyib. Bildirilib ki, layihəyə əsasən, Mərkəzi Bankın nəzarəti ayrı-ayrı maliyyə institutları ilə yanaşı, onların daxil olduğu maliyyə qruplarına da şamil ediləcək. Maliyyə institutlarının və maliyyə qruplarının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi sahəsində risk profilləri, o cümlədən qanunvericiliyin tələblərinə riayət edilməməsi riskləri dövri olaraq qiymətləndiriləcək. Mərkəzi Bank nəzarət tədbirlərinin dövriliyini və intensivliyini maliyyə institutunun və ya maliyyə qrupunun risk profilini, siyasətini, daxili qaydalarını, nəzarət mexanizmlərini və prosedurlarını nəzərə almaqla müəyyən edəcək.

Növbəti məsələ - "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı iclasda iştirak edən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin birinci müavini Cəfər Babayev və agentliyin Aparat rəhbəri Tural İsmayılov fikirlərini açıqlayıblar.

Nəzərə çatdırılıb ki, təklif olunan dəyişikliklərin əsas məqsədi qanunun 3.2.8-1-ci maddəsində sadalanan hüquqi şəxslər tərəfindən müəyyən maliyyə mənbələri istisna olmaqla digər maliyyə vəsaiti hesabına həyata keçirilən satınalmaları "Dövlət satınalmaları haqqında" qanunun tətbiq dairəsindən çıxarmaqdır. Yeni 3.2.8-1-ci maddə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın, həmin qurumun idarəetməsinə verilmiş dövlət müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin satınalmalarını əhatə edir. İstisna həmçinin onların təsisçisi və iştirakçısı olduqları hüquqi şəxslərin iştirak payına uyğun satınalmalarına şamil olunur.

Gündəliyin sonuncu məsələsi - "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumatı komitənin sədr müavini Azər Badamov təqdim edib. Bildirilib ki, qanunun 33.1.5-ci maddəsi yeni redaksiyada təklif olunur. Dəyişiklik telekommunikasiya xidmətlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilən keyfiyyət göstəricilərinə uyğun göstərilməsini ehtiva edir.

Tədbirdə komitə üzvləri Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Rövşən Muradov çıxış edərək təqdim olunan məsələlər barədə öz fikir və qeydlərini söyləyiblər.

Müzakirəyə çıxarılan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Sentyabrın 17-də Milli Məclisin Səhiyyə komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Əhliman Əmiraslanov yeni sessiyada komitənin fəaliyyətinə uğurlar arzulayıb və gündəliyə 2 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Səhiyyə komitəsinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, ötən sessiyada 11 iclas keçirilib və 13 məsələyə baxılıb. Komitə sədrinin qəbul günlərində 165 nəfər vətəndaş olub, onların müraciətləri dinlənilərək, qaldırılan məsələlərin həlli istiqamətində müvafiq addımlar atılıb. Bununla yanaşı, sessiya ərzində komitəyə daxil olan ərizə və məktublara baxılaraq, lazımi tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara göndərilib.

Daha sonra komitə sədri Səhiyyə komitəsinin cari ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Qeyd edib ki, planda payız sessiyasında komitəyə daxil olacaq qanun layihələrinə, vətəndaşlardan daxil olan müraciətlərə baxılması, müvafiq ictimai dinləmələrin keçirilməsi və digər məsələlər əks olunub.

Müzakirələr zamanı komitənin üzvləri Günay Əfəndiyeva, İlham Məmmədov, Soltan Məmmədov, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Pərvanə Vəliyeva və Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 299** **Bakı şəhəri, 16 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 31 mart tarixli 634 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507, № 9, maddələr 858, 870, № 11, maddə 1093; 2026, № 6, maddə 592; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 212 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.1.21-1-ci yarımbənd əlavə edilsin:

"4.1.21-1. Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi üçün:

4.1.21-1.1. minatəmizləyənin minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmasını və ya bu zaman aldığı xəsarətdən həyatını itirməsini təsdiq edən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən verilən arayış;

4.1.21-1.2. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmuş və ya bu zaman aldığı xəsarətdən həyatını itirmiş minatəmizləyənin ölüm haqqında şəhadətnaməsinin surəti;

4.1.21-1.3. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmuş və ya bu zaman aldığı xəsarətdən həyatını itirmiş minatəmizləyənin təqaüd almaq hüququ olan ailə üzvləri olmasını təsdiq edən sənədlərin (övladlarına və uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına münasibətdə həmin şəxslərin doğum haqqında şəhadətnamələrinin, valideynlərinə münasibətdə özünün doğum haqqında şəhadətnaməsinin, baba və nənələrinə münasibətdə özünün və birinci növbədə digər qohumlarının doğum haqqında və ölüm haqqında şəhadətnamələrinin, habelə vəfat etmiş ailə üzvlərinin ölüm haqqında şəhadətnaməsinin) surəti;

4.1.21-1.4. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmuş və ya bu zaman aldığı xəsarətdən həyatını itirmiş minatəmizləyənin dul arvadı (əri) ilə nikahı haqqında şəhadətnamə;

4.1.21-1.5. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmuş və ya bu zaman aldığı xəsarətdən həyatını itirmiş minatəmizləyənin 23 yaşınadək övladının (övladlarının) peşə təhsili, orta ixtisas təhsili və ya ali təhsil müəssisəsində təhsil alması barədə müvafiq təhsil müəssisəsinin arayışı;

4.1.21-1.6. minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olmuş və ya bu zaman aldığı xəsarətdən həyatını itirmiş minatəmizləyənin 18 yaşına çatmamış (təhsil alanlar təhsilini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək), yaxud 18 yaşına çatanadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı əlilliyi olan uşaq evlərində tərbiyə olunan qardaş və bacıları olduqda bu barədə həmin müəssisənin arayışı;".

2. 7.4-cü bəndə "adı verilmiş şəxsin," sözlərindən sonra "minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənin," sözləri əlavə edilsin.

3. 8.1.2.3-cü və 8.2.2.2-ci yarımbəndlərə "adı verilmiş şəxsin" sözlərindən sonra ", habelə minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənin" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 379-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 300** **Bakı şəhəri, 16 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 379-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixl 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I); 2024, № 2, maddə 210, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 9, maddə 858; 2026, № 5 (II kitab), maddə 457; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 iyul tarixli 239 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının, habelə mopedlərin müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 2.6-cı bəndinin üçüncü abzasına "57.4-cü" sözlərindən sonra ", 57.6.3-cü" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 210; 2025, № 2, maddə 196, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 iyul tarixli 239 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 2.5-ci bəndinə "57.4-cü" sözlərindən sonra ", 57.6.3-cü" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 3, maddə 282, № 5, maddə 507, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 iyul tarixli 239 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"nin 3.9-4-cü bəndinə "57.4-cü" sözlərindən sonra ", 57.6.3-cü" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 20 dekabr tarixli 345 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1635 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə rəqəmlərin və hərflərin kombinasiyası üzrə dövlət qeydiyyat nişanlarının verilmə Qaydası"nın 2.2.3-1-ci yarımbəndinə "57.4-cü" sözlərindən sonra ", 57.6.3-cü" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi və "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 yanvar tarixli 54 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 301** **Bakı şəhəri, 17 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 957 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarına (pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi, o cümlədən xəstəliklərin profilaktikası, ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator-poliklinik və stasionar tibbi yardım, onların tibbi reabilitasiyası və sağlamlaşdırılmasının təmin edilməsi "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.1. bu Qərarın icrası ilə əlaqədar müvafiq vəsaitlərin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 yanvar tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 121 (Cild I) ləğv edilsin.

4. Bu Qərar 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Bakı şəhərinin inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 302** **Bakı şəhəri, 17 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qoyuluş gücü 100 MVt olan günəş elektrik stansiyasının və 30 MVt gücündə Batareya Enerji Saxlanc Sisteminin tikintisi məqsədilə Bakı şəhəri Xəzər rayonu, Zirə qəsəbəsi ərazisində yaşayış məntəqələrinin torpaqları kateqoriyasına aid 198,45 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahələrinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirsin.

3. Müəyyən edilsin ki, bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 198,45 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 303** **Bakı şəhəri, 17 sentyabr 2026-cı il**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2027-ci il 2 yanvar saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 6, maddə 600, № 9, maddə 875, № 12 (II kitab), maddə 1252; 2026, № 3, maddə 282, № 5 (II kitab), maddə 478, № 6, maddə 587) 1.1-ci bəndində "2026-cı il 1 oktyabr" sözləri "2027-ci il 2 yanvar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türk dünyasının birliyi tarixi zərurətdir



Dünyada baş verən mürəkkəb proseslər, yeni güc mərkəzlərinin və siyasi reallıqların formalaşması dövlətlər arasında sıx tərəfdaşlığın, xüsusən tarixi-mənəvi köklərə söykənən həmrəyliyin əhəmiyyətini bir daha ortaya qoyur. Azərbaycan özünün məqsədyönlü xarici siyasəti ilə həm islam aləmində, həm də, Türk dünyasında birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən aparıcı güc mərkəzlərindən biri kimi çıxış edir. Ölkəmiz müsəlman xalqları arasında mənəvi bağların dərinləşməsinə illərdir ardıcıl və ciddi töhfələr verməkdədir. Azərbaycan bu ali məqsədi bilavasitə əməli addımlarla, qlobal miqyaslı təşəbbüslərlə reallığa çevirir.

Azərbaycanın həmrəylik mərkəzi kimi artan rolu bu günlərdə paytaxtda iki böyük və möhtəşəm beynəlxalq tədbirin eyni vaxtda təşkil olunması ilə bir daha öz təsdiqini tapdı. Sentyabrın 15-də Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və dahi şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi, mötəbər qonaqların bu tədbirlərdə iştirakı olduqca əhəmiyyətlidir. Hər iki tədbirin eyni vaxtda təşkili regionda mənəvi birliyin, elm və irfan ənənələrinin dirçəldilməsi baxımından mühüm tarixi hadisədir.

Din xadimlərinin və mütəfəkkirlərin davamlı görüşləri xalqlarımız arasında mənəvi yaxınlığın dərinləşməsinə, müasir dövrdə dünya miqyasında getdikcə narahatlıq doğuran islamofobiya kimi mənfi təzahürlərə, ksenofobiyaya və ayrı-seçkiliyə qarşı vahid platformadan mübarizə aparılmasına güclü zəmin yaradır. Bu cür müştərək addımlar həm də xalqlarımızın ortaq mənəvi dəyərlərini qorumaq və gələcək nəsillərə çatdırmaq baxımından əvəzsiz rola malikdir.

Prezident İlham Əliyev Azərbaycanın bu sahədəki ardıcıl və məqsədyönlü siyasətini vurğulayaraq bəyan edib: "Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, islam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək". Eyni zamanda dövlət başçımızın "Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın" fikri Azərbaycanın bu missiyaya nə qədər böyük məsuliyyətlə yanaşdığının bariz göstəricisidir.

Azərbaycan özünün tarixi haqq işini və bölgədə yaradılmış yeni reallıqları beynəlxalq auditoriyaya çatdırmaq istiqamətində də məqsədyönlü diplomatik siyasət yürüdür. Ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələrinin və beynəlxalq təşkilatların təmsilçilərinin Qarabağ və Şərqi Zəngəzura ardıcıl səfərlərinin təşkili bu strategiyanın tərkib hissəsidir. Qarabağa təşkil olunan diplomatik səfərlər sayəsində xarici nümayəndələr həm dəhşətli dağıntıların, işğalın ağır nəticələrinin şahidi olur, həm də Azərbaycan dövlətinin bölgədə reallaşdırdığı genişmiqyaslı bərpa və quruculuq işlərini, yenidən doğulan həyatı yerində görürlər.

Ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən birini türk dünyasının birliyi təşkil edir. Çünki bu gün türk dövlətlərinin sıx inteqrasiyası müasir dövrün tələb etdiyi tarixi zərurətdir. Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində türk dünyasının təşkilatlanması və güclənməsi istiqamətində tarixi adımlar atılıb. Türk ölkələrinin institusional birliyinin təməli məhz Azərbaycanda qoyulub. 2009-cu ilin oktyabr ayında türk dövlətlərinin başçılarının Naxçıvan şəhərində keçirilən IX Zirvə Görüşündə Naxçıvan Sazişinin imzalanması ilə Türk Dövlətləri Təşkilatının bünövrəsi qoyulub. Bu tarixi hadisə türk dünyasının geostrateji mənzərəsini köklü şəkildə dəyişib. Sonrakı mərhələdə Azərbaycan bu birliyin dinamik inkişafına misilsiz töhfələr verməyə davam edib. Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün 2024-cü ilin iyul ayında məhz Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində təşkil olunması və tarixi "Qarabağ Bəyannaməsi"nin imzalanması təşkilatın gələcək inkişaf xəttinin müəyyən edilməsinin başlanğıcı olub.

Hazırda Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq yalnız siyasi dialoqla məhdudlaşmır, iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, mənəvi-milli dəyərlər, təhlükəsizlik və müdafiə sənayesi kimi həyati sahələrdə dərinləşir. Bu gün türk dünyası nəhəng bir coğrafiyanı və böyük potentsialı əhatə edir. TDT-yə daxil olan ölkələrin ümumi ərazisi 4,2 milyon kvadrat kilometrdən çoxdur, əhalisinin sayı isə 180 milyona yaxındır. Bu böyük demoqrafik və ərazi potensialı, zəngin təbii resurslar və strateji nəqliyyat dəhlizləri türk dünyasını qlobal siyasətdə söz sahibinə çevirir.

Prezident İlham Əliyev bu birliyin rəmzi və praktiki əhəmiyyətini proqram xarakterli çıxışında xüsusi olaraq bəyan edib: "Təbii ki, bizim türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var. Təbii ki, burada sizin bir yerdə olmağınız çox böyük rəmzi məna daşıyır. Çünki məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir. Türk dünyası, Qafqaz, islam aləmi bir yerdə olanda heç kim bizə bata bilməz. Heç kim bizə qarşı ədalətsizlik edə bilməz. Ona görə də biz dövlət olaraq və dövlət siyasəti apararaq bu amili həmişə üstün tuturuq".

Türk dünyasının və islam aləminin həmrəyliyi regionda sülhün, sabitliyin və ədalətin əsas zəmanətçisidir. Azərbaycan bundan sonra da öz milli maraqlarına, tarixi köklərinə və qardaşlıq prinsiplərinə sadiq qalaraq, türk dünyasının birliyinin qorunması və ortaq gələcəyimizin daha təhlükəsiz olması istiqamətində qətiyyətli addımlarını davam etdirəcək.

***Mübariz QURBANLI,***
***YAP İdarə Heyətinin üzvü,***
***Milli Məclisin deputatı***

# *Həmrəyliyin yeni məzmunu:* Azərbaycan türk və islam dünyasının əməkdaşlıq platformasında

**Müasir beynəlxalq münasibətlər sistemində baş verən sürətli dəyişikliklər dövlətlər və xalqlar qarşısında yeni çağırışlar yaratmaqla yanaşı, əməkdaşlığın ənənəvi formalarının da yenidən nəzərdən keçirilməsini zəruri edir. Bu baxımdan türk dünyası və islam ölkələri arasında münasibətlərin yalnız tarixi, dini və mədəni yaxınlıq üzərində deyil, həm də siyasi, humanitar və institusional əməkdaşlıq mexanizmləri əsasında inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısının və böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın eyni vaxtda keçirilməsi də məhz bu çərçivədə diqqət çəkir.**



Bu iki tədbirin bir məkanda və eyni zaman kəsiyində keçirilməsi tarixlə müasirliyin, milli-mədəni irslə beynəlxalq əməkdaşlığın bir-birini tamamlayan istiqamətlər kimi təqdim olunmasına imkan yaradır. Prezident cənab İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan öz tarixi şəxsiyyətləri və zəngin mədəni irsi ilə fəxr edən ölkə olmaqla yanaşı, bu irsi daha geniş coğrafiyada tanıtmağa və onun ətrafında dialoq mühiti yaratmağa çalışır.

Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursunda türk dünyasının birliyinin möhkəmləndirilməsi strateji prioritetlərdən biridir və "Bizim bir ailəmiz var, o da türk dünyasıdır" prinsipi bu əməkdaşlığın ideoloji əsasını təşkil edir. Bu siyasi xəttin məntiqi davamı olaraq Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında dini sahədə əməkdaşlığın institusional əsaslarının gücləndirilməsi, ortaq dini-mənəvi dəyərlərin qorunması və müasir çağırışlara qarşı əlaqələndirilmiş yanaşmaların formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. 2026-cı ilin iyun ayında Şuşada Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin ilk görüşünün keçirilməsi türk dünyasının inteqrasiya proseslərinin dini sahədə də sistemli əməkdaşlıq müstəvisinə keçdiyini göstərən vacib təşəbbüs kimi xarakterizə oluna bilər.

Azərbaycan tarixinin böyük mütəfəkkirlərinin irsi milli sərhədlərlə məhdudlaşmayan mühüm mənəvi sərvətdir. Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Seyid Yəhya Bakuvi, Şah İsmayıl Xətai və Məhəmməd Füzuli kimi şəxsiyyətlərin yaradıcılığı Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi töhfələrin vacib hissəsini təşkil edir. Bu irsin aktuallığı keçmişin xatırlanması ilə bağlı deyil. Əksinə, həmin irs bu gün müxtəlif xalqlar və cəmiyyətlər arasında dialoq üçün intellektual və mənəvi zəmin formalaşdıra bilər. Seyid Yəhya Bakuvinin irsinin beynəlxalq konfrans çərçivəsində müzakirə olunması da bu aspektdən önəmli hadisədir. Çünki böyük mütəfəkkirlərin irsinin beynəlxalq elmi və ictimai dövriyyəyə daxil edilməsi mədəni diplomatiyanın imkanlarını genişləndirir. Tarixi şəxsiyyətlərin irsi xalqlar arasında qarşılıqlı anlaşmanın təşviqi üçün istifadə edilə bilən əhəmiyyətli humanitar resursdur.

Ölkəmizin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində mədəniyyətlərarası və dinlərarası dialoqa yönəlmiş tədbirlərə evsahibliyi etməsi Azərbaycanı müxtəlif platformaların kəsişdiyi məkanlardan birinə çevirir. Azərbaycanın xüsusi mövqeyi həm də onun coğrafi və siyasi kimliyinin çoxşaxəli xarakterindən irəli gəlir. Ölkəmiz türk dünyasının bir hissəsidir, Qafqaz regionunda yerləşir və islam dünyasının mühüm siyasi və mədəni aktorlarından biridir. Prezident İlham Əliyevin çıxışında da Azərbaycanın türk dünyası və Qafqaz arasında tarixi əlaqələrə malik olması xüsusi vurğulanır. Bu xüsusiyyət Azərbaycanın beynəlxalq əməkdaşlıq gündəliyinə əlavə imkanlar qazandırır. Müxtəlif regional təşkilatlar və platformalar arasında əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətində çoxvektorlu əməkdaşlıq imkanlarının genişləndirilməsinə xidmət edə bilər.

İslam həmrəyliyi anlayışı uzun müddət əsasən mənəvi və dini birlik kontekstində işlədilib. Halbuki müasir beynəlxalq münasibətlərdə bu anlayışın daha geniş məzmun qazanması mümkündür. Həmrəylik ortaq problemlərə münasibətdə qarşılıqlı məsuliyyət, dialoq və əməkdaşlıq mexanizmlərinin formalaşdırılması deməkdir. Cənab prezident İlham Əliyevin çıxışında Azərbaycanın islam həmrəyliyini "əməli-praktiki addımlarla" gücləndirmək siyasətinə xüsusi diqqət yetirilir. İslam Əməkdaşlıq Təşkilatı və ICESCO çərçivəsində həyata keçirilən tədbirlər, eləcə də 2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları bu yanaşmanın nümunələri kimi göstərilir. Burada əsas məsələ həmrəyliyin institusional xarakter almasıdır. Əgər dövlətlər və cəmiyyətlər arasında münasibətlər təkcə bəyanatlar səviyyəsində qalırsa, onların uzunmüddətli nəticə yaratmaq imkanları məhdud olur. Əksinə, müntəzəm görüşlər, birgə layihələr, humanitar proqramlar, akademik mübadilələr və ictimai diplomatiya mexanizmləri həmrəyliyi davamlı prosesə çevirə bilər.

Dini liderlər böyük sosial auditoriyalara təsir göstərən ictimai aktorlardır. Onların sülh, qarşılıqlı hörmət, barışıq və əməkdaşlıq çağırışları cəmiyyətlərdə münasibətlərin formalaşmasına təsir göstərə bilər. Cənab prezidentin çıxışında dini liderlərin sözlərinin müsəlman icmaları üçün əhəmiyyət daşıdığı və bu sözlərin sülhə, əməkdaşlığa və əmin-amanlığa istiqamətlənməsinin vacibliyi məhz bu reallıqla əlaqələndirilir. Bu yanaşma dini diplomatiyanın müasir beynəlxalq münasibətlərdə artan əhəmiyyətini də göstərir. Din dövlətlərarası münasibətlərin yeganə müəyyənedicisi olmasa da, ictimai diplomatiya, humanitar əlaqələr və sülh quruculuğu baxımından mühüm vasitələrdən birinə çevrilə bilər.

Sülhün əldə olunması ilə onun cəmiyyətlərdə möhkəmləndirilməsi eyni proses deyil. Siyasi razılaşmalar münaqişənin hüquqi və diplomatik çərçivəsini müəyyən edə bilər, lakin uzunmüddətli sülh üçün cəmiyyətlər arasında etimadın formalaşması da zəruridir. Məhz bu çərçivədə dini liderlərin imkanlarından istifadə məsələsi xüsusi diqqət tələb edir. Dini icmaların rəhbərləri insanların dünyagörüşünə, mənəvi təsəvvürlərinə və sosial davranışlarına təsir göstərə bilirlər. Buna görə də onların qarşıdurma deyil, dialoq və qarşılıqlı anlaşma dilindən istifadə etməsi sülh mədəniyyətinin inkişafına töhfə verə bilər.

Prezident İlham Əliyevin çıxışında regionda sülhün qorunması məsələsinə xüsusi yer ayrılır. Azərbaycan tərəfindən sülh gündəliyinin seçilməsi və bu istiqamətdə praktiki addımların atılması dövlət siyasətinin mühüm istiqaməti kimi təqdim olunur. Bu kontekstdə türk dünyası və islam dünyasının dini liderləri arasında dialoq platformalarının genişləndirilməsi sadəcə dini məsələ kimi deyil, həm də regional sabitlik və humanitar əməkdaşlıq məsələsi kimi nəzərdən keçirilə bilər. Prezidentin çıxışında Qarabağ məsələsinə ayrılan geniş yer Azərbaycanın müharibədən sonrakı siyasi gündəliyinin mühüm istiqamətlərini də ortaya qoyur. Burada üç paralel xətt diqqəti cəlb edir: tarixi yaddaşın qorunması, dağıdılmış ərazilərin bərpası və gələcəyə yönəlmiş sülh gündəliyi.

Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış dini-mədəni irsin bərpası bu istiqamətdə ayrıca əhəmiyyət daşıyır. Ağdam məscidinin bərpası prosesindən sonrakı mərhələdə digər məscidlərin də bərpası və yenidən qurulması məsələlərinə toxunulmuşdur. Dini abidələr həm də tarixi yaddaşın, mədəni kimliyin və ictimai məkanın bir hissəsidir. Ona görə də dini irsin qorunması postmünaqişə dövründə sosial reinteqrasiyanın və mədəni həyatın bərpasının mühüm komponentlərindən biri kimi qiymətləndirilə bilər.

Eyni zamanda Qarabağda həyata keçirilən Böyük qayıdış prosesi regionun sosial həyatının yenidən qurulmasını qarşıya məqsəd qoyur. Prezidentin çıxışında artıq müxtəlif şəhər və kəndlərdə insanların məskunlaşdığı, keçmiş məcburi köçkünlərin qayıtdığı və regionda həyatın bərpa olunduğu qeyd edilir. Bu prosesin sosial aspekti xüsusi əhəmiyyət daşıyır. Çünki ərazilərin fiziki bərpası ilə yanaşı, insanların həmin məkanlarla mənəvi və sosial bağlarının yenidən qurulması da uzunmüddətli nəticələrin əsas şərtlərindən biridir.

Sülh haqqında danışarkən diqqəti sadəcə dövlətlərarası münasibətlərə yönəltmək kifayət deyil. Sülh həm də insanların gündəlik həyatına, ailələrin gələcəyinə, uşaqların dünyagörüşünə və cəmiyyətlərin bir-birini necə qəbul etməsinə təsir göstərən sosial hadisədir. Bu nöqteyi-nəzərdən sülh gündəliyinin sosial ölçüsü xüsusi əhəmiyyət kəsb edir. Uzunmüddətli sülh nəsillərin qarşılıqlı düşmənçilik deyil, dialoq və əməkdaşlıq mühitində formalaşmasını tələb edir. Məhz burada ailə və sosial institutların rolu ön plana çıxır. Uşaqların və gənclərin dünyagörüşünün formalaşmasında ailə ilə yanaşı, təhsil, mədəniyyət, media və dini institutlar da mühüm rol oynayır. Sülh mədəniyyətinin gələcək nəsillərə ötürülməsi bu institutların birgə fəaliyyətini zəruri edir. Çünki cəmiyyətin dayanıqlılığı yalnız iqtisadi və siyasi göstəricilərlə ölçülmür. Ailə institutunun möhkəmliyi, uşaqların təhlükəsiz və sağlam sosial mühitdə böyüməsi, qadınların ictimai həyatda fəal iştirakı və gənclərin vətəndaşlıq dəyərlərinin inkişafı dövlətin uzunmüddətli sosial dayanıqlılığının əsas komponentlərindəndir. Bu mənada milli-mənəvi dəyərlər müasir sosial siyasətin mühüm elementlərindən biri olmaqla yanaşı, insan hüquqları, bərabərlik, qarşılıqlı hörmət və sosial məsuliyyət prinsipləri ilə birlikdə nəzərdən keçirilməlidir.

Azərbaycanın yerləşdiyi coğrafi məkan ona müxtəlif regional əməkdaşlıq istiqamətlərini birləşdirən imkanlar verir. Türk dünyası ilə Qafqaz, Qafqazla islam dünyası, türk dünyası ilə islam dünyası arasında tarixi və müasir əlaqələrin mövcudluğu bu imkanların əsasını təşkil edir. Prezidentin çıxışında türk dünyasının, Qafqaz və islam aləminin birlikdə əməkdaşlıq etməsinin əhəmiyyətinə xüsusi diqqət yetirilir. Burada "birlik" anlayışını təkcə siyasi inteqrasiya kimi başa düşmək düzgün olmazdı. Müasir şəraitdə birlik müxtəlif əməkdaşlıq formatlarının paralel şəkildə inkişaf etdirilməsi, ortaq maraqların müəyyənləşdirilməsi və fikir ayrılıqlarının dialoq yolu ilə həll edilməsi deməkdir.

Azərbaycanın qarşısında duran vəzifələrdən biri də məhz bu müxtəlif platformalar arasında əməkdaşlıq imkanlarını genişləndirməkdir. Dini liderlərin mütəmadi görüşləri, parlamentlərarası əlaqələr, gənclər və qadın platformaları, akademik əməkdaşlıq və mədəni diplomatiya bu istiqamətdə başlıca vasitələr ola bilər. Prezident İlham Əliyevin dini liderlərin görüşlərinin ənənəvi formata çevrilməsi, onların hər il və ya iki ildən bir keçirilməsi ilə bağlı irəli sürdüyü fikir də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə platformaların davamlı xarakter alması fikir mübadiləsini epizodik tədbirdən institusional dialoq mexanizminə çevirə bilər.

Müasir dövrdə beynəlxalq tədbirlərin sayından daha çox onların yaratdığı nəticələr əhəmiyyət daşıyır. Bütün bunları nəzərə alsaq və mədəni platformaların gələcək fəaliyyətində nəticəyönümlülük əsas meyarlardan biri olmalıdır. Dini liderlərin görüşləri çərçivəsində sülh mədəniyyətinin təşviqi, dini ayrı-seçkiliyin qarşısının alınması, ekstremizmə qarşı maarifləndirmə, dini-mədəni irsin qorunması, gənclər arasında tolerantlıq və qarşılıqlı hörmətin gücləndirilməsi kimi istiqamətlər üzrə konkret əməkdaşlıq mexanizmlərinin formalaşdırılması mümkündür. Davamlı nəticə üçün müxtəlif sosial qrupların bu prosesdə iştirak imkanlarının genişləndirilməsi vacibdir.

Azərbaycanın bu proseslərdəki mövqeyi onun türk dünyası, Qafqaz və islam dünyasının kəsişməsində yerləşən ölkə kimi imkanları ilə sıx bağlıdır. Bu imkanların davamlı nəticələrə çevrilməsi isə dialoqun institusional xarakter almasından, əməkdaşlığın konkret layihələrlə möhkəmləndirilməsindən asılıdır. Bu gün dünyada qarşıdurmaların coğrafiyasının genişləndiyi bir şəraitdə sülhə xidmət edən hər bir platformanın əhəmiyyəti artır. Lakin sülh müharibənin olmaması deyil. Sülh həm də qarşılıqlı etimadın, sosial həmrəyliyin, dialoq mədəniyyətinin və gələcəyə dair ortaq baxışın formalaşmasıdır. Azərbaycanın türk və islam dünyası ilə əməkdaşlıq siyasətinin qarşısında duran əsas perspektivlərdən biri də məhz bu anlayışların praktik məzmunla zənginləşdirilməsidir. Bakıda keçirilən dini və mədəni tədbirlər bu istiqamətdə təkcə bir başlanğıc deyil, həm də daha davamlı və institusional əməkdaşlıq üçün imkan yaradan platforma kimi nəzərdən keçirilməlidir.

Həmrəylik tarixdən gələn mənəvi yaxınlığın ifadəsi ola bilər. Lakin onu davamlı siyasi və ictimai resursa çevirən əsas amil ortaq fəaliyyət, qarşılıqlı etimad və konkret əməkdaşlıqdır. Azərbaycanın bu prosesdə irəli sürdüyü yanaşmanın mahiyyəti də məhz həmrəyliyin praktik məzmun qazanmasına yönəlir.

*Hicran HÜSEYNOVA,*
*Milli Məclisin komitə sədri*

# Ölkəmiz islam həmrəyliyi üçün effektiv dialoq imkanı yaradır

**Bu** gün dünya dini və mədəni ayrı-seçkilik, islamofobiya və müxtəlif cəmiyyətlər arasında etimad böhranı ilə üz-üzədir. Belə bir şəraitdə müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsi zərurətə çevrilib. Prezident İlham Əliyevin müsəlman dini liderləri ilə görüşdə səsləndirdiyi fikirlər də məhz bu kontekstdə diqqət çəkir. Dövlət başçımızın çıxışında əsas xətt ondan ibarətdir ki, islam dünyasının qarşılaşdığı problemlərə cavab axtarılmalı və ayrı-ayrılıqda deyil, birlik və müştərək səylərlə verilməlidir. Təbii ki, həmrəylik dedikdə yalnız siyasi bəyanat deyil, beynəlxalq əməkdaşlıq, mədəni və humanitar əlaqələr, dini liderlərin dialoqu və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi nəzərdə tutulur.



Təəssüf ki, bəzi islam ölkələri müxtəlif regional böhranların, münaqişələrin və sosial-iqtisadi problemlərin təsiri altındadır. Belə şəraitdə həmrəylik həm də dialoq üçün ortaq zəmin yaratmaq deməkdir. Bu prosesdə dini liderlərin çağırışı xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən cənab Prezident çıxışında dini liderlərin sözünün milyonlarla insan üçün mənəvi əhəmiyyət daşıdığını vurğuladı. Əgər bu nüfuz sülhə, əmin-amanlığa, barışığa və əməkdaşlığa yönəldilirsə, onun cəmiyyətlərdə qarşılıqlı anlaşmanın güclənməsinə böyük təsiri var. Yəni, dini həmrəylik sülh və əməkdaşlıq resursuna çevrilməlidir.

Çıxışın ən diqqətçəkən məqamlarından biri islamın terrorla eyniləşdirilməsi, müsəlmanların kollektiv şəkildə mənfi obrazda təqdim edilməsi və Qurana qarşı təhqiramiz hərəkətlərə münasibətdir. Dövlət başçısı bu hadisələri haqlı olaraq "məqsədyönlü siyasət" kimi qiymətləndirir və bunun qarşısında dayanmalı əsas amil kimi islam dünyasının birliyini göstərir. Reallıq ondan ibarətdir ki, islamın əsas fəlsəfəsi mənəviyyat, ədalət və sülhlə bağlıdır. Lakin bir çox qərəzli qüvvələr bu reallığa kölgə salmağa çalışır. İslamofobiyaya cavab olaraq müsəlman dövlətləri və icmaları arasında koordinasiya və həmrəylik gücləndirilməlidir.

Azərbaycan uzun illərdir islam həmrəyliyinin möhkəmlənməsi istiqamətində praktik addımlar atır. Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları da bu real addımlardan biridir. 2017-ci ilin mayında keçirilən yarışlarda 54 ölkədən 3 mindən çox atlet iştirak edib. Bu tədbirin siyasi və humanitar əhəmiyyəti onun idman nəticələrindən daha geniş idi. Azərbaycanın uğurlu evsahibliyi sayəsində idman diplomatik və humanitar dialoqun vasitəsinə çevrilmişdi. Beləliklə, "Bakı-2017" dostluq, sülh, tolerantlıq və mərhəmət ruhunda xalqları bir araya gətirən platforma kimi tarixə düşdü.

Prezident İlham Əliyevin çıxışında yer alan digər mühüm təşəbbüs isə türk dövlətlərinin müsəlman dini liderlərinin görüşlərinin ənənəvi formata salınması ilə bağlıdır. Bu görüşlərin müntəzəm keçirilməsi dini savadlılığın artırılması, islamofobiyaya qarşı maarifləndirmə, humanitar əməkdaşlıq, dinlərarası dialoq və tolerantlıq kimi məsələlərin sistemli şəkildə müzakirəsinə şərait yaradır.

Çıxışda Azərbaycanın Qarabağda bərpa prosesində məscidlərin bərpasına verdiyi önəm də xüsusi vurğulanır. Cənab Prezidentin sözlərinə görə, 2021-ci ildən etibarən bərpa prosesində ilk layihə Ağdam məscidi olub və sonrakı dövrdə dağıdılmış və ya zədələnmiş məscidlərin bərpası davam etdirilib.

Məscidin bərpası dini-mənəvi irsin qorunmasının rəmzlərindən biridir. Ağdam məscidinin bərpası həm də Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi geniş yenidənqurma siyasətinin bir hissəsidir.

Eyni zamanda bu məsələ beynəlxalq auditoriyaya Azərbaycanın dini və mədəni irsə münasibətini göstərmək baxımından vacib nümunədir.

Azərbaycanın mövqeyini fərqləndirən cəhətlərdən biri onun eyni zamanda müxtəlif beynəlxalq platformalarda iştirak etməsidir.

Ölkəmiz bir tərəfdən, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, digər tərəfdən, Avropada təmsil olunur, həm türk, həm də islam dünyasının bir hissəsidir. Bu, Bakıya fərqli siyasi və mədəni məkanlar arasında dialoq yaratmaq imkanı verir.

Məhz buna görə Azərbaycan beynəlxalq miqyasda da birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi qəbul olunur. Azərbaycanın əsas məqsədi islam həmrəyliyini real əməkdaşlıq imkanlarına çevirməkdir.

*Könül NURULLAYEVA,*
*Milli Məclisin deputatı*

# Qafqaz Albaniyası irsi Azərbaycan xalqının mənəvi sərvətidir

Qafqaz Albaniyasının tarixi-mədəni irsi çoxəsrlik Azərbaycan dövlətçiliyinin, etnogenezinin və maddi mədəniyyətinin fundamental sütunlarından biri, ölkənin qədim tarixi-etnik kimliyinin ayrılmaz tərkib hissəsidir. Müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət strategiyasında bu irsin qorunması, elmi əsaslarla fundamental şəkildə araşdırılması və beynəlxalq miqyasda obyektiv tanıdılması prioritet istiqamətlərdən birinə çevrilib.



**Milli Məclisin Elm və Təhsil komitəsinin sədri Anar İSGƏNDƏROV** qəzetimizə açıqlamasında deyib ki, xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərindəki alban xristian-memarlıq nümunələrinin mövcud vəziyyəti tarixi ədalətin və hüquqi varisliyin bərpası kontekstində həm siyasi, həm də humanitar-akademik baxımdan müstəsna aktuallıq kəsb edir: "Qafqaz Albaniyasına aid maddi-mədəniyyət abidələri, kilsə və monastrlar Azərbaycan xalqının tarixi-mədəni mülkiyyətidir. Dövlət bu abidələrin orijinal tarixi-etnik kimliyini qorumağı və hər hansı kənar müdaxiləyə qarşı elmi-siyasi iradə nümayiş etdirməyi dövlət siyasətinin mərkəzi xətti kimi müəyyənləşdirib. Regionda onilliklər boyu subyektiv ideoloji iddialarla yürüdülən erməniləşdirmə siyasəti təkcə ərazi ekspansiyasına deyil, həm də bölgənin qədim aborigen sakinlərinin mədəni-tarixi izlərini epiqrafik və arxetipik olaraq silməyə yönəlib. Azərbaycan ərazisindəki xristian-alban məbədləri üzərində "bərpa" adı altında aparılan manipulyasiyalar nəticəsində orijinal bədii-estetik elementlər təhrif edilib, memarlıq quruluşu dəyişdirilib və daş sənədlər saxtalaşdırılıb. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Kəlbəcər rayonu ərazisində aşkarlanan maddi sübutlar, Ermənistanın bölgədə həyata keçirdiyi psevdo-tarixi rekonstruksiya və süni köklərin yaradılması fəaliyyətini tam ifşa edib. Ərazidə aşkarlanmış xüsusi daş emalatxanalarında qeyri-qanuni daş ustaları tərəfindən qədim qəbir daşları və xaçdaş (xaçkar) formalarında yeni abidələr istehsal olunub, onların üzərinə əski arxaik epiqrafik mətnlər, işarələr və xristian simvolları həkk edilib. Bu yeni istehsal olunmuş daş materiallarına qədimlik effekti vermək məqsədilə onlar sirkə turşusu (sirkə esensiyası) və xüsusi aqressiv kimyəvi məhlullarla dolu vannalarda saxlanılıb. Bu kimyəvi proses nəticəsində daşın səthində sürətli süni eroziya, struktur aşınması və rəng dəyişikliyi (patina təbəqəsi) formalaşdırılıb. Beləliklə, süni şəkildə qocaldılmış bu saxta materiallar Kəlbəcər və digər işğal altında olmuş Azərbaycan ərazilərində torpaq altına basdırılaraq, gələcək arxeoloji və siyasi iddialar üçün saxta maddi-mədəniyyət sənədləri kimi dövriyyəyə daxil edilməyə hesablanıb".

A.İsgəndərov qeyd edib ki, tarixi-hüquqi retrospektivdə xristian-alban irsinin mənimsənilməsi prosesinin institusional əsası 1836-cı ildə çar Rusiyasının Sinod fərmanı ilə Alban Avtokefal Kilsəsinin rəsmi statusunun ləğv edilməsi və onun bütün mülkiyyətinin, arxivlərinin Eçmiədzin Erməni Qriqorian Kilsəsinə verilməsi ilə qoyulub. Bu tarixi qəsb prosesinə qarşı Azərbaycan dövlətinin apardığı hücum diplomatiyası və obyektiv elmi metodologiya nəticəsində Xudavəng, Gəncəsər və Ağoğlan kimi monastr komplekslərinin əsl tarixi-etnik kimliyi dünya miqyasında müdafiə olunur. Bu abidələrin memarlıq arxitekturasındakı altar sistemindən tutmuş alban xaçlarının spesifik formalarına qədər olan konstruktiv fərqlər onların Qriqorian kilsə strukturundan tamamilə müstəqil inkişaf etdiyini sübut edir. Məhz bu elmi həqiqətlərə əsaslanaraq və alban irsinin təbliği məqsədilə "Alban yolu" adlı şərti ad verilmiş karvan yollarını birləşdirən bir turizm marşrutu hazırlanıb, sayt, kitablar və beynəlxalq xəritə üzərinə daşınmış formada geniş ictimaiyyətə təqdim olunub. Həmin layihə təkcə Qarabağ ərazisi ilə məhdudlaşmayıb, eyni zamanda Balakən-Zaqatala-Qax, Şəki-Oğuz-Qəbələ və İsmayıllı-Quba-Dərbənd istiqamətlərini də əhatə edərək kompleks və unikal bir mədəni landşaft sistemi formalaşdırır. Nümunə olaraq, marşrut boyunca yerləşən erkən Orta əsrlər xristian sövmələri (şapelləri) ilə yerli islam memarlığına xas dörd sütunlu "namazqılan" tikililəri arasındakı struktur oxşarlıqlar, abidələrin vahid yerli mədəniyyətin və dünyagörüşünün məhsulu olduğunu faktlarla təsdiqləyir. Bu struktur bənzərlik təsadüfi olmayıb, regionda islam dini yayıldıqdan sonra da yerli sənətkarların qədim alban memarlıq məktəbinin mühəndislik ənənələrini davam etdirdiyini göstərir.

"Şəki və Qax rayonlarındakı qədim kilsələrin inşasında istifadə olunan çay daşları və kərpic düzümü texnikası ilə sonrakı dövrlərə aid məscid və karvansaraların bənzər tikinti materialları, bölgədə vahid etnik-mədəni varisliyin qırılmadığını maddi faktlarla təsdiqləyir.

Prezident İlham Əliyev Kəlbəcərdəki kilsələrin qədim Qafqaz Albaniyasına məxsus olduğunu, 1830-cu illərdə çar Rusiyasının alban kilsəsini ləğv edərək mülkiyyətini erməni Qriqorian kilsəsinə verdiyini, bununla da tarixi irsin mənimsənildiyini vurğulamışdır. Dövlət başçısının regional və beynəlxalq platformalarda Qafqaz Albaniyası mövzusunu gündəmə gətirməsi strateji əhəmiyyət daşıyır. Qəbələnin qədim paytaxt olması və udi xalqının məskunlaşma arealı olması bu rəmzi xarakteri gücləndirir. Heydər Əliyev Fondunun dəstəyi ilə Kiş, Çotari və Müqəddəs Məryəm Ana kilsələrində aparılan bərpa işləri multikulturalizm modelinin təzahürüdür. Udi xalqının tarixi mirası qorunur, alban kilsəsinin erməni kilsəsindən fərqli simvollara malik olduğu qeyd edilir. Azad edilmiş ərazilərdəki məbədlər bərpa olunur və alban dili udilər tərəfindən qorunur.

Nəticə etibarilə, Qafqaz Albaniyası irsinin qorunması regional saxtakarlıklara qarşı elmi barrikada və ölkənin qlobal sülhə sadiqliyinin sübutu olmaqla yanaşı, Kəlbəcərdəki Gəncəsər məbədi üzərində yer alan qoç fiquru və səkkizguşəli ulduz simvolları, Qarabağdakı məbədlərdə alban xanımlarının "xatun" kimi titullaşdırılması, eləcə də fundamental "Alban tarixi" əsərində Şəki hakimi Səhl ibn Sumbatın xaqan titullu Mehranilər nəslindən olduğunun qeyd edilməsi kimi faktiki məqamlar bu irsin bilavasitə Azərbaycan xalqının maddi-mənəvi sərvəti olduğunu elmi şəkildə sübut edir", - deyə deputat əlavə edib.

Komitə sədri vurğulayıb ki, nəticə etibarilə, Prezident İlham Əliyevin rəsmi çıxışlarında tez-tez bəyan etdiyi tarixi həqiqətlər beynəlxalq müstəvidə yürüdülən saxtakar təbliğat maşınını tamamilə iflasa uğradıb. Dövlət başçısının nümayiş etdirdiyi qətiyyətli mövqe Qafqaz Albaniyası irsinin gələcək nəsillərə orijinal formada ötürülməsinin ən mühüm təminatıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Diplomatların Qarabağa səfəri erməni revanşizminə sərt şillədir

Azərbaycan dövləti sülhpərvər dövlətdir, bu prinsipi həyata keçirilən siyasəti və atdığı addımları ilə nümayiş etdirir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin regionda sülhün əldə olunmasına xidmət edən üçtərəfli sənədi imzalaması və hər bir beynəlxalq tədbirlərdə sülhə sadiq qalmağımızı söyləməsi buna misal ola bilər. İndi Azərbaycan xeyirxah addım ataraq Ermənistana neft və neft məhsullarının, eləcə də Rusiyadan ixrac olunan qida məhsullarının dəmir yolu vasitəsilə Ermənistana daşınmasına dəstək göstərir. Bunu dəyərləndirmək və qiymətləndirmək əvəzinə son vaxtlar Paşinyan hakimiyyətinə yaxınlığı ilə seçilən media resurslarında Azərbaycana qarşı təxribatçı yazılar dərc olunur, fikirlər səsləndirilir.

2026-cı il sentyabrın 11-12-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfəri Ermənistanın revanşist qüvvələrini və media orqanlarını ciddi narahat edib. Səfərdə iştirak edən ayrı-ayrı dövlətlərin səfirlərini hədəfə alan Ermənistan mətbuatı sərsəm iddialar və ittihamlarla çıxış edir. Həm də qeyd olunur ki, guya Qarabağda yerləşən Gəncəsər, Xudavəng və digər dini-mədəni abidələrdə vəziyyət yaxşı deyil. Təbii ki, bu cür sərsəm fikirlər əsassızdır. Ən azı ona görə ki, Azərbaycan azsaylı xalqların dini və mədəni irsinin qorunmasında maraqlıdır və bütün bunları beynəlxalq ictimaiyyətə təqdim edilməsinə açıqdır. Ölkəmizə səfər edən hər bir xarici qonaq işğaldan azad edilmiş ərazilərdə olarkən məbədlərin, tarixi abidlərin qədimliyinin qorunub, saxlandığının əyani şahidi olurlar. İşğaldan azad edilmiş ərazilərə səfər etmiş 58 ölkəni və 9 beynəlxalq təşkilatı təmsil edən 150-yə yaxın diplomatik nümayəndə abidələrlə yerində tanış oldular və erməni mətbuatında yer alan cəfəng fikirlərin əsassız olduğunu əyani şəkildə gördülər. Həm də diplomatlar heyranlıqla onu müşahidə etdilər ki, 30 illik işğal dövründə ermənilərin məhv etdikləri ərazilər Azərbaycanın gücü və qüdrəti ilə yenidən dirçəlir və cənnətməkana çevrilir.

Azərbaycan ərazisində yerləşən kilsələr, sinaqoqlar və Qafqaz Albaniyasına aid məbədlər dövlət tərəfindən qorunur. İşğaldan azad edilən ərazilərdə aparılan genişmiqyaslı quruculuq, bərpa, tikinti işləri ilə paralel olaraq müxtəlif dinlərə məxsus abidələr, mədəniyyət ocaqları təmir olunur, ətrafda səliqə-sahman yaradılır. Bu siyasət ölkəmizin multikultural dəyərlərinə, dini tolerantlıq ənənələrinə və mədəni müxtəlifliyə hörmətinin təzahürüdür. Ölkəmizdə fəaliyyət göstərən xarici dövlətlərin diplomatları Qarabağ və Şərqi Zəngəzura səfəri zamanı bu münasibəti bilavasitə müşahidə etdilər. Xarici diplomatlar Azərbaycanın müxtəlif dinlərin daşıyıcıları olan məbədlərə, sinaqoqlara, abidələrə münasibətini yerində gördükcə ermənilərin qara niyyətli təbliğatının əsassız olduğuna şahidlik etdilər. Tarixi Azərbaycan əraziləri olan Ermənistanda isə xalqımıza məxsus zəngin mədəni irs məhv edilib və ya müxtəlif eybəcər dəyişikliklər edilərək özününküləşdirilməsinə cəhdlər olunub. Halbuki indiki Ermənistan ərazisinin hər çığırında, daşında, qayasında, yaşayış məskənlərində Azərbaycan xalqına məxsus zəngin maddi-mədəni irsin izləri var. Bu izləri silmək istəsələr də, mümkün olmayacaq. Ən azı ona görə ki, həmin mədəni irsin yeri, görünüşü və tarixini təsdiq edən qədim yazılar elekton kitabxanalarda, eləcə də müxtəlif ölkələrin arxivlərində saxlanılmaqdadır. Ermənistan mövcud reallıqları qəbul etmək və azərbaycanlıların əsrlər boyu Qərbi Azərbaycan ərazilərində yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Bununla indiki Ermənistan ərazisində azərbaycanlıların guya heç vaxt yaşamaması barədə saxta təsəvvür yaratmağa cəhd göstərir. Ona görə də ermənilər yüzlərlə tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini məhv ediblər, toponimlərin kütləvi şəkildə dəyişdirilməsinə nail olublar. Ermənistandakı revanşist qüvvələrin diplomatların səfərinə qara eynəkdə baxmaları diqqəti Qərbi Azərbaycanda dağıdılmış mədəni irsdən yayındırmaq və Azərbaycanı hədəfə almaq cəhdidir. Ermənistan tərəfinin Azərbaycan mədəniyyət abidələrini qəsdən məhv etməsi və Azərbaycan xalqının indiki Ermənistan ərazisindəki mədəni izlərini silməsi, beynəlxalq hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyası



və UNESCO-nun müvafiq qərarlarının kobud şəkildə pozulmasıdır.

İrəvanda yerləşən Dəmirbulaq məscidinin, Sərdar məscidinin və digər tarixi məkanların, abidələrin taleyi ilə bağlı bu günə qədər Ermənistan açıq və aydın mövqe ortaya qoymayıb, halbuki sözügedən tarixi tikililərin Azərbaycan xalqına məxsus olması barədə, dünyanın əksər arxivlərində, o cümlədən Ermənistanın ensiklopediyasında çoxsaylı faktlar göstərilib, şəkillər, yazılar dərc olunub. Ermənistanın hakim zümrəsi isə revanşistlər kimi fəaliyyət yolu tutaraq Azərbaycan xalqına məxsus tarixi obyektlərin məhv edilməsinə dəstək veriblər. Hətta Ermənistan parlamentinin sədri Ruben Rubenyan Koçaryan, Sarkisyan və digər revanşitlər kimi fikirlər səsləndirir. Təbii ki, Ruben Rubenyanın açıqlaması qəbuledilməzdir, Azərbaycanın daxili işlərinə müdaxilədir. 14 sentyabr tarixində Ermənistan parlamentində 12-13 sentyabr 2022-ci il tarixlərində sərhəddə döyüşlərdə həlak olmuş hərbçilərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi özlüyündə revanşizm əhvali-ruhiyyəsinin yüksəldilməsinə xidmət edən addım kimi qiymətləndirilir. Halbuki o zaman hərbi təxribatları bilavasitə Ermənistan törətmişdi, Azərbaycan cavab vermək məcburiyyətində qalmışdı. Hələ də Paşinyanın və ətrafında olanların məsələyə münasibət bildirməmələri onların Ermənistan mediasında təxribatçı yazıların dərc olunmasına və R.Rubenyanlar vasitəsilə fikirlərin səslənməsini koordinasiya etdiklərini göstərir. Araşdırmalar da təsdiq edir ki, yayılan bu məlumatlar və kampaniya arxasında Ermənistan hakimiyyətinin özü dayanır. Belə ki, bir çox paylaşımlar və yazılar məhz hakim partiyaya yaxın resurslarda gedib. Bu da haqlı olaraq Azərbaycan cəmiyyətində qəzəb yaradıb, hiddət doğurub. Qərbi Azərbaycan İcmasının bəyanatı Azərbaycan xalqının qəzəbinin və hiddətinin hansı səviyyədə olduğunu açıq şəkildə ortaya qoyur. Bəyanatda qeyd olunur ki, bir daha erməni cəmiyyətində saxta tarix, saxta qədimlik, milli müstəsnalıq üzərində qurulan yanaşmaların yenidən önə çıxması müşahidə olunur: "Böyük tarixə, zəngin mədəni irsə malik Azərbaycan xalqının tarixinin, mədəniyyətinin inkar edilməsi kökündən yanlış və təhlükəli siyasətdir. Sentyabrın 15-də bir sıra xarici ölkələrdən olan din xadimlərini qəbul edən Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı dünya mədəniyyətinə Nizami Gəncəvi, Xaqani Şirvani, Nəsimi, Seyid Yəhya Bakuvi, Şah İsmayıl Xətai, Füzuli kimi dahi şəxsiyyətlər və mütəfəkkirlər bəxş edib".

Qərbi Azərbaycan İcmasının bəyanatında o da qeyd olunur ki, zəhərli ideologiya, yanaşmalar Ermənistanı, xüsusilə son 30 il ərzində, "miatsum" siyasətinə sürükləmiş, qərbi azərbaycanlıların Ermənistandan deportasiyasına, Azərbaycan ərazilərinin işğalına, məqsədli şəkildə mədəni irsin, o cümlədən məscidlərin dağıdılmasına zəmin yaradıb. Bu siyasətin Ermənistan dövləti və erməni xalqı üçün hansı nəticələrə gətirib çıxarması hər kəsə aydındır.

Qısaca onu demək olar ki, təxribatçı mövqe sərgiləmək sülh gündəliyinin yazılması dövründə vəziyyətin gərginləşməsinə xidmət edə bilər. Bundan itirən və böyük fəlakətlərə düçar olan isə revanşist mövqe sərgiləyən Ermənistan olacaq. Bunu əyani sübut kimi 2020-ci il 44 günlük Vətən müharibəsini və 2023-cü il sentyabrın 19-da başlayan və cəmi 23 saat çəkən antiterror əməliyyatları zamanı Ermənistan ordusunun tamamilə məhv edilməsini və Ermənistanın məhvə sürükləməsinin bir addımlığında olmasını misal göstərə bilərik. Ona görə də yaxşı olardı ki, Ermənistanın Paşinyan hakimiyyəti sülh gündəliyinə səmimi olsun, pərdəarxası hiyləgər addımlar atmaqdan çəkinsin.

***Eldar İBRAHİMOV,***
***YAP İdarə Heyətinin üzvü,***
***Milli Məclisin İntizam komissiyasının sədri***

# Qərəz və məkr ünvanına çevrilənlər

## Onların da Azərbaycanın yaratdığı reallıqları qəbul etməkdən başqa yolları yoxdur

Demokratiya, insan hüquqları və ədalət pərdəsi altında öz geosiyasi maraqlarını yürütməyə vərdiş etmiş Qərb institutları üçün beynəlxalq hüquq çoxdan manipulyasiya alətinə çevrilib. Müstəqil xarici siyasət yürüdən, öz gücünə suverenliyini tam təmin edən Azərbaycanın bu gün həmin qərəzli dairələr tərəfindən qarşılaşdığı hücumlar məhz belə riyakar yanaşmanın bariz nümunəsidir.

Prezident İlham Əliyevin sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edən zaman səsləndirdiyi fikirləri ni həm də illərdir davam edən bu beynəlxalq ədalətsizliyin və geosiyasi mənəviyyatsızlığın açıq ifşası adlandırsaq, yanılmarıq: "30 il biz bütün Avropa təşkilatlarında öz səsimizi ucaldırdıq, həqiqəti çatdırmağa çalışırdıq... Tələb etmirdik ki, Avropa Şurası, gedin, Ermənistana qarşı vuruşun. Tələb edirdik ki, siyasi qərar qəbul edin. İşğalçını işğalçı adı ilə çağırın və siyasi qərarın qəbul edilməsi faktiki olaraq bir siyasi qiymətdir. Bunu etmək istəmədilər".

### Ədaləti Azərbaycan özü təmin etdi

Azərbaycan torpaqlarının 20 faizi işğal altında qalanda, 1 milyondan çox soydaşımız öz doğma ocaqlarından didərgin düşəndə beynəlxalq təşkilatlar sadəcə seyrçi mövqe tutdular. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi kağız üzərində qaldı, ATƏT-in mənfur Minsk qrupu münaqişəni dondurmaqla işğalı əbədiləşdirməyə çalışdı. Həmin dövrdə Ermənistana qarşı nəinki bir sanksiya tətbiq edildi, əksinə, işğalçı dövlət Qərbin müxtəlif fondları və təsisatları tərəfindən maliyyə ilə təmin olundu, dəstəkləndi. Prezident İlham Əliyev Azərbaycan ərazilərinin işğal altında olduğu həmin dövrün real mənzərəsini görüş iştirakçılarının diqqətinə çatdıraraq Qərb institutlarının gerçək simasını bir daha göstərdi. Ölkəmizin rəhbəri vurğuladı ki, Azərbaycanın ədalət tələbi qulaqardına vurulur, ikili standart nümayiş etdirilərək işğalçının xeyrinə addımlar atılırdı: "Əksinə, bizi qaralayırdılar, bizi ləkələyirdilər və bu gün də bu, davam edir. Baxın indi Azərbaycan gücləndikcə, necə deyərlər, öz potensialını tam işə saldıqca, yenə də bizə qarşı Qərbdən çirkin media kampaniyası aparılır. Yəni bizi qaralayırlar, Azərbaycan haqqında hər gün yalan, iftira, böhtanla dolu yazılar dərc edilir".

Tarix dəfələrlə sübut edib ki, ədalət güclünün maraqlarına qurban veriləndə beynəlxalq hüquq sənədləri adi kağız parçasına çevrilir. Azərbaycan xalqı tam 30 il boyunca məhz bu acı həqiqətlə, Qərb təsisatlarının riyakarlığı ilə üz-üzə qaldı. Ancaq öz haqq işindən bir an belə çəkilmədi, torpaqlarının işğalı ilə barışmadı. Dövlətimiz tərəfindən yürüdülən uzaqgörən və qətiyyətli siyasət nəticəsində iqtisadi və hərbi qüdrəti artan Azərbaycan ədaləti öz gücünə bərpa etdi, bununla həm də beynəlxalq hüququn prinsiplərini təmin etdi.

Hərbi-siyasi güclə 2020-ci ildə Vətən müharibəsində tarixi qələbə qazanıldı. 2023-cü ilin sentyabrında isə antiterror tədbirləri ilə suverenliyini tam bərpa edən ölkəmiz Qarabağda separatçılığın kökünü birdəfəlik kəsdi. Xalqımıza qarşı hərbi cinayətlər törətmiş erməni canilər ədalət məhkəməsində layiqli cəzalarını aldılar.

### "Avropa Parlamenti rüşvətxorlar yuvasıdır"

Lakin məhz bundan sonra Qərbin anti-Azərbaycan maşını daha aqressiv şəkildə işə düşdü. 30 il boyunca Ermənistanın vəhşiliklərinə göz yuman Avropa Şurası və Avropa Parlamenti yenə də qərəzindən əl çəkmədi, öz torpaqlarını azad edəndən qısa zaman sonra Azərbaycana qarşı sanksiya mexanizmlərini işə saldı. Prezident İlham Əliyev bu açıq riyakarlığı beynəlxalq konfransların iştirakçıları ilə keçirilən sözügedən görüşdə belə çatdırdı: "Avropa Şurasında Ermənistana qarşı sanksiya tətbiq edilmədi. Amma biz ki, 2023-cü ilin sentyabrında Qarabağı tam azad etdik, separatçılığın kökünü kəsdik və separatçıları həbs etdik, deməli, ondan dörd ay sonra Avropa Şurası bizə qarşı sanksiya tətbiq etdi. Bax onların əsl siması budur".

Başqalarına insan hüquqları və demokratiya dərsi keçməyə çalışan Avropa İttifaqının qanunverici orqanı olan Avropa Parlamenti bu gün mənəvi aşınmanın və korrupsiyanın mərkəzinə çevrilib. 2022-ci ildəki "Qatargate" skandalı, AP-nin vitse-prezidenti Eva Kailinin evindən çamadanlarla nağd pulun tapılması, daha sonra 2024-cü ildəki "Russiagate" araşdırmaları göstərdi ki, bu qurum müstəqil iradəyə deyil, çirkli maliyyə və lobbi maraqlarına xidmət edir.

Xüsusilə erməni lobbisinin çirkli pulları hesabına idarə olunan avroparlamentarilər 2021-ci ildən bəri Azərbaycana qarşı 10-dan çox qərəzli qətnamə qəbul ediblər.

Bu faktın özü belə göstərir ki, erməni lobbisinin oyuncağına çevrilən AP Azərbaycana qarşı davamlı olaraq qərəz nümayiş etdirir.

Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq konfransların iştirakçılarını qəbul edən zaman Avropa Parlamentinin bu rəzil siyasətini açıq və sərt şəkildə tənqid etdi: "Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Neçə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır".

Azərbaycana və geniş mənada müsəlman dünyasına münasibətindəki bu ikili standartların kökündə həm də dərinləşən islamofobiya dayanır. Müqəddəs "Qurani-Kərim"in təhqir olunması, müsəlman aləminin sistemli şəkildə terrorla eyniləşdirilməsi təsadüfi hallar deyil, məqsədyönlü siyasətin tərkib hissəsidir. Azərbaycan hər zaman müstəqil xarici siyasət yürütdüyü, kənar diktələri rədd etdiyi və öz milli-mənəvi dəyərlərini qoruduğu üçün bu hücumların hədəfindədir.

Dövlətimizin başçısı bu çirkli kampaniyalara qarşı vahid cavab mexanizmini və Azərbaycanın sarsılmaz mövqeyini belə bəyan etdi: "Bizim dinimizə qarşı, islam dünyasına qarşı elan olunmamış müharibə gedir və islamofobiya onun kiçik bir tərkib hissəsidir... ...Siz hesab edirsiniz ki, bunlar elə təsadüfən baş verir? Yox! Bu, məqsədyönlü siyasətdir. Biz də nə qoymalıyıq bunun qabağına? Ancaq birliyimizi!"

Ölkəmizin rəhbəri onu da əlavə etdi ki, ölkəmizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq: "Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq. İmkan vermirik ki, xalqımıza və dinimizə yad olan bəzi meyillər Azərbaycanda kök salsın. Mənəviyyat keşikçiləriyik. Bax buna görə bizə qarşı bu kampaniyalar aparılır".

Öz gücünə ərazi bütövlüyünü, suverenliyini təmin edən Azərbaycan həm də iqtisadi və hərbi qüdrəti, dünyadakı nüfuzu ilə Cənubi Qafqazın lider dövlətidir. Avropa Parlamenti kimi korrupsiyalaşmış və ikili standartlardan qidalanan qurumların qərəzli münasibətləri bölgədəki reallıqları dəyişdirə bilməz. Milli maraqlarını hər şeydən üstün tutan Azərbaycan bu cür təzyiqlərə heç zaman boyun əyməyib və bundan sonra da belə olacaq. Müstəmləkəçilik, irqçilik, islamofob təfəkkürə malik bəzi qərəzli Qərb dairələri anlamaq məcburiyyətindədir ki, müstəqil siyasət yürüdən güclü Azərbaycanla təzyiq dili ilə danışmaq mümkün deyil.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Çili münasibətləri geniş perspektivlərə malikdir

Cənubi Amerikanın ucqar cənub-qərb hissəsində, And dağlarının nəhəng silsiləsi ilə Sakit okeanın sərin suları arasında ensiz bir zolaq kimi uzanan Çili, təbiətin və tarixin qovuşduğu nadir möcüzə diyarlar sırasındadır.



Şimalında dünyanın quraqlığı ilə seçilən sirli Atakama səhrasının sərt landşaftları, cənubunda isə Pataqoniyanın nəhəng buzlaqları, əzəmətli vulkanları bir-birini əvəz edir. Zəngin flora və faunaya evsahibliyi edən bu ölkədə And kondorundan tutmuş okean sahillərində məskən salan Humbolt pinqvinlərinə qədər unikal canlı növlərinə rast gəlinir. Eyni zamanda Pasxa adasının sirli bütləri və qədim İnk mədəniyyətinin izlərini daşıyan tarixi abidələr Çilinin təbii gözəlliyinə əsrarəngiz mədəni dəyər qataraq onu bənzərsiz bir səyahət məkanına çevirir.

2025-2026-cı illərdə Çili iqtisadiyyatı bir müddət ləngimədən sonra tədricən bərpa olunmaqla orta artım nümayiş etdirib. İndi Latın Amerikasında ən sabit iqtisadiyyatı olan ölkələrdən birinə çevrilib. Belə ki, 2025-ci ildə Çilinin ümumi daxili məhsulunun həcmi orta hesabla 2,5 faiz artaraq 357 milyard dollar təşkil edib. Dağ-mədən sənayesi sahəsində Çili mis ixracı və litium ehtiyatları üzrə dünya lideridir ki, bu da ölkənin ticarət balansını dəstəkləyir. Çilinin valyuta ehtiyatlarının miqdarı 2026-cı ilin ortalarında 52,6 milyard dollar olmuşdur.

Xarici ticarət sahəsində ixrac və idxal müsbət dinamika göstərir, xüsusən də Asiya və Avropa tərəfdaşları ilə ticarət əlaqələri güclənir. Çili dünya bazarına əsasən mis, mis filizi, müxtəlif metallar, kimyəvi məhsullar, eləcə də kənd təsərrüfatı və dəniz məhsulları (xüsusilə gilas, albalı, balıq və şərab) çıxarır. Əsas xarici bazar kimi ümumi ixracın təxminən 35-39 faizi Çinin payına düşür. O, Çilinin ən böyük ticarət və ixrac tərəfdaşıdır (mis və kənd təsərrüfatı məhsulları, xüsusən də gilas idxalında liderdir). Ümumi ixracın təxminən 15 faizi isə ABŞ-nin payına düşür. Yaponiya xammal və dəniz məhsullarının mühüm alıcılarından (7 faiz) biridir. Onun Asiya qitəsindəki digər əsas ticarət tərəfdaşı (6 faiz) Cənubi Koreyadır. Cənubi Amerikadakı ən mühüm ixrac bazarı isə Braziliyadır.

Çili xaricdən əsasən yanacaq (neft və təbii qaz), mexaniki avadanlıqlar, nəqliyyat vasitələri, texnologiya və sənaye malları idxal edir. Onun idxal etdiyi mallar, əsasən, Çin, ABŞ, Braziliya, Argentina və Almaniyadan gəlir.

Çilidə turizm sektoru pandemiya dövrünün yaratdığı böhrandan tamamilə xilas olaraq güclü bir dirçəliş və inkişaf mərhələsini yaşayır. Ölkəyə gələn xarici turistlərin sayı 6 milyon nəfəri keçib. Çili qlobal miqyasda təbiət və macəra turizminin əsas mərkəzlərindən biri kimi tanınır. Ölkə ərazisinin 40 faizdən çoxunun qorunan təbii zonalar olması, ekoturizmə marağın artdığı dövrdə səyahətçilərin diqqətini güclü şəkildə cəlb edir. Ümumilikdə, sabit turizm infrastrukturu, təhlükəsizlik və unikal coğrafi müxtəliflik Çilini həm qlobal səyahətçilər, həm də Cənubi Amerikanı kəşf etmək istəyənlər üçün ən cəlbedici istiqamətlərdən birinə çevirib.

Çili Azərbaycanın dövlət müstəqilliyini 3 noyabr 1994-cü ildə tanımışdır. Həmin tarixdə hər iki ölkə arasında diplomatik əlaqələr təsis edilmişdir. Azərbaycan Respublikasının Çili Respublikasındakı diplomatik nümayəndəliyi 29 noyabr 2013-cü ildə təsis edilmişdir. Azərbaycan və Çili arasında rəsmi müqavilə-hüquq bazasını təşkil edən əsasən 2 sənəd imzalanmışdır. Bunlardan biri Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Çili Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu, digəri isə Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında sazişdir.

Azərbaycan Respublikası ilə Çili Respublikası arasında siyasi-diplomatik münasibətlər qarşılıqlı hörmət, dialoq və beynəlxalq platformalarda əməkdaşlıq prinsipləri əsasında tədricən inkişaf edir. Hazırda xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizmi mövcuddur. Tərəflər arasında bu istiqamətdə mütəmadi olaraq görüşlər (o cümlədən son illərdə baş tutan ikitərəfli məsləhətləşmələr) həyata keçirilir, siyasi dialoqun dərinləşdirilməsi yolları müzakirə olunur.

Hazırda Azərbaycan-Çili münasibətləri siyasi, iqtisadi, humanitar, mədəniyyət və digər sahələr üzrə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etməkdədir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları fəaliyyət göstərir ki, bu da ikitərəfli münasibətlərin möhkəmlənməsində mühüm rol oynayır. Azərbaycan Milli Məclisində Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə işçi qrupu mövcuddur. Çili Milli Konqresinin həm Senatında, həm də Deputatlar Palatasında Çili-Azərbaycan parlamentlərarası dostluq qrupları təsis olunub. Çili parlamentarilərinin Azərbaycana səfərləri, eləcə də qarşılıqlı təmaslar qanunverici orqanlar arasında körpü rolunu oynayır.

2025-ci ilin sentyabrında Çili Milli Konqresi Senatının İnsan Hüquqları Komitəsinin sədri, Azərbaycan-Çili parlamentlərarası dostluq qrupunun rəhbəri Fransisko Çauhan Azərbaycana səfəri zamanı Bakıda bir sıra məhsuldar görüşlər keçirib.

2026-cı il mayın 8-də Santyaqo şəhərində Azərbaycan və Çili Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin ikinci raundu keçirilib. Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi, humanitar, energetika, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Xüsusilə, ticarət, biznes və sərmayələrin təşviqi məqsədilə iki ölkənin aidiyyəti qurumları arasında əməkdaşlığın qurulmasına qarşılıqlı dəstək ifadə olunub.

Azərbaycan və Çili BMT başda olmaqla, beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə də qlobal platformalarda əməkdaşlıq edirlər. Çili Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə fəal qarşılıqlı siyasi əlaqələndirmə həyata keçirmişdir. Ölkələr iqlim dəyişikliyi kimi qlobal çağırışlar kontekstində də (məsələn, COP29 tədbirləri və prosesləri çərçivəsində) əməkdaşlıq imkanlarını nəzərdən keçirmiş və ortaq platformalarda təmaslar qurmuşlar.

Siyasi münasibətlərin səviyyəsinə uyğun olaraq, iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi aktual olaraq qalır. Hələlik mülayim həcmlərdə olan ticarət dövriyyəsində Çilidən Azərbaycana əsasən dondurulmuş dəniz məhsulları (balıq, xüsusilə qızıl balıq), meyvə konservləri və kimya sənayesi məhsulları idxal olunur. Azərbaycan isə öz növbəsində xalça, tekstil məmulatları və müəyyən sənaye avadanlıqları ixrac potensialına malikdir.

AZPROMO (Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi) qurumları ilə Çilinin müvafiq qurumları (PROCHILE) arasında işgüzar əlaqələrin genişləndirilməsi, həmçinin sərmayə qoyuluşu və ticarət missiyalarının təşkili istiqamətində addımlar atılır. Bu ilin avqustunda Çilinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Xuan Karlos Salazar Alvares AZPROMO-da bu qurumun rəhbərliyi ilə görüş keçirib. Tərəflər həmçinin iki ölkənin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcək birgə təşəbbüslərin reallaşdırılması imkanlarını müzakirə ediblər. Tərəflər arasında Çili şirkətlərinin və aidiyyəti qurumların bu ilin sentyabr ayında keçirilməsi planlaşdırılan 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştirakının təmin edilməsi ilə bağlı razılıq əldə olunub.

İki ölkənin aparıcı təhsil və diplomatiya qurumları (2026-cı ilin mayında Azərbaycanın ADA Universiteti ilə Çilinin Andres Bello Diplomatik Akademiyası arasında) arasında akademik əməkdaşlığa dair Anlaşma Memorandumları imzalanmışdır ki, bu da gənc diplomatların və tələbələrin mübadiləsinə şərait yaradır.

Ötən illərdə Çilidə baş vermiş təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün Azərbaycan tərəfindən humanitar yardımların göstərilməsi xalqlar arasındakı dostluq münasibətlərinin humanist tərəfini əks etdirir. Təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılmasına dəstək məqsədilə Azərbaycan hökuməti Çiliyə maliyyə yardım olaraq 100 min dollar məbləğində yardım göstərmişdir.

Ümumilikdə, Azərbaycan-Çili münasibətləri konstruktiv və qarşılıqlı maraqlara əsaslanan siyasi xətt üzrə inkişaf edir. Tərəflər siyasi dialoqu qoruyub saxlamaqla yanaşı, yaxın illərdə iqtisadi, ticarət və texnoloji sahələrdə əməkdaşlığın potensialını daha da reallaşdırmağa çalışırlar.

Azərbaycan ilə Çili arasında mədəni-ədəbi əlaqələrin gücləndirilməsi istiqamətində də müxtəlif tədbirlər, tərcümə layihələri və qarşılıqlı kitab təqdimatları həyata keçirilir. Çili yazıçı və şairlərinin əsərləri Azərbaycan dilinə tərcümə olunub. Çili ədəbiyyatının görkəmli nümayəndələri ölkəmizdə sevilir və onların əsərləri müxtəlif illərdə Azərbaycan dilidə çap olunub. Ədəbiyyat üzrə Nobel mükafatı laureatı, məşhur Çili şairi Pablo Nerudanın əsərləri Azərbaycan oxucularına tanışdır. Şairin "Ümidsizlik nəğməsi" adlı şeirlər kitabı Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilib. Həmçinin müxtəlif dövrlərdə ədəbi jurnal və antologiyalarda onun şeirlərinə yer ayrılıb. Latın Amerikası ədəbiyyatına və ümumilikdə magik realizm janrına olan maraq çərçivəsində Çili yazarlarının ayrı-ayrı hekayə və poetik nümunələri də dövri mətbuatda və tərcümə toplularında Azərbaycan dilinə çevrilib. Azərbaycan ədəbiyyatının ən görkəmli nümunələrindən biri hesab olunan Qurban Səidin "Əli və Nino" romanı ispan dilinə tərcümə olunaraq Çili media məkanında və kitabxanalarında geniş şəkildə yayılıb, eləcə də ölkənin ədəbi-mədəni platformalarında Azərbaycan ədəbiyyatının incisi kimi resenziya edilir.

Çili nümayəndə heyətinin 27 sentyabr 2025-ci ildə Şuşa və Xankəndiyə səfəri bu əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Hazırda Azərbaycanın diplomatiyası yalnız region ölkələri və böyük dövlətlərlə deyil, həm də Latın Amerikası ölkələri ilə fəal əməkdaşlıq istiqamətində səylərini artırıb. Bu, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına sübutdur. Ümid edirik ki, qarşılıqlı əməkdaşlıq potensialının imkanlarını işə salmaqla Azərbaycan-Çili münasibətləri təkcə regionun deyil, eyni zamanda qlobal səviyyədə inteqrasiya proseslərinə sanballı töhfə verəcəkdir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***



# Türk dünyası ilə Qafqazı birləşdirən əməkdaşlıq mərkəzi

## Azərbaycan qlobal layihələr və əməkdaşlıq təşəbbüsləri ilə ölkələri bir araya gətirir

Azərbaycan həm Qafqaz regionunda, həm də türk dünyasında mühüm və strateji mövqeyə sahibdir. Ölkəmiz bu iki böyük coğrafiyanı regional və qlobal layihələrlə bir-birinə bağlayan təşəbbüskar dövlət və eyni zamanda strateji mərkəzdir. Xüsusən, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra bölgədə yaranmış yeni reallıq regionumuzda davamlı sülhün, əmin-amanlığın və sabitliyin qurulması üçün böyük tarixi imkanlar yaradır.

Hazırda dünyada baş verən mürəkkəb proseslər, müxtəlif gərginliklər fonunda belə bir sabitliyin təmin olunması iqtisadi tərəfdaşlığın, ticarət əlaqələrinin və siyasi dialoqun inkişafı üçün son dərəcə vacibdir.

Bakıda keçirilən mühüm beynəlxalq tədbirlər də ölkəmizin regionda, eləcə də türk-islam dünyasında artan nüfuzunu və birləşdirici mövqeyini aydın göstərir. Sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı və böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın eyni vaxtda Bakıda keçirilməsi xüsusi məna daşıyır. Toplantılarda türk dövlətlərinin dini rəhbərləri ilə yanaşı, Gürcüstan, Suriya və Şimali Qafqazdan olan dini liderlərin də fəal iştirak etməsi Azərbaycanın türk dünyası, Qafqaz və islam aləmi arasında əlaqələndirici rola malik olduğunu bir daha sübut edir. Bu mötəbər tədbirlər türk dünyasının dini və mənəvi bağlarını möhkəmləndirməklə yanaşı, xalqımızın zəngin mədəni və mənəvi irsinin dünya səviyyəsində tanıdılmasına da xidmət edir.

Azərbaycan qədim dövrlərdən etibarən türk dünyası ilə Qafqaz arasında əsas mərkəz rolunu oynayıb. Prezident İlham Əliyev çıxışında bu vacib tarixi reallıqları xüsusi olaraq qeyd edib: "Azərbaycan həm türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir. Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır. Təbii ki, bizim türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var".

Azərbaycan 1990-cı illərdən etibarən Cənubi Qafqazda enerji və nəqliyyat sahələrində birgə əməkdaşlığın əsas təşəbbüskarı və təşkilatçısı rolunda çıxış edir. Bu çərçivədə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri istifadəyə verilib, daha sonra isə Avrasiyanın xəritəsini dəyişən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi nəhəng layihələr uğurla həyata keçirilib. Təkcə enerji sahəsi ilə kifayətlənməyən Azərbaycan, eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini, eləcə də Xəzər dənizinin ən böyük ticarət limanı olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə verərək regionun nəqliyyat xəritəsini kökündən yeniləyib. Bu mühüm addımların məntiqi davamı kimi Azərbaycan Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayan "Cənub qaz dəhlizi"ni istismara verməklə yanaşı, Orta dəhlizin ötürücülük qabiliyyətinin genişləndirilməsinə və "yaşıl enerji" dəhlizlərinin qurulmasına liderlik edir.

Gürcüstan və digər qonşu ölkələrlə qurulan sıx və etibarlı əməkdaşlıq regional əlaqələri daha da möhkəmləndirir, bütün tərəflər üçün iqtisadi fayda gətirir. Lakin regionun tam mənada strateji mərkəzə çevrilməsi üçün siyasi sabitlik, yolların təhlükəsizliyi, region ölkələri arasında koordinasiyalı fəaliyyət və uzunmüddətli investisiyalar vacibdir. Bu baxımdan Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və yekun sülhün əldə olunması Mərkəzi Asiya, Qafqaz və Avropa arasında yeni nəqliyyat və kommunikasiya imkanları aça bilər. Sülh gündəliyinin reallaşması həm də regionda riskləri azaldaraq xarici investisiyaların axınını stimullaşdırar. Beləliklə, Cənubi Qafqaz dayanıqlı inkişaf və qarşılıqlı səmərəli əməkdaşlıq məkanına çevrilmək üçün tarixi fürsət qazanmış olar.

Qafqazın yeganə türk dövləti olan Azərbaycan türk dünyasında da aparıcı rol oynayır və Türk Dövlətləri Təşkilatının güclənməsinə, onun beynəlxalq aləmdə nüfuzunun artmasına böyük töhfələr verir. Türk dövlətləri arasında sarsılmaz birliyi təmin etmək və iqtisadi inkişafa nail olmaq üçün ticarət və investisiya əlaqələrini gücləndirmək vacibdir. Çünki iqtisadi bağları zəif olan siyasi birliklərin uzunmüddətli və dayanıqlı olması çətindir. Məhz bu zərurətdən çıxış edərək, ölkəmiz türk respublikaları ilə ticarət dövriyyəsinin artırılması və birgə investisiya fondlarının yaradılması istiqamətində addımlar atır. Qarşılıqlı iqtisadi asılılığın artması türk dünyasının siyasi həmrəyliyini möhkəmləndirir, təşkilatın qlobal müstəvidə güc mərkəzinə çevrilməsini sürətləndirir.

Azərbaycan həyata keçirdiyi nəhəng layihələrlə Mərkəzi Asiya dövlətlərinin dünya bazarlarına qısa, təhlükəsiz və səmərəli çıxışını təmin edərək, türk dünyasının iqtisadi inteqrasiyasını yeni keyfiyyət mərhələsinə qaldırır. Cənubi Qafqazın Mərkəzi Asiya ilə Avropa arasında bağlayıcı mərkəz kimi formalaşmasında Azərbaycanın rolu böyükdür. Regionun infrastruktur, enerji və logistika imkanlarını ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirən ölkəmiz Mərkəzi Asiya, Qafqaz və Avropanın nəqliyyat, enerji və iqtisadi sistemlərini bir-birinə bağlayan mühüm strateji mərkəzə çevrilir. Azərbaycanın Türkiyə və Mərkəzi Asiya ölkələri ilə apardığı aktiv iqtisadi siyasət və diplomatik fəaliyyət türk dünyasının inteqrasiyası üçün möhkəm bünövrə yaradıb.

Bu mühüm missiyada Orta dəhliz xüsusi əhəmiyyət daşıyır və Avrasiyanın yeni nəqliyyat sisteminin əsas hissəsi halına gəlir. Azərbaycan Xəzər dənizini Qafqaz, Türkiyə və Avropa bazarları ilə birləşdirir, öz liman, dəmir yolu və enerji infrastrukturlarını müasir standartlara uyğun olaraq yeniləyir və genişləndirir. Gələcəkdə Zəngəzur dəhlizinin açılması türk dövlətləri arasında iqtisadi və nəqliyyat əlaqələrini daha da sürətləndirəcək. Bu dəhliz Mərkəzi Asiyanın Avropaya, Azərbaycanın Türkiyəyə, Türkiyənin isə şərq istiqamətinə doğru əlaqələrini genişləndirəcək, ticarət dövriyyəsini artıracaq və investisiya imkanlarına güclü təkan verəcək. Eyni zamanda işğaldan azad edilmiş torpaqlarımızda aparılan sürətli bərpa və yenidənqurma işləri türk dövlətlərinin bu regionda birgə fəaliyyəti, qarşılıqlı sərmayə qoyuluşu və iş birliyi üçün yeni qapılar açır.

Türk dünyası ilə əlaqələrini dərinləşdirən və Cənubi Qafqazda daimi sülhün, sabitliyin bərqərar olmasına çalışan Azərbaycan həm regionun, həm də türk-islam aləminin tərəqqisinə, birliyinə və təhlükəsizliyinə xidmət edən önəmli mövqeyini, aparıcı rolunu uğurla və qətiyyətlə davam etdirir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# *Azərbaycan-Türkiyə əlaqələri:* tarixdən gələcəyə uzanan qardaşlıq yolu

Dünya siyasətinin tez-tez dəyişən mənzərəsində elə münasibətlər var ki, onları yalnız diplomatik protokollarla, müqavilələrlə və iqtisadi göstəricilərlə izah etmək mümkün deyil. Azərbaycan-Türkiyə əlaqələri də məhz belə münasibətlərdəndir. Bu əlaqələrin təməlində ortaq tarix, dil, mədəniyyət, mənəvi yaxınlıq və xalqların bir-birinə bəslədiyi sarsılmaz inam dayanır. Bu qardaşlıq yalnız duyğulardan ibarət deyil. Zaman keçdikcə konkret siyasi qərarlara, böyük iqtisadi layihələrə, regional əməkdaşlığa və beynəlxalq həmrəyliyə çevrilən canlı bir münasibətlər sistemidir.



Azərbaycan ilə Türkiyənin yaxınlığı müasir dövrdə formalaşmış təsadüfi siyasi tərəfdaşlıq deyil. Xalqlarımızın ortaq tarixi və mədəni kökləri əsrlərin sınağından keçib. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və Bakının bolşevik işğalından azad edilməsi dövründə Qafqaz İslam Ordusunun fəaliyyəti də bu tarixi bağlılığın mühüm səhifələrindəndir. Sonrakı illərdə sovet sərhədləri xalqlarımızı siyasi baxımdan ayırsa da, dil, ədəbiyyat, musiqi və mənəvi yaddaş əlaqələri qorunub saxlanıldı. Müstəqil Azərbaycanın bərpasından sonra isə bu yaxınlıq dövlətlərarası münasibətlərin möhkəm təməlini təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin məşhur "Bir millət, iki dövlət" ifadəsi Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini qısa və konkret şəkildə əks etdirir. Bu münasibətlər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fəaliyyəti dövründə yeni mərhələyə yüksəldi. 15 iyun 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi isə iki ölkə arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran mühüm tarixi sənəd oldu. Bəyannamə siyasi, iqtisadi, müdafiə, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsini, regional və beynəlxalq məsələlərdə qarşılıqlı məsləhətləşmələrin aparılmasını nəzərdə tutur. Sənəddə Azərbaycanın və Türkiyənin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı dəstək xüsusi vurğulanır.

Azərbaycan-Türkiyə qardaşlığının mühüm göstəricilərindən biri də özünü çətin günlərdə göstərməsidir. 2020-ci il 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə verdiyi siyasi və mənəvi dəstək xalqımızın yaddaşında xüsusi yer tutur. Şuşa Bəyannaməsində də Türkiyənin 30 illik işğalın sona çatması və Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesində göstərdiyi mənəvi-siyasi dəstək yüksək qiymətləndirilir. Eyni həmrəylik Türkiyənin üzləşdiyi ağır təbii fəlakətlər zamanı da özünü göstərir. 2023-cü il zəlzələlərindən sonra Azərbaycanın Türkiyəyə göndərdiyi xilasedicilər, humanitar yardımlar və bərpa işlərinə dəstək iki xalq arasındakı münasibətlərin yalnız bəyanatlarla məhdudlaşmadığını bir daha nümayiş etdirdi. Meşə yanğınları, təbii fəlakətlər və digər çətinliklər zamanı qarşılıqlı yardım da bu həmrəyliyin ayrı-ayrı nümunələridir.

Qardaşlığın beynəlxalq müstəvidə ifadə olunduğu yaddaqalan hadisələrdən biri 2014-cü ildə Praqada keçirilən "Şərq tərəfdaşlığı" sammitində baş vermişdi. Türkiyənin tədbirdə təmsil olunmamasından istifadə edərək Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyan Türkiyəyə qarşı ittihamlar səsləndirərkən Azərbaycan Prezidenti İlham Əliyev buna cavab olaraq "Türkiyə burada yoxdur, amma mən buradayam" demişdi. Bu ifadə həmin dövrdə Türkiyənin dəstəklənməsi baxımından geniş əks-səda doğurmuşdu.

Münasibətlərin başqa bir mühüm istiqaməti iqtisadi əməkdaşlıqdır. Azərbaycan və Türkiyə arasında ticarət, investisiya, sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi, turizm, təhsil və xidmət sahələrində əlaqələr genişlənir. Birgə layihələr yalnız iki ölkənin iqtisadiyyatına deyil, bütövlükdə regionun inkişafına təsir göstərir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP və "Cənub qaz dəhlizi" enerji əməkdaşlığının mühüm nümunələrindəndir. Bu layihələr Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasına, Türkiyənin tranzit və enerji qovşağı kimi rolunun güclənməsinə, Avropanın enerji təchizatının şaxələndirilməsinə töhfə verir.

Bu əlaqələr Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində də xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə türk dünyasının siyasi, iqtisadi, mədəni və nəqliyyat inteqrasiyasının dərinləşdirilməsində fəal rol oynayırlar. Türk Dövlətləri Təşkilatı ortaq dil və mədəniyyətə malik ölkələr arasında əməkdaşlığın institusional platforması kimi ticarət, nəqliyyat, rəqəmsal bağlantı, təhsil, turizm və humanitar münasibətlər üçün yeni imkanlar yaradır. Azərbaycan və Türkiyənin bu təşkilat daxilindəki fəallığı ikitərəfli münasibətlərin daha geniş türk dünyası ilə əlaqələndirilməsinə xidmət edir.

Bu gün diplomatik təmasların intensivliyi də münasibətlərin dinamik xarakterini göstərir. Türkiyənin xarici işlər naziri Hakan Fidanın 15-16 sentyabr 2026-cı ildə Bakıya səfəri bu baxımdan diqqət çəkir.

Qardaş ölkənin xarici işlər naziri Prezident İlham Əliyev tərəfindən qəbul edilib. Səfər zamanı H.Fidan Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla görüşüb, birgə mətbuat konfransı keçirilib. Bu təmaslar Azərbaycan-Türkiyə münasibətlərinin yalnız ikitərəfli deyil, həm də regional və beynəlxalq məsələləri əhatə edən geniş gündəliyə malik olduğunu göstərir.

Azərbaycan-Türkiyə əlaqələrinin strateji əhəmiyyətini artıran əsas amillərdən biri beynəlxalq nəqliyyat dəhlizləridir. Coğrafi baxımdan Azərbaycan Şərqlə Qərb, Türkiyə isə Asiya ilə Avropa arasında mühüm keçid mövqeyində yerləşir. Bu iki ölkənin nəqliyyat infrastrukturlarının bir-birinə bağlanması ticarət yollarının şaxələndirilməsi, yükdaşımaların sürətləndirilməsi və regional iqtisadi əlaqələrin genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu bu əməkdaşlığın ən mühüm nəticələrindəndir. 2017-ci ildə istifadəyə verilən dəmir yolu Azərbaycanı Gürcüstan üzərindən Türkiyə ilə birləşdirir və Avropa istiqamətində yükdaşımalar üçün mühüm imkan yaradır. Bu xətt Trans-Xəzər "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat Dəhlizinin, yəni Orta dəhlizin əsas hissələrindən biridir. Orta dəhliz Çin və Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan multimodal marşrutdur. Azərbaycan nəqliyyat və infrastruktur qurumlarının məlumatına görə, dəhlizin Türkiyə üzərindən Avropaya çıxan əsas istiqamətlərindən biri məhz Bakı-Tbilisi-Qars dəmir yoludur.

Orta dəhlizin əhəmiyyəti yalnız yükün bir məntəqədən digərinə daşınması ilə məhdudlaşmır. Bu marşrut Asiya ilə Avropa arasında alternativ bağlantı yaradır, tranzit ölkələrin iqtisadi potensialını artırır, logistika mərkəzlərinin inkişafına, yeni investisiyaların cəlb edilməsinə və gömrük prosedurlarının rəqəmsallaşdırılmasına təkan verir. Dəhlizin səmərəli fəaliyyəti üçün limanların, dəmir yollarının, avtomobil yollarının, sərhəd-keçid məntəqələrinin və logistika mərkəzlərinin əlaqələndirilməsi vacibdir. Azərbaycan və Türkiyə bu istiqamətdə Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər tərəfdaşlarla əməkdaşlıq edirlər. 2025-ci il Ankara Bəyannaməsində də Azərbaycan, Türkiyə və Özbəkistan Orta dəhlizin inkişafını, nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılmasını və ticarət axınlarının asanlaşdırılmasını prioritet kimi qeyd ediblər.

Dəhlizlər ölkələri yalnız iqtisadi baxımdan deyil, strateji baxımdan da bir-birinə yaxınlaşdırır. Nəqliyyat əlaqələrinin genişlənməsi qarşılıqlı asılılığı artırır, regional sabitliyə marağı gücləndirir və dövlətlər arasında etimadın möhkəmlənməsinə şərait yaradır. Azərbaycan ilə Türkiyənin Şərq-Qərb nəqliyyat bağlantılarında fəal iştirakı onların regional proseslərdə rolunu artırır. Zəngəzur dəhlizi ilə bağlı müzakirələr də bu çərçivədə xüsusi yer tutur. Şuşa Bəyannaməsində Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək bağlantının və onun davamı kimi Naxçıvan-Qars dəmir yolunun perspektiv əhəmiyyəti qeyd olunur.

Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyi üçün qarşıda mühüm vəzifələr dayanır. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların genişləndirilməsi, birgə istehsal müəssisələrinin yaradılması, kənd təsərrüfatı və yüksək texnologiyalar sahəsində əməkdaşlığın dərinləşdirilməsi, gənclər və təhsil proqramlarının inkişafı bu əlaqələri daha da möhkəmləndirə bilər. Eyni zamanda mədəni yaxınlığın qorunması və yeni nəsillərə çatdırılması da mühüm məsələdir. Çünki dövlətlərarası münasibətlərin davamlılığı yalnız siyasi liderlərin iradəsindən deyil, xalqlar arasında canlı ünsiyyətdən, qarşılıqlı hörmətdən və gündəlik əməkdaşlıqdan da asılıdır.

Bu gün Azərbaycan-Türkiyə əlaqələri tarixdən gələn mənəvi bağlarla müasir dünyanın iqtisadi və geosiyasi reallıqlarını birləşdirən nümunədir. Bu münasibətlərdə qardaşlıq duyğusu siyasi müttəfiqliyə, siyasi müttəfiqlik iqtisadi layihələrə, iqtisadi layihələr isə regional əməkdaşlığa çevrilir. Azərbaycan və Türkiyə üçün bu əlaqələrin möhkəmlənməsi yalnız ikitərəfli maraq deyil, Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Xəzərdən Avropaya qədər uzanan geniş coğrafiyada sabitlik, bağlantı və inkişaf baxımından da əhəmiyyət daşıyır. Tarixin sınaqlarından keçən bu münasibətlərin gələcək nəsillərə ən böyük mirası isə qarşılıqlı etimad, həmrəylik və əməkdaşlıq iradəsi olacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İldə 200 milyon kilovat-saatlıq günəş işığı

## "Qobustan" Günəş-Elektrik Stansiyası Azərbaycanın "yaşıl enerji"sini gücə çevirir

Qobustanın günəşli iqlimi bölgənin təbiətdən gələn mühüm üstünlüklərindəndir. Həmin potensialdan səmərəli istifadə isə ərazidə bərpaolunan enerji istehsalının inkişafı üçün geniş imkanlar yaradır. Bu imkanların real nümunələrindən biri "Qobustan" Günəş-Elektrik Stansiyasıdır (GES). Stansiyanın istifadəyə verilməsi Azərbaycanın "yaşıl enerji" siyasətinin və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində həyata keçirdiyi layihələr sırasında xüsusi əhəmiyyət daşıyır.



"Qobustan" GES-in istifadəyə verilməsi ilə regionun təbii potensialının iqtisadi imkanlara çevrilməsinin daha bir nümunəsi ortaya çıxır. Günəşin yaratdığı enerji imkanlarından yararlanmaqla Qobustan artıq bərpaolunan enerji layihələrinin ünvanlarından birinə çevrilir. Günəş şüalarını elektrik enerjisinə çevirəcək stansiya regionun enerji potensialından daha səmərəli istifadə etməyə və "yaşıl enerji"nin istehsalını genişləndirməyə hesablanıb. Layihə Qobustanın enerji xəritəsində yeni bir səhifə açır və ölkənin daha təmiz və dayanıqlı enerji mənbələrinə keçidi sürətləndirir. Günəş panellərindən əldə olunan enerjinin elektrik şəbəkəsinə ötürülməsi həm "yerli enerji" istehsalına dəstək verir, həm də ənənəvi enerji mənbələrindən asılılığın azaldılmasına yönəlmiş tədbirlərin bir hissəsini təşkil edir.

Qeyd edək ki, layihənin reallaşdırılması üçün ilk addımlar 2024-cü ildə atılıb. Həmin il keçirilən hərracda 100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyasının tikintisi üzrə Çin şirkəti "Universal International Holdings Limited" qalib elan edilib. Tikinti işlərinə 2025-ci ilin mayında başlanılıb və işlər əsasən yerli şirkətlərin iştirakı ilə aparılıb. "Qobustan" Azərbaycanda bərpaolunan enerji mənbələri üzrə hərrac vasitəsilə həyata keçirilən ilk layihə olmaqla yanaşı, "Universal Energy" şirkətinin də ölkəmizdə reallaşdırdığı ilk layihədir. Stansiyada günəş panelləri, sahə invertorları və transformatorlar quraşdırılıb, kabelləşdirmə işləri tamamlanıb. İstismara verildikdən sonra stansiyanın ildə təxminən 200 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi gözlənilir ki, bu da ildə təxminən 45 milyon kubmetr təbii qaza qənaət deməkdir. Layihənin karbon emissiyalarının ildə 97 min ton azalmasına da töhfə verəcəyi proqnozlaşdırılır.

Yeri gəlmişkən, Çinin Şanxay şəhərində yaradılmış "Universal Energy" şirkəti "yaşıl enerji" və enerji saxlanc sistemləri üzrə layihələr təqdim edir. Bu böyük Çin şirkəti Qazaxıstan və Özbəkistanda da bərpaolunan enerji layihələri həyata keçirir. Günəşin enerjisini elektrikə çevirən stansiyada müasir günəş panelləri ilə yanaşı, sahə invertorları və transformatorlar da quraşdırılıb. Kabelləşdirmə işlərinin tamamlanması ilə stansiyanın texniki infrastrukturu formalaşdırılıb.

İki gün öncə GES-in istifadəyə verilməsi ilə bağlı keçirilən açılış mərasimi tarixi yaddaş üçün gözəl hadisədir. Prezident İlham Əliyev paytaxtın Qaradağ rayonunda yerləşən 100 MVt gücündə "Qobustan" GES-in açılışında iştirak edib. Dövlət başçısının açılış mərasimində iştirakı layihənin ölkənin enerji gündəliyində tutduğu yerin göstəricisidir. Bu layihə Azərbaycanın bərpaolunan enerji potensialından daha geniş istifadə etmək niyyətinin real nümunələrindən biridir. Qobustanda günəşdən əldə olunan enerji təbii resurs olmaqla yanaşı, ölkənin enerji sisteminə yeni qapı açan istehsal mənbəyidir. Günəşin bol olduğu Qobustanda qurulan stansiya "yaşıl enerji"nin ölkənin enerji balansındakı payının artırılmasına öz töhfəsini verəcək.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev jurnalislərə açıqlamasında deyib ki, Azərbaycanda sənaye miqyaslı GES-lərdə ən güclü günəş panelləri "Qobustan"da quraşdırılıb: "Qobustan GES-də Çinin "LONGi Green Energy Technology Co., Ltd." şirkətinin istehsalı olan, 710 vatt gücündə günəş panelləri quraşdırılıb. Bu panellər hazırda Azərbaycanda sənaye miqyaslı günəş-elektrik stansiyalarında istifadə olunan ən yüksək güclü panellərdir".

135 QVt quruda, 157 QVt dənizdə texniki potensial, 27 QVt iqtisadi potensial və 2027-ci ilin sonunadək planlaşdırılan 1,5 QVt yeni güc... Rəqəmlər Azərbaycanın "yaşıl enerji" xəritəsinin miqyasını göstərir. Bu xəritədə 100 MVt-lıq "Qobustan" Günəş-Elektrik Stansiyası isə artıq proqnoz deyil, reallığa çevrilmiş layihələrdəndir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## Sınaqlardan qalib çıxan kəmər

### BTC-nin təməlinin qoyulduğu gündən 24 il keçir

**24 il əvvəl Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməli qoyuldu. O vaxta qədər bir çox sınaqlardan keçən layihə qarşısında hətta bundan sonra da ciddi maneələr yarandı. Lakin BTC onların hər birinə qalib gəldi. Çünki elə həmin təməlqoyma mərasimində də qətiyyətlə "BTC olacaq, olacaq, olacaqdır!" deyən Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə almışdı.**



BTC nəinki öz bədxahlarının məkrli niyyətlərinə rəğmən qələbə çalaraq araya-ərsəyə gəldi, eyni zamanda uğurla fəaliyyətə başladı. Üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan bu kəmər 20 ildən çoxdur ki, fəaliyyətini davam etdirir.

Səhmdarlarının təşəbbüsü və Azərbaycan dövlətinin bu təklifi dəstəkləməsi nəticəsində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan BTC-nin salnaməsinə bir daha nəzər salaq.

2002-ci il sentyabrın 18-də Bakıdan 45 kilometr cənubda yerləşən Səngəçal terminalında BTC-nin təməli qoyuldu. "Əsrin müqaviləsi"ndən sonra bu, ölkəmizin neft-qaz sənayesində baş verən növbəti tarixi hadisə idi.

BTC-nin təməlinin qoyulması, əslində, "Əsrin müqaviləsi"ndən doğan reallıq idi. Belə ki, 1994-cü ildə imzalanan bu möhtəşəm saziş çərçivəsində 1997-ci ildə neft hasilatına başlanmışdı. Hasilat getdikcə artırdı və yaxın illərdə daha çox neft əldə olunacağına şübhə yox idi. Bu səbəbdən də Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Lakin vaxtilə "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə bu sazişin imzalanmasına mane olmaq istəyənlər yenidən baş qaldırdılar. Bu dəfə hədəfdə BTC idi. Ulu Öndər Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində bu maneələr də aradan götürüldü. Kəmərin təməli qoyuldu.

O günəşli sentyabr günündə dünyanın diqqəti Bakıda idi. Tədbirdə Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-nin energetika naziri, layihədə tərəfdaşlar olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri iştirak edirdilər.

BTC artıq reallığa çevrilirdi. İşlərin mərhələlərlə həyata keçirilməsinə başlanmışdı, Azərbaycanın və Gürcüstanın tikinti aparılacaq ərazilərinə xaricdən alınan borular gətirilirdi. Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən səslərini qaldırdılar. Əvvəllər Azərbaycanda bu kəməri dolduracaq qədər neftin olmadığı barədə əsassız fikir yayanlar indi başqa uydurmaya əl atdılar. Belə ki, bir sıra qeyri-hökumət təşkilatları kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Onlar tikintini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq xəttin çəkilişinə etiraz edirdilər.

Lakin Ümummilli Lider Heydər Əliyev layihənin həyata keçirilməsinin bütün mərhələlərində olduğu kimi, yenə də BTC-nin köməyinə çatdı. Bu baxımdan 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında şəxsən iştirak etməyi qərara alması da təsadüfi deyildi. Tədbirin keçirildiyi günlərdə Heydər Əliyev ABŞ-nin ovaxtkı Prezidenti və Vitse-prezidenti, ticarət və energetika nazirləri, Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri ilə görüşdü. Beləliklə, BTC bu dəfə də çətinlikdən çıxdı.

2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı.

Bu gün BTC təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər Azərbaycana və ərazisindən keçdiyi ölkələrə birbaşa gəlirlər gətirməklə yanaşı, marşrut boyu yerləşən yaşayış məntəqələrinin icmalarının həyatına sosial sərmayələri ilə də dəstək verir.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Başqa sözlə, Ümummilli Lider Heydər Əliyev bu nəhəng qurğunun təməlini qoydu, Prezident İlham Əliyev bu işi uğurla davam etdirərək BTC-ni möhtəşəm dəhlizlərə qovuşdurdu. Dövlətimizin başçısının dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Xatırladaq ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri şirkətinin (BTC Ko.) səhmdarları bunlardır: BP (30,10 faiz), SOCAR (32,97 faiz), MOL (8,90 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), ITOCHU (3,40faiz), "ONGC Videsh" (3,10 faiz), "ExxonMobil" (2,50 faiz) və INPEX (2,50 faiz).

BP-dən aldığımız məlumata görə, bu ilin birinci yarısında BTC vasitəsilə ixrac olunmuş təqribən 13 milyon ton (təxminən 97 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 131 tankerə yüklənib və yola salınıb. 2006-cı ilin ortalarında istismara veriləndən cari il iyun ayının sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 631 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edilib və Ceyhanda 6276 tankerə vurularaq dünya bazarlarına göndərilib.

Hazırda BTC, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

Bu il iyulun 1-dən BTC kəmərinin operatorluğu, həmçinin həm BTC, həm də Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemləri ilə əlaqədar ümumi fəaliyyətlərin operatorluğu "BP Exploration (Caspian Sea) Limited" şirkətindən SOCAR-a məxsus törəmə müəssisə olan "SOCAR Midstream Operations" MMC-yə keçib.

BTC ona bəslənən ümidləri layiqincə doğruldur. O cümlədən möhkəm bir mühəndis qurğusu olduğunu sübuta yetirib. Belə ki, o, ən güclü təbii fəlakətlərdən də qorxmur. Hətta bir neçə il əvvəl Türkiyədə kəmərin keçdiyi ərazilərdə baş verən zəlzələ onun borularına heç bir ziyan vura bilmədi. Bir sözlə, BTC yenə də zamanın hər sınağından keçərək inamla irəliləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Neft-kimya sənayemizin böyük dayağı

### Söhbət "Azərkimya" İstehsalat Birliyindən gedir

Sumqayıtın sənaye mənzərəsində özünəməxsus yeri olan "Azərkimya" İstehsalat Birliyinin (İB) hekayəsi Azərbaycanın kimya sənayesinin inkişaf yolu ilə sıx bağlıdır. İllər ərzində burada istehsal olunan məhsullar ölkənin sənaye zəncirinin müxtəlif həlqələrində öz yerini tutub. SOCAR-ın tərkibində fəaliyyət göstərən "Azərkimya" böyük istehsal müəssisəsidir və Sumqayıtın sənaye simasını müəyyənləşdirən əsas mərkəzlərdəndir.

1950-ci illərdən başlayaraq, Sumqayıtda yeni kimya müəssisələri fəaliyyətə başladı və istehsal sahələri tədricən genişləndi. Bu proses Sumqayıtın Azərbaycanın əsas sənaye mərkəzlərindən birinə çevrilməsində mühüm rol oynadı. Müstəqillik illərində isə kimya sənayesində yeni inkişaf mərhələsi başladı. Aparılan yenidənqurma işləri və struktur dəyişiklikləri "Azərkimya"nın müasir istehsal müəssisəsi kimi formalaşmasına zəmin yaratdı. Sonrakı mərhələdə "Azərkimya"nın SOCAR-ın strukturuna daxil edilməsi müəssisənin fəaliyyətində yeni imkanlar yaratdı. Bundan sonra istehsal sahələrinin yenilənməsinə və texnoloji proseslərin təkmilləşdirilməsinə diqqət artırıldı. Müəssisənin neft-kimya sənayesindəki rolu genişləndi və istehsal zəncirində əlaqələr daha da möhkəmləndi.

Bu gün "Azərkimya"nın fəaliyyətində əsas istiqamətlərdən biri Azərbaycanın neft-kimya sənayesinin mühüm müəssisələrindən olan "SOCAR Polymer"in xammalla etibarlı təminatıdır. Müəssisənin əsas istehsal sahəsi olan etilen üzrə illik layihə gücü 190 min ton, propilen üzrə 187 min ton, polietilen istehsalında isə ümumi güc 120 min tondur. Müəssisə, həmçinin 65 meqavat gücündə elektrik enerjisi istehsal edir. Daxili tələbat ödənildikdən sonra artıq elektrik enerjisinin şəbəkəyə ötürülməsi "Azərkimya"nın enerji təminatında da rolunu göstərir. İstehsalın əsas məhsulları olan etilen və propilen "SOCAR Polymer"in polietilen və polipropilen istehsalına xammal kimi yönəldilir. Bununla yanaşı, istehsal prosesində piroliz benzini, maye karbohidrogenlər, ağır qatranlar və butan-butilen (C4) fraksiyası kimi əlavə məhsullar da əldə olunur.

Birliyin baş direktoru Elnur Məmmədlinin sözlərinə görə, müəssisənin məhsullarının 90 faizdən çoxu ixrac edilir. Əsas ixrac bazarlarından biri Türkiyədir. Bununla yanaşı, Qırğızıstan da daxil olmaqla, Mərkəzi Asiya ölkələrinə satış imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılır: "Əsas hədəflərimizdən biri Mərkəzi Asiya bazarında mövqelərimizi genişləndirməkdir. Bu istiqamətdə işlər davam etdirilir. Qeyd edim ki, "SOCAR Polymer"in polipropilen və yüksək sıxlıqlı polietilen (HDPE) qurğularında texnoloji proses zamanı ayrılan təsirsiz püskürmə qazlarının təkrar istifadəsi təmin edilir. "Azərkimya" ilə "SOCAR Polymer" arasında çəkilmiş 4 kilometrlik boru xətti vasitəsilə həmin qazlar geri qəbul edilir və yenidən istehsala yönəldilir".

Deyə bilmərik ki, "Azərkimya"da istehsal prosesinin səmərəliliyi yalnız qurğuların gücündədir. Əslində isə bu, onların fasiləsiz və planlı istismarı ilə daha çox bağlıdır. Texnoloji qurğular ilkin olaraq ildə 8760 saatlıq iş rejiminə hesablanıb. Planlı dayanma və təmir işlərinin son illər 2-3 ildən bir həyata keçirilməsi isə istehsal güclərindən daha səmərəli istifadə etməyə imkan verir. İstehsalın davamlılığında anbar infrastrukturu da mühüm rol oynayır. Müəssisədə polietilen məhsullarının saxlanılması üçün 3000 tonluq anbar, ağır qatran və piroliz benzini kimi maye məhsulların mühafizəsi üçün isə xüsusi saxlama çənləri mövcuddur.

İstehsal güclərinin əsas hissəsi "Azərkimya"nın Etilen-Polietilen zavodunda cəmlənib. Məlumat üçün bildirək ki, zavod 1989-cu ildən fəaliyyət göstərir və dörd əsas istehsal sahəsini birləşdirir. Bunlara etilen - "EP-300", polietilen -"polimir-120", buxar və elektrik enerjisi, həmçinin izopropil spirti istehsalları daxildir. Zavod yanğın və partlayış təhlükəli obyektlər kateqoriyasına daxildir. Burada metan, etan, etilen, butilen-divinil fraksiyası və ilkin emal benzini kimi yüksək yanğın-partlayış təhlükəli məhsullar istehsal olunur və istifadə edilir. "EP-300"-ün istehsalında texnoloji proseslər 800-1000 °C temperaturda, "Polimir-120"də isə 1500-2000 atmosfer təzyiq altında həyata keçirilir.

Zavodda illik 190 min ton etilen, 187 min ton propilen və 120 min ton polietilen, o cümlədən LDPE (aşağı sıxlıqlı polietilen) istehsal olunur. Burada həmçinin layihə gücü ildə 25 min ton olan izopropil spirti sahələri fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili tələbatın ödənilməsinə, "SOCAR Polymer" və "Azneft" İB-nin təminatına, eləcə də satışa yönəldilir.



"Azərkimya" İB-nin proses üzrə direktoru Samir Səlimlinin sözlərinə görə, Etilen-Polietilen zavodunda 2026-cı ildə əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmayıb. Növbəti əsaslı təmirin 2027-ci ilin ikinci rübündə keçirilməsi planlaşdırılır. 2016-2021-ci illərdə zavodda genişmiqyaslı modernizasiya və yenidənqurma işləri aparılıb. Bu layihədən sonra əsaslı təmir üçün dayanma müddəti ildə bir dəfədən iki ildə bir dəfəyə keçirilib. Hazırda məqsəd bu müddəti üç-dörd ilə qədər artırmaqdır. Müəssisədə avtomatika və idarəetmə sistemlərinin yenilənməsini nəzərdə tutan yeni modernizasiya layihəsi də davam edir.

Layihənin mühəndislik mərhələsi 95 faiz tamamlanıb, sahə işlərinə isə növbəti ildən başlanması planlaşdırılır. Modernləşmə nəticəsində zavodun etilen üzrə məhsuldarlığı 40 faiz, propilen üzrə isə 70 faiz artırılıb. 2001-ci ildə istismara verilmiş BEEİ zavodun istehsal sahələrinin buxar və elektrik enerjisi ilə təmin olunmasına xidmət edir.

Bu gün "Azərkimya" İB-nin qarşısında dayanan əsas hədəf mövcud istehsal güclərindən daha səmərəli istifadə etməklə yanaşı, texnoloji imkanları davamlı şəkildə yeniləməkdir. Modernləşmə, istehsalın dayanıqlılığı və ekoloji təhlükəsizlik istiqamətində görülən işlər müəssisənin gələcək inkişafı üçün mühüm baza yaradır. Bütün bunlar "Azərkimya"nın Azərbaycanın neft-kimya sənayesindəki rolunu qorumaqla yanaşı, yeni mərhələyə daşımaq niyyətindən xəbər verir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## 2027-ci il üçün dövlət büdcəsi xərclərinin prioritet istiqamətləri üzrə proqnozları açıqlanıb

**2027-ci ilin dövlət büdcəsinin xərclərində iqtisadi fəaliyyət ilə müdafiə və milli təhlükəsizlik istiqamətləri əsas prioritet olacaq.**



AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Maliyyə Nazirliyinin 2027-ci ilin icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında öz əksini tapıb.

Məlumata əsasən, gələn ilin büdcə xərclərinin ən böyük hissəsi - təxminən 42 faizi məhz bu iki sahənin payına düşəcək. Belə ki, iqtisadi fəaliyyət xərclərinə 8 milyard 891 milyon manat (ümumi büdcənin 21 faizi), müdafiə və milli təhlükəsizlik sahəsinə isə 8 milyard 816,4 milyon manat (20,8 faiz) vəsaitin ayrılması nəzərdə tutulur. Dövlət xərclərinin digər mühüm hissəsi idarəetmə və sosial sahələrin maliyyələşdirilməsinə yönəldiləcək. Ümumi dövlət xidmətləri üzrə xərclərə 5 milyard 506,3 milyon manat (13 faiz), sosial müdafiə və sosial təminat tədbirlərinə isə 4 milyard 916 milyon manat (11,6 faiz) vəsait proqnozlaşdırılır. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması üçün isə ümumilikdə 3 milyard 33,6 milyon manat (8,1 faiz) ayrılacaq ki, bunun da 2 milyard 82,6 milyon manatı (4,9 faiz) birbaşa dövlət büdcəsinin payına düşür. Struktur bölümlərinə əsasən, kənd təsərrüfatı xərcləri üçün 1 milyard 379,5 milyon manat (3,3 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üçün 857,6 milyon manat (2 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və gənclər siyasəti istiqamətinə isə 645,2 milyon manat (1,5 faiz) vəsait ayrılması planlaşdırılır. Büdcə layihəsində nisbətən az paya malik sahələr sırasına ətraf mühitin mühafizəsi (438,7 milyon manat, 1 faiz) və mənzil-kommunal təsərrüfatı (335 milyon manat, 0,8 faiz) daxildir.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Sentyabrın 17-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın bu ilin mayın 26-da keçirilmiş iclasının protokolu təsdiq olunub. Sonra ölkə üzrə dairə seçki komissiyalarının tərkibinin yenidən formalaşdırılması məsələsinə baxılıb.

Diqqətə çatdırılıb ki, seçki qanunvericiliyinə əsasən seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. Milli Məclis tərəfindən Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 2026-cı il aprelin 27-də Mərkəzi Seçki Komissiyası yeni tərkibdə formalaşdırılıb. Hazırda respublikadakı 125 seçki dairəsinin dairə seçki komissiyalarına da üzvlər təyin olunmalı və dairə seçki komissiyaları yenidən təşkil edilməlidir.

O da bildirilib ki, seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada hər bir dairə seçki



komissiyasının 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 3 üzvünün namizədliyi deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən, 3 üzvünün namizədliyi isə heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclis deputatlarını Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən təqdim olunur. Heç bir siyasi partiyaya mənsub olmayan deputatları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri tərəfindən hər bir dairə seçki komissiyasına namizədlərin ikisi maraqlı tərəflərlə - bir namizəd deputatları Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanı Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri ilə, digər namizəd isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları Mərkəzi Seçki Komissiyasında təmsil edən komissiya üzvləri ilə razılaşdırılaraq irəli sürülür.

Komissiyanın iclasında aparılan müzakirələrdən sonra qanunvericiliyin yuxarıda sadalanan prinsipləri əsas götürülməklə, namizədliyi təqdim olunan şəxslərin müvafiq seçki dairələri üzrə dairə seçki komissiyalarının üzvlərinin təyin edilməsinə qərar verilib və bütün dairə seçki komissiyalarının tərkibi yenidən formalaşdırılıb. Üzvlərin mütləq əksəriyyəti ali təhsillidir.

İclasda həmçinin cari məsələlərə də baxılıb.

QƏRAR № 3/7

## Mərkəzi Seçki Komissiyasının 2026-cı il 26 may tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2026-cı il 26 may tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*17.09.2026*

QƏRAR № 3/8

## Dairə seçki komissiyalarının yenidən təşkil edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.1-ci maddəsinə əsasən seçki komissiyalarının səlahiyyət müddəti 5 il olduğundan seçki dairəsi dairə seçki komissiyalarının üzvlərinin təyin edilərək dairə seçki komissiyalarının yenidən təşkil olunması zərurəti yaranıb.

Muzeyə daxil olan ziyarətçini isə əvvəlcə faciə deyil, faciədən əvvəlki həyat qarşılayır. "Dinc Quba" ekspozisiyasında XX əsrin əvvəllərində Quba şəhərinin və qəzanın sakinlərinin fotoları təqdim olunur. Dövlət qulluqçuları, din xadimləri, məktəblilər, qadınlar, kənd sakinləri iş başında, ailədə və gündəlik həyatlarında görünürlər. Bu fotolar Qubanın müxtəlif xalqların və dini icmaların əsrlər boyu yanaşı yaşadığı bir məkan olduğunu nümayiş etdirir. Məhz dinc həyatın görüntülərindən sonra faciənin sənədlərinə keçid baş verənlərin miqyasını daha aydın hiss etdirir.

Muzeyin əsas zalında 1918-ci il hadisələri ilə bağlı sənədlər, fotoşəkillər və digər materiallar nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallar əsasında Bakı, Şamaxı, Quba, Cavad, Göyçay və başqa ərazilərdə baş vermiş hadisələr haqqında məlumat təqdim olunur. Zalın mərkəzində qara mərmərdən ucaldılmış xatirə abidəsi isə qətlə yetirilmiş və bir çox hallarda dəfn olunmaq imkanı belə verilməmiş insanların xatirəsinə ehtiramı ifadə edir.

Kompleksin digər mühüm elementi Bayraq meydanıdır. Burada Azərbaycanın üçrəngli dövlət bayrağı 20 metr hündürlükdə dalğalanır. Bu mənzərə memorialın ümumi məzmununa ayrıca məna qatır: faciəni xatırlamaq yalnız keçmişin ağrılarını yaşatmaq deyil, həm də tarixi yaddaşı müstəqil dövlətçilik düşüncəsinin bir hissəsinə çevirməkdir.

Aşkar edilmiş kütləvi məzarlığın taleyi də kompleksin tarixinin mühüm hissəsidir. Uzun müddət açıq şəkildə qorunan məzarlıqda təbii proseslər, sürüşmə və eroziya insan qalıqlarının mühafizəsini çətinləşdirdiyindən 2018-ci ilin martında qalıqlar dini qaydalara uyğun şəkildə dəfn edildi və ərazidə xatirə abidəsi ucaldıldı. Beləcə, bir zamanlar təsadüfi qazıntı zamanı üzə çıxan məzarlıq həm elmi araşdırmanın predmetinə, həm də faciə qurbanlarının əbədi xatirə yerinə çevrildi.

Ötən 13 il göstərir ki, Quba Soyqırımı Memorial Kompleksi təkcə memorial abidə funksiyasını daşımır. O, eyni zamanda muzey, sənədləşdirmə, elmi araşdırma və maarifləndirmə məkanıdır. Burada keçirilən sərgilər, təqdimatlar, elmi tədbirlər, kitabxana və informasiya resursları tarixi faktların öyrənilməsinə və daha geniş auditoriyaya çatdırılmasına xidmət edir. Kompleksdə yerli və xarici ziyarətçilərə Azərbaycan, rus, ingilis və ərəb dillərində məlumat verilir. Bu fəaliyyət rəqəmlərdə də özünü göstərir. Kompleks fəaliyyətə başladığı 2013-cü ildən 1,25 milyondan çox ziyarətçi qəbul edib. Onların 200 minə yaxını xarici ölkə vətəndaşlarıdır. Bu rəqəmlər memorialın yalnız ölkə daxilində deyil, Azərbaycan tarixinin xarici auditoriyaya təqdim edildiyi mühüm məkanlardan birinə çevrildiyini göstərir.

1918-ci ilin faciəli hadisələrindən bir əsrdən artıq zaman keçir. Quba Soyqırımı Memorial Kompleksinin qapılarını ziyarətçilərin üzünə açmasından isə 13 il ötür. Zaman keçir, nəsillər dəyişir. Məhz buna görə sənədlərin, maddi sübutların və xatirə məkanlarının rolu daha da artır. Çünki milli yaddaş yalnız keçmişi xatırlamaq deyil, tarixi həqiqətləri öyrənmək, qorumaq və gələcək nəsillərə ötürmək məsuliyyətidir.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycan və BƏƏ muzeyləri arasında əməkdaşlıq genişləndirilir

Sentyabrın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində "BƏƏ və Azərbaycanın muzeyləri zəngin keçmiş və perspektivli gələcək haqqında hekayəni əks etdirir" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı səfiri Məhəmməd əl-Bluşi tədbir iştirakçılarını salamlayaraq bildirib ki, mədəniyyət və irs xalqlar arasında ortaq dil rolunu oynamaqla yanaşı, dövlətlər arasında əlaqələrin inkişafına, ünsiyyət körpülərinin qurulmasına və ölkələrin bir-birinə daha da yaxınlaşmasına xidmət edir.

Məhəmməd əl-Bluşi BƏƏ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin hər iki dost ölkənin rəhbərlərinin səyləri və uzaqgörən siyasəti nəticəsində qarşılıqlı etimad, hörmət və davamlı inkişafa dair ortaq baxışa əsaslanan nümunəvi tərəfdaşlıq modelinə çevrildiyini söyləyib.

O BƏƏ-də muzeylərin yalnız tarixi eksponatların mühafizə edildiyi məkanlar olmadığını vurğulayıb. Onun sözlərinə görə, bu müəssisələr keçmişin zəngin irsini gələcəyin iddialı hədəfləri ilə birləşdirən bilik və mədəniyyət mərkəzləridir.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Azərbaycanla BƏƏ arasında muzey işi sahəsində əməkdaşlığın genişləndirilməsinin və gələcək perspektivlərin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edib.

Səadət Yusifova Azərbaycan və BƏƏ muzeyləri arasında əlaqələrin genişləndirilməsinin hər iki ölkənin mədəni irsinin daha geniş auditoriyaya çatdırılmasına şərait yarada biləcəyini söyləyib. Qarşılıqlı sərgilərin təşkili, muzey əməkdaşları arasında təcrübə mübadiləsi, birgə elmi və təhsil proqramlarının həyata keçirilməsi, kurator və mütəxəssislər arasında əlaqələrin inkişaf etdirilməsi, eləcə də rəqəmsal layihələr və muzey idarəçiliyi üzrə təcrübə mübadiləsi perspektivli istiqamətlər kimi qeyd olunub.

Zayed Milli Muzeyinin katibi Fatimə Abdulla əl-Həmmadi isə çıxışında muzeyləri tarixi və mədəni irsin qorunduğu məkan olmaqla yanaşı, insan yaddaşının daşıyıcısı kimi xarakterizə edib. Onun sözlərinə görə, muzeylər aid olduqları məkanın hekayəsini danışır, nəsillər boyu toplanan bilikləri qoruyaraq gələcəyə çatdırır.



Fatimə Abdulla əl-Həmmadi Əbu-Dabinin müxtəlif ərazilərində yerləşən muzeylərin ölkənin tarixinin və mədəni irsinin ayrı-ayrı səhifələrini təqdim etdiyini bildirib. O qeyd edib ki, Zayed Milli Muzeyi Birləşmiş Ərəb Əmirliklərinin torpağının və xalqının hekayəsini nəql etməklə yanaşı, ölkənin qurucusu mərhum Şeyx Zayed bin Sultan əl-Nəhyanın irsini və onun əsasını qoyduğu dəyərləri yaşadır.

Zayed Milli Muzeyinin katibi BƏƏ ilə Azərbaycan arasındakı münasibətlərin möhkəm dostluq və əməkdaşlıq təməllərinə söykəndiyini, mədəniyyət və incəsənətin isə bu əlaqələrə daha dərin insani və sivilizasiya məzmunu qazandırdığını qeyd edib.

Daha sonra Əbu-Dabinin muzey mənzərəsinə həsr olunmuş film nümayiş etdirilib. Ekran əsərində ölkə tarixinin müxtəlif mərhələlərini əks etdirən mühüm mədəni məkanlar təqdim olunub, muzeylərin irsin qorunması, tədqiqat, təhsil, ictimaiyyətlə əlaqələr və mədəni mübadilə istiqamətlərində fəaliyyəti göstərilib.

Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova rəhbərlik etdiyi muzeyin ölkənin aparıcı mədəniyyət ocaqlarından biri olduğunu və Azərbaycanla yanaşı, dünya incəsənətinin zəngin kolleksiyasını qoruyub saxladığını bildirib.

O diqqətə çatdırıb ki, muzeyin kolleksiyasında 18 mindən çox əsər mövcuddur. Ekspozisiyalar Azərbaycan incəsənətinin qədim və Orta əsrlərdən başlayaraq müasir dövrədək keçdiyi inkişaf yolunu izləməyə imkan verir.

"Eyni zamanda muzeyimizdə Qərbi Avropa, Rusiya, İran, Türkiyə, Çin, Yaponiya, Hindistan və digər ölkələrin sənət nümunələri Azərbaycan incəsənəti ilə eyni məkanda təqdim olunur. Lakin bu gün muzey üçün yalnız zəngin kolleksiyaya sahib olmaq kifayət deyil. Əsas məqsədlərimizdən biri ziyarətçi ilə davamlı əlaqə yaratmaqdır. Bu məqsədlə müxtəlif layihələr, ustad dərsləri, mühazirələr, eləcə də uşaqlar və ailələr üçün xüsusi proqramlar təşkil edirik", - deyə Şirin Məlikova vurğulayıb.

Tədbir bədii proqramla davam edib.

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Gədəbəydə dövlət proqramının icrası diqqət mərkəzindədir

Prezident İlham Əliyevin 2016-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr Gədəbəydə uğurla icra edilir. Dövlət proqramında nəzərdə tutulmuş kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair rayonda iş planı təsdiq edilmiş, onun icrası istiqamətində işlərə başlanılmışdır.




Əvvəla onu qeyd edək ki, rayonda 14941 hektar əkinəyararlı torpaq sahəsi vardır. Bu torpaqların 98 faizində becərmə işləri dəmyə şəraitində aparıldığı üçün məhsuldarlıq suvarılan sahələri ilə müqayisədə aşağı səviyyədə olur. Belə ki, dəmyə şəraitində becərilmiş kartof sahələrində məhsuldarlıq orta hesabla 135 sentner olduğu halda, suvarılan torpaqlarda orta məhsuldarlıq 450 sentner təşkil edir. Respublikada ən çox kartof əkininin Gədəbəy rayonunda aparıldığını və əkin sahələrinin 50 faizə yaxın hissəsinin suvarmaya cəlb edildiyini nəzərə alsaq görərik ki, rayonda bu istiqamətdə xeyli iş görülməlidir. Bunu nəzərə alan rayon rəhbərliyi dövlət proqramı ilə bağlı qəbul etdiyi tədbirlər planında bütün bunları nəzərə almış və icrası istiqamətində işlərə başlamışdır. Elə bu məqsədlə ilkin mərhələdə Höyər çayı üzərində 2,8 min, Əyrivənd çayı üzərində 1,7 min, Şəmkirçay çayı üzərində 1,3, Kiçik Qaramurad çayı üzərində 1,1, Axınca çayı üzərində 0,6 min kubmetr həcmində sututarların yaradılmasını məqsədəuyğun hesab etmişdir.

2030-cu ilədək rayonda bağçılığın inkişaf etdirilməsi də nəzərdə tutulmuşdur. Mövcud bağların artırılması məqsədilə geniş proqram tərtib edilmişdir. Xüsusilə intensiv bağçılığın inkişaf etdirilməsi məqsədilə 6,3 hektarda qoz bağının salınması üçün 200 min manat investisiya qoyulması, ümumilikdə 20 hektar bağda müasir suvarma sisteminin yaradılması qərara alınmışdır. Əldə olunacaq qozun ləpə formasına salınması və ondan qənnadı məmulatlarının emalında istifadə edilməsi və rayonda emal müəssisəsinin yaradılması üçün tədbirlər görülməsi planlaşdırılmışdır.

Bağçılığın inkişaf etdirilməsi məqsədilə əlavə 4 hektar gilas bağının salınması da nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, Gədəbəy rayonu heyvandarlığın inkişafında çox əlverişli mühitə malikdir. Ölkənin ərzaq təminatında vacib sahə olan heyvandarlığın sürətli inkişafına nail olmaq üçün bir sıra işlərin görülməsi də nəzərdə tutulmuşdur. Qərara alınmışdır ki, rayona 50 baş törədici, 800 baş damazlıq xırdabuynuzlu heyvan gətirilsin. Bundan başqa, 30 baş iribuynuzlu cins düyənin gətirilməsi də planlaşdırılmışdır ki, bununla da rayonda olan yerli cinslərlə yanaşı, daha məhsuldar heyvanların artımı təmin ediləcək.

2030-cu ilədək balıqçılığın inkişafı da diqqət mərkəzində olacaqdır. Dövlət proqramına əsasən, rayonda fəaliyyət göstərən 6 kiçik balıqçılıq təsərrüfatının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Hazırda burada fəaliyyət göstərən "Aurum Fish" MMC balıqçılıq təsərrüfatının genişləndirilməsi üçün tədbirlər müəyyənləşdirilmişdir. Təsərrüfatda məhsul istehsalını artırmaq, əhalinin balıq məhsullarına olan tələbatını ödəmək üçün yenidənqurma işlərinə başlanması qərara alınmışdır. Belə ki, burada olan 12 torpaq hovuzunun beton hovuzla əvəz olunması, eləcə də yeni hovuzların tikilməsi nəzərdə tutulmuşdur. Təsərrüfatda balıqyetişdirmə yerlərinin qurulması, müasir avadanlıqlarla təchiz edilməsi məqsədilə 550 min manat investisiya qoyulması qərara alınmışdır. Bu məqsədlə Türkiyə Respublikasından 1 milyon ədəd qızıl xallı balıq, 1,5 milyon ədəd isə qara xallı balıq kürüsü gətiriləcəkdir.

Rayonda yeni iş yerlərinin açılması və çoxsaylı tədbirlərin həyata keçirilməsi üçün bir sıra işlər də görüləcəkdir. Belə ki, rayonda istehsal olunan meyvənin qurudulması üçün yeni müəssisənin yaradılması nəzərdə tutulmuşdur. Yeni yaradılacaq meyvəqurutma müəssisəsində 50 nəfərin daimi, 100 nəfərin isə mövsümi işlə təmin edilməsi üçün şərait yaradılacaqdır.

Məlum olduğu kimi, Gədəbəy rayonu tarixən arıçılıq üzrə inkişaf etmiş bölgələrimizdən olub. Hər il rayon sakinləri istehsal etdikləri bal məhsulları ilə çoxlu qazanc əldə edirlər. Bunu nəzərə alan rayon rəhbərliyi dövlət proqramı ilə bağlı iş planında bunu da nəzərə almışdır. Qərara alınmışdır ki, ən məhsuldar arıların rayona gətirilməsi təmin edilsin. Bunun üçün 350 arı ailəsinin alınmasına 105 min, avadanlıq və inventarların gətirilməsinə 45 min manat investisiya qoyulması nəzərdə tutulmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağdam kəndlisi fəallıq göstərir

Ağdam rayonunda "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı tədbir keçirilib.



Tədbir Ağdam rayonunda fəaliyyət göstərən fermer təsərrüfatlarına baxışın keçirilməsi ilə başlanıb. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Qiyas Yusifov, Əlaqələndirmə Qərargahının üzvləri, Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yerli qurumlarının nümayəndələri fermer təsərrüfatlarına gediblər.

Baxış zamanı təsərrüfatların mövcud vəziyyəti, əkin sahələrinin istifadəsi, istehsal imkanları və qarşıya çıxan problemlərlə yerində tanış olunub. Fermerlərin təklif və müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti qurumların nümayəndələri ilə müzakirələr aparılıb.

Daha sonra Ağdam Rayon İcra Hakimiyyətinin inzibati binasında fermer və sahibkarların, aidiyyəti dövlət qurumlarının yerli nümayəndələrinin və Əlaqələndirmə Qərargahının üzvlərinin iştirakı ilə görüş keçirilib.

Görüşdə dövlət proqramının rayonda icrası, kənd təsərrüfatı sahəsində mövcud vəziyyət, əkin sahələrindən səmərəli istifadə, məhsuldarlığın artırılması, suvarma məsələləri, fermerlərin qarşılaşdıqları problemlər və onların həlli istiqamətində görüləcək işlər müzakirə olunub.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar potensialdan səmərəli istifadə istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Rayon rəhbəri Ağdamda kənd təsərrüfatının inkişaf etdirilməsi, əkin sahələrinin dövriyyəyə cəlb olunması, məhsuldarlığın yüksəldilməsi və fermerlərin qarşılaşdıqları problemlərin operativ həlli istiqamətində aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsinin vacibliyini vurğulayıb.

Ağdam Rayon İcra Hakimiyyəti başçısının 8 iyul 2026-cı il tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı tərəfindən rayon ərazisində kənd təsərrüfatı ilə bağlı məsələlərin operativ həlli, fermer və sahibkarların müraciətlərinin aidiyyəti qurumlara yönləndirilməsi və görülən işlərin əlaqələndirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Qiyas Yusifov çıxışında dövlət proqramının kənd təsərrüfatının müasir tələblərə uyğun inkişaf etdirilməsi, istehsalın və məhsuldarlığın artırılması, kənd yerlərində məşğulluğun genişləndirilməsi və aqrar sahibkarlığın inkişafı baxımından əhəmiyyətini qeyd edib.

Görüşdə Ağdam Rayon İcra Hakimiyyəti başçısının 8 iyul 2026-cı il sərəncamı ilə təsdiq edilmiş "İş planı" üzrə görülmüş işlər barədə məlumat verilib. Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti, həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Daha sonra fermer və sahibkarların təklifləri dinlənilib. Qaldırılan məsələlər aidiyyəti qurumların nümayəndələri tərəfindən cavablandırılıb və onların həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi müəyyənləşdirilib.

Sonda fermer və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyini yüksək qiymətləndirərək, aqrar sahəyə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar dövlətin qayğısını daim hiss etdiklərini qeyd edərək, kənd təsərrüfatının inkişafı naminə bundan sonra da əzmlə çalışacaqlarını, dövlət proqramının icrasında fəal iştirak edəcəklərini, kənd təsərrüfatının inkişafı və istehsalın artırılması istiqamətində mövcud imkanlardan səmərəli istifadə edəcəklərini bildiriblər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Yeni hədəflər müzakirə olunub

**Astarada kənd təsərrüfatının inkişafı, istifadə olunmayan torpaqların əkin dövriyyəsinə qaytarılması və fermerlərin qarşılaşdığı problemlərin həlli ilə bağlı müzakirələr aparılıb.**

Rayon ərazisində "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində görülən işlərlə yerində tanışlıq keçirilib.

Görüşdə Astara Rayon İcra Hakimiyyətinin, Prezident Administrasiyasının, Kənd Təsərrüfatı Nazirliyinin, Astara Dövlət Aqrar İnkişaf Mərkəzi və Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin məsul şəxsləri iştirak ediblər.

Nümayəndə heyəti fermer təsərrüfatlarına və sahibkarlıq subyektlərinə baxış keçirib, mövcud vəziyyət və görülən işlərlə tanış olub.

Daha sonra Astara Rayon İcra Hakimiyyətində dövlət proqramının icrası ilə bağlı yaradılmış qərargahın və kənd təsərrüfatı, balıqçılıq məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfat nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

Müzakirələr zamanı fermerlərin üzləşdiyi problemlər, su təminatı, əkin sahələrindən səmərəli istifadə, məhsuldarlığın artırılması və əkilməyən torpaqların əkin dövriyyəsinə qaytarılması məsələləri diqqət mərkəzində olub.

Bildirilib ki, rayonda kənd təsərrüfatının inkişafını sürətləndirmək və mövsümi işləri əlaqələndirmək məqsədilə xüsusi qərargah fəaliyyət göstərir. Qərargah tərəfindən fermer və torpaq mülkiyyətçiləri ilə mütəmadi görüşlər keçirilir, qarşıya çıxan problemlərin həlli istiqamətində tədbirlər görülür.

Görüşdə fermer və sahibkarların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

## 2026-2030-cu illər üçün dövlət proqramı ilə əlaqədar Salyanda tədbir keçirilib



2026-2030-cu illər üçün dövlət proqramında nəzərdə tutulan tədbirlər çərçivəsində Salyan rayonunda zona müşavirəsində irəli sürülmüş təşəbbüslər və ya həyata keçirilən digər tədbirlərlə bağlı görülmüş işlər barədə iclas keçirilib.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Məmmədiyə Məmmədov, Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) rəhbəri Tariel Atamalıyev və rayonda kənd təsərrüfatı sahəsi ilə məşğul olan qabaqcıl sahibkar və fermerlər kənd təsərrüfatının inkişafına dair dövlət proqramı çərçivəsində görülən işlərlə yerində tanış olmaq məqsədilə rayonun 3 iri fermer təsərrüfatına baş çəkiblər.

Daha sonra Salyan RİH inzibati binasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfatların və emal müəssisələrinin, aidiyyəti dövlət qurumlarının yerli nümayəndələrinin və qərargah üzvlərinin iştirakı ilə görüş keçirilib. Görüş zamanı zona müşavirəsində irəli sürülmüş təşəbbüslərin icra vəziyyəti, habelə əldə edilmiş nəticələr, mövcud problemlər və onların həlli yolları müzakirə edilib.

Salyan RİH başçısı Rüstəm Xəlilov dövlət proqramının aqrar sektorun inkişafında mühüm əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, proqram çərçivəsində qarşıya qoyulan vəzifələrin ardıcıl və səmərəli icrası kənd təsərrüfatı istehsalının artırılmasına, fermerlərin fəaliyyətinin dəstəklənməsinə və rayonda aqrar sahənin daha da inkişaf etdirilməsinə geniş imkanlar yaradacaq. İcra başçısı rayonda mövcud imkanlardan geniş istifadə olunmasının, innovativ yanaşmaların tətbiqinin və fermerlərə dövlət dəstəyi mexanizmlərindən səmərəli surətdə yararlanmağın vacibliyini vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Məmmədiyə Məmmədov çıxışında dövlət proqramının əsas istiqamətləri barədə məlumat verərək qeyd edib ki, aqrar sahədə müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, məhsuldarlığın artırılması, su və torpaq ehtiyatlarından səmərəli istifadə, kənd təsərrüfatı istehsalçılarının bilik və bacarıqlarının artırılması prioritet məsələlərdəndir.

Daha sonra fermerlərin fikirləri dinlənilib, onların qarşılaşdıqları problemlər, təklif və təşəbbüsləri nəzərdən keçirilib. Aidiyyəti qurumların nümayəndələri tərəfindən qaldırılan məsələlərə bağlı müvafiq izahatlar verilib.

Sonda dövlət proqramının Salyan rayonunda icrasının daha səmərəli təşkili, nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi, qarşıya qoyulmuş hədəflərə nail olunması məqsədilə aidiyyəti qurumlara və sahibkarlara müvafiq vəzifələr müəyyənləşdirilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Masallıda kənd təsərrüfatının inkişafı ilə bağlı məsələlərə nəzər salınıb

Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 -2030-cu illər üçün Dövlət Proqramı"nda aqrar sahədə istehsalın və məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi, emal imkanlarının genişləndirilməsi və kənd təsərrüfatının rəqabət qabiliyyətinin yüksəldilməsi kimi mühüm vəzifələr müəyyənləşdirilib.




Dövlət proqramından irəli gələn vəzifələrin Masallı rayonunda icrası, bu istiqamətdə görülən işlər və qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərlə bağlı sentyabrın 10-da Masallı Rayon İcra Hakimiyyətinin inzibati binasında müşavirə keçirilib.

Müşavirədə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul əməkdaşı Dəyanət Abdullayev, RİH başçısının birinci müavini Tohid Hüseynov, RİH başçısının müavini, Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Adəm Məhərrəmov, Aparatın məsul əməkdaşları, aidiyyəti dövlət qurumlarının nümayəndələri, ərazi nümayəndələri, fermerlər və sahibkarlar iştirak ediblər.

Müşavirədə ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, aqrar sahənin qarşısında duran əsas vəzifələr, dövlət proqramının hədəfləri və onların Masallı rayonunda icrası ilə bağlı məsələlər müzakirə olunub.

Giriş nitqi ilə çıxış edən Masallı RİH başçısı Araz Əhmədov Prezident İlham Əliyevin aqrar sahənin inkişafı ilə bağlı müəyyən etdiyi prioritetlərin rayon üçün də mühüm əhəmiyyət daşıdığını bildirib. Rayon rəhbəri kənd təsərrüfatının Masallının iqtisadi və sosial həyatında mühüm yer tutduğunu qeyd edərək mövcud potensialdan səmərəli istifadə olunmasının, məhsuldarlığın artırılmasının və fermer təsərrüfatlarının inkişafının vacibliyini vurğulayıb. Araz Əhmədov bildirib ki, rayon ərazisində əkin sahələrindən səmərəli istifadə, mövsümi kənd təsərrüfatı işlərinin düzgün təşkili, fermer və torpaq mülkiyyətçilərinin qarşılaşdıqları problemlərin operativ həlli istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə yaradılmış xüsusi Qərargah tərəfindən fermerlərlə mütəmadi əlaqə saxlanılır, onların müraciət və təklifləri dinlənilir və aidiyyəti qurumlarla birgə müvafiq məsələlərin həlli təmin olunur.

RİH başçısının müavini, Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Adəm Məhərrəmov çıxışında rayonun kənd təsərrüfatı sahəsində mövcud vəziyyət və görülən işlər barədə məlumat verib. O, əkin sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, istehsalın artırılması və kənd təsərrüfatı məhsullarının emalı imkanlarının genişləndirilməsinin qarşıda duran əsas məsələlərdən olduğunu bildirib. Adəm Məhərrəmov qeyd edib ki, dövlət proqramında nəzərdə tutulan tədbirlərin Masallıda həyata keçirilməsi rayonun aqrar potensialından daha dolğun istifadə olunmasına, fermer təsərrüfatlarının inkişafına və kənd təsərrüfatı məhsullarının istehsalında keyfiyyət göstəricilərinin yüksəldilməsinə imkan yaradacaq.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Dəyanət Abdullayev çıxışında dövlət proqramının əhəmiyyətindən danışıb. Bildirib ki, proqram çərçivəsində kənd təsərrüfatında müasir və innovativ yanaşmaların tətbiqi, istehsal və emal imkanlarının genişləndirilməsi, aqrar sahədə dəyər zəncirinin inkişaf etdirilməsi və fermerlərin fəaliyyətinə dəstəyin gücləndirilməsi nəzərdə tutulur. Dəyanət Abdullayev Masallı rayonunun əlverişli təbii-iqlim şəraiti və zəngin aqrar ənənələri ilə seçildiyini qeyd edərək mövcud imkanlardan səmərəli istifadə olunmasının və dövlət proqramında müəyyənləşdirilən hədəflərin ardıcıl şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Müşavirədə fermer və sahibkarların çıxışları dinlənilib. Onlar fəaliyyətləri zamanı qarşılaşdıqları məsələləri, təkliflərini və qarşıdakı dövr üçün planlarını diqqətə çatdırıblar. Fermer və sahibkarlar dövlət proqramının Masallı rayonunda icrasına fəal şəkildə qoşulacaqlarını və müəyyənləşdirilən hədəflərin reallaşdırılmasına öz töhfələrini verəcəklərini bildiriblər.

Sonda iştirakçıların sualları cavablandırılıb, səsləndirilən təkliflər ətrafında fikir mübadiləsi aparılıb və dövlət proqramından irəli gələn vəzifələrin Masallı rayonunda icrası ilə bağlı qarşıda duran məsələlər müzakirə edilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

*Mənəviyyat mövzusunda*

# Saqqallı yetimlər

**Ata üç hərfdən ibarət qısa bir söz olsa da, tutumu, dəyəri bir dünya qədərdir. Əgər bu günə kimi milli-mənəvi dəyərlərimizi, ailə institutumuzu qoruyub saxlaya bilmişiksə, burada atanın rolu danılmazdır. Millətimizin təmsilçisi ata, ailənin, kiçik cəmiyyətin sütunu ata, adımızdan sonra soyadımızdan əvvəl daşınan ad ata, dara düşəndə güvənc yerimiz atadır. Məgər uşaq vaxtı kiminsə tərəfindən təqib olunanda «atama deyəcəyəm» sözü ilə həmin şəxsə hədə ünvanlamamışıqmı? Bir kitaba sığacaq müdrik fikri bir cümlə ilə atalar sözü kimi möhürləməmişikmi?**



Zaman bu gözəl dəyərimizə də əl gəzdirib. Əslində, zaman sözü burada yerinə düşmür, təqlidçilik, biganəlik, dəyərlərimizi köhnəliyin qalığı kimi düşünənlər elə bu zamanın, hibrid zamanın daşıyıcılarıdırlar. Özü də acınacaqlısı budur ki, həmin insanlar efirlərdə, sosial platformalarda özlərinə sürətlə həmfikir tapırlar. «Öz həyatımı yaşayacam». Əgər sən bu cəmiyyətin üzvüsənsə, onun qarşısında cavabdehliyin varsa, yaşadığın mühitdə milli-mənəvi dəyərlərə üstünlük verənlər varsa, bu fikri söyləməyə mənəvi haqqın varmı? Axı bu cəmiyyətin bizə təqdim etdiyi, faydalandığımız məsələlərlə yanaşı, bir vətəndaş kimi cavabdehliklərimiz də mövcuddur. Hətta yazılmamış qanunlar da var ki, onlara əməl etmək hər kəsin mənəvi borcudur. Bu, cəmiyyətin bir parçası olan ailəyə aid olsa belə, vacibdir, önəmlidir.

Atanı, ananı itirənə yetim deyirlər. Bu, çox acınacaqlı vəziyyət olsa da, dövlət ona sahib çıxır. Körpələr evi, uşaq evi var. Doğrudur, bu evlər isti ana qucağını, ata nəvazişini əvəz etməsə də, oranın sakinləri qayğısız qalmırlar. Uşaq evində böyüyüb cəmiyyətə atılandan sonra da dövlət bu yeniyetmələri diqqətdə saxlayır, sağ olsun. Bir də həmin yaş dövrü gənclik enerjisi, yaşam həvəsi ilə dolu olduğu üçün onlar cəmiyyətdə mövqe qazanmağı, ayaq üstə dayanmağı bacarırlar.

Amma saqqallı yetimlər üçün həyat olduqca acınacaqlıdır. Zəhmətlə ailə saxlamış, övladlarını boya-başa çatdırmış bir çox ataların yeni adıdır saqqallı yetim. Belə bir deyim var: "Pulun varsa, oğlunla, iş görmək qabiliyyətin varsa, qızınla, ağlın varsa, öz evində yaşa". Bu, atalar sözü olmasa da, yəqin ki, müşahidə qabiliyyəti çox güclü olan birisinin dedikləridir.

Xatırlayıram ki, sosial verilişlərin birində çox nurani, övladları haqqında mənfi bir söz söyləməyən, lakin yaşayış yeri olmadığı üçün qocalar evinə yerləşmək istəyən bir ata insanların diqqət mərkəzinə çevrilmişdi. Həmin atanın dörd övladı – iki oğlu, iki qızı var. Amma yaşamağa başının üstündə bir damı yoxdur. Özü söyləməsə də, verilişə onu tanıyanların zəngindən bəlli oldu ki, həmin atanın öz evi olub. Lakin oğlu onu aldadaraq sənədə qol çəkdirməklə evi mənimsəyib. Ata və ana məcbur olaraq kirayə mənzilə köçməli olublar. Lakin həmin övlad orada da onlara dinclik verməyib. Hətta əl qaldırıb. Baş-başa verərək qoca ana-ata birtəhər yaşamağa çalışıblar. Lakin ana rəhmətə gedəndən sonra ata el arasında deyildiyi kimi, saqqallı yetimə çevrilib. Vəziyyət dözülməz həddə çatanda isə dərdi hamıya açılıb.

Dörd övladdan yalnız biri, onun evini mənimsəyən oğlu telefon bağlantısına cavab verib. Kaş ki, verməyəydi. Üzürü günahından betər deyirlər belə danışığa. Deyilənə görə, həmin şəxs yas mərasimlərində mollalıq edir. Yazıq olsun onun apardığı o mərasimlərə.

Oğlu danışdıqca rəngdən-rəngə düşən nurani qoca onun haqqında dili gəlib mənfi bir söz söyləmirdi. Olanları yalnız həmin ailəni tanıyanlar söylədilər.

Elə bir fikir yaranmasın ki, 50-60 il bundan əvvəlki məişətə, cəmiyyətə, geyim tərzinə qayıtmaq arzusu yaranıb. Lakin elə dəyərlərimiz var ki, onu olduğu kimi saxlamaq nəinki vacib, hətta mütləqdir.

İndi ailə quran gənclər valideynləri ilə yaşamaq istəmirlər. Fikrə hörmətlə yanaşmaq olar. Çünki yaşın gətirdiyi bəzi məsələlər cəmiyyətin dəyərlərini astar üzünə çevirənlərin xoşuna gəlməyə bilər. Lakin onun əlindəkini alıb çölə atmağa, onu təqiblərə məruz qoymağa kimsənin mənəvi haqqı yoxdur!

Söylədiyimiz kimi, körpələrə sahib çıxan dövlətimiz övladı olan valideynlər üçün qocalar evi açmağa borclu deyil. Doğrudur, qocalar evi adında bir qurum var. Lakin ondan istifadə etmək üçün ya övladların səndən imtina etməli, ya da kimsəsiz olmalısan. Övladlı, hətta dörd-beş övladı olan kimsəsizləri haraya yerləşdirmək olar? Ailə dəyərləri o qədərmi yoxa çıxmaq üzrədir? Saqqallı yetim olan ataların haqqını kim ödəməlidir?

***Rəfiqə SADIQOVA,***
***yazıçı-jurnalist***

*18 Sentyabr Üzeyir Musiqi Günüdür*

# Tariximizlə müasirliyin musiqi vəhdəti

Azərbaycan musiqisinin tarixi qədimdir. Bu torpaqlarda insanlar sevincini də, kədərini də, sevgisini də, ayrılığını da, düşüncəsini də musiqi ilə ifadə edib. Əsrlər boyu yaranan və nəsildən-nəslə ötürülən mahnılar, muğamlar, aşıq havaları xalqın yaddaşında yaşayıb. Tarın, kamançanın, sazın, balabanın səsi bu yaddaşın səsinə, sədasına çevrilib.



Azərbaycan musiqi sənəti ənənələrə söykənərək, zənginləşərək uzun bir yol gəlir. Muğamlar musiqi xəzinəmizin ən qədim və qiymətli incilərindəndir. Onun əsrlərin süzgəcindən keçib gələn ənənələri bu gün də yaşayır.

Azərbaycan musiqi xəzinəsində aşıq sənətinin də özünəməxsus və əvəzsiz yeri var. Qədim zamanlardan aşıqlarımız el şənliklərində, toylarda sazın müşayiəti ilə dastanlar, qoşmalar, gəraylılar söyləyib, həm musiqimizi, həm də ədəbiyyatımızı təbliğ və inkişaf etdiriblər.

Azərbaycanın belə zəngin musiqi mühitində zaman keçdikcə yeni sənət ənənələri yaranıb. XX əsrin əvvəllərində Azərbaycan musiqi sənəti yeni mərhələyə qədəm qoyub. Həmin dövrdə şəhərlərin inkişafı, teatr və maarifçilik hərəkatının genişlənməsi, yeni mədəni mühitin formalaşması musiqiyə də təsir göstərib. Şuşa, Bakı, Gəncə kimi şəhərlərdə təşkil olunan musiqi məclisləri, teatr tamaşaları və konsertlər sənət həyatının mühüm hadisələrinə çevrilib.

Şuşa bu tarixdə xüsusi yer tutub. Qarabağın bu gözəl guşəsi uzun illər Azərbaycan musiqisinin əsas ocaqlarından biri olub. Burada muğam məclisləri keçirilib, xanəndələr və sazəndələr yetişib.

XX əsrin ilk onilliyində musiqimiz qarşısında yeni imkanlar açıldı. Bir tərəfdə əsrlərdən gələn muğam və xalq musiqisi, digər tərəfdə Avropa professional musiqi ənənələrinə meyil vardı. Bu iki istiqamətin qovuşması Azərbaycan musiqisinin sonrakı inkişafında mühüm rol oynadı. Məhz həmin mərhələdə Üzeyir Hacıbəylinin adı ilə Azərbaycan professional musiqisinin yeni mərhələsi başladı. 1908-ci ildə onun "Leyli və Məcnun" operasının səhnəyə qoyulması böyük mədəni hadisəyə çevrildi. Üzeyir bəy Şərqdə ilk opera olan "Leyli və Məcnun" əsərini xalq musiqisinin imkanlarından istifadə etməklə yaradıb. Dahi bəstəkar Üzeyir Hacıbəyli sonralar "Koroğlu" operası, "Arşın mal alan", "O olmasın, bu olsun" və başqa ölməz əsərləri ilə Azərbaycan musiqisinin ən yaddaqalan səhifələrini yazıb. Üzeyir bəyin Azərbaycan musiqi sənətinə xidmətləri yalnız yaratdığı əsərlərlə bitməyib. O, musiqi təhsilinin inkişafında, professional musiqiçilərin hazırlanmasında, milli musiqimizin elmi əsaslarının öyrənilməsində də misilsiz işlər görüb.

Üzeyir Hacıbəyli Azərbaycan musiqisində böyük bir məktəb yaradıb. Onun fəaliyyəti nəticəsində musiqi sənətimizin qarşısında yeni yollar açılıb. Bu yoldan Fikrət Əmirov, Qara Qarayev, Maestro Niyazi, Cövdət Hacıyev, Arif Məlikov, Vasif Adıgözəlov və başqa istedadlı bəstəkarlar keçib. Onlar Azərbaycanın zəngin musiqisindən bəhrələnib, muğamın musiqi təfəkkürümüzdəki imkanlarını simfonik musiqiyə gətirib, Azərbaycan bəstəkarlıq məktəbinin dünya musiqi məkanında tanınmasına mühüm töhfələr veriblər. Bu sənətkarlar bir-birini təkrarlamayıb, hər biri musiqimizə öz üslubunu gətirib. Ancaq onların yaradıcılığında bir ümumi cəhət - milli musiqinin köklərinə bağlılıq olub. Azərbaycan musiqi sənətinin böyük yolu belə davam edib. Muğam öz ənənəvi yolunda irəliləyib, xalq musiqisi yaşayıb, professional bəstəkarlıq inkişaf edib, opera və balet sənəti formalaşıb, simfonik və kamera musiqisi yeni əsərlərlə zənginləşib. Beləcə, Azərbaycan musiqi sənəti dəyişən zamanla birlikdə yenilənib, amma öz köklərindən uzaqlaşmayıb.

Bu gün də Azərbaycan musiqisində o yol davam edir. Ölkəmizdə musiqi məktəbləri və ali təhsil müəssisələri fəaliyyət göstərir, yeni ifaçılar və bəstəkarlar yetişir. Muğam sənətinin ənənələri qorunur. Xalq mahnıları müxtəlif ifalarda yenidən səslənir. Milli musiqi alətlərimizə gənc ifaçılar yeni nəfəs gətirirlər. Azərbaycanın klassik və müasir bəstəkarlarının əsərləri yalnız ölkəmizdə deyil, onun hüdudlarından kənarda da səsləndirilir. Azərbaycan ifaçıları beynəlxalq səhnələrdə çıxış edir, muğam sənətimiz dünyanın müxtəlif ölkələrində təqdim olunur.

Şuşanın mədəni həyatının yenidən canlanması isə bu mənzərəyə xüsusi çalar verir. Azərbaycan musiqi tarixində özünəməxsus yeri olan bu şəhərdə də konsertlər, festivallar keçirilir.

Əslən Şuşadan olan Üzeyir bəy 141 il öncə, 1885-ci il sentyabrın 18-də dünyaya gəlib. Bu gün həmin tarix Azərbaycan musiqisinin bayramı kimi qeyd olunur. Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə "Üzeyir Musiqi Gününün keçirilməsi haqqında" fərman imzalayıb. Həmin fərmana əsasən, hər il sentyabrın 18-də Üzeyir Musiqi Gününün keçirilməsi qərara alınıb.

Bu gün 18 sentyabrı Üzeyir Musiqi Günü kimi qeyd edərkən, əslində, təkcə dahi bəstəkarın əziz xatirəsini yad etmirik. Bu tarix həm də əsrlərin sınağından keçərək bu günümüzə gəlib çatan zəngin musiqi irsimizə nəzər salmaq, onun keçdiyi yola bir daha baxmaq üçün bir fürsətdir. Üzeyir Hacıbəylinin açdığı yol, ondan sonra gələn böyük sənətkarların yaratdığı əsərlər və bu gün musiqimizi yaşadan yeni nəsil göstərir ki, Azərbaycan musiqisinin dünəni də, bu günü də zəngindir. Əsas məsələ bu zənginliyi qorumaq, onu gələcək nəsillərə çatdırmaq və musiqimizin səsini həmişə uca tutmaqdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları istisna olmaqla, bələdiyyələr, fiziki və hüquqi şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan bələdiyyələr, fiziki və hüquqi şəxslər müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən bələdiyyələr, fiziki və hüquqi şəxslər təklifləri 02 oktyabr 2026-cı il saat 17:00-dan gec olmayaraq, agentliyə təqdim etməlidirlər. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 05 oktyabr 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036).**

***Müsabiqə komissiyası***


# Hava dəyişkən buludlu olacaq, bəzi rayonlarda yağış yağacaq

**Azərbaycanda sentyabrın 18-nə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-23, gündüz 25-29 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22, gündüz 30-35, dağlarda gecə 8-13, gündüz 20-25 dərəcə isti olacaq.

# ABŞ Konqresi Rusiyaya qarşı yeni sanksiyaları təsdiqlədi

## Cəza tədbirləri Çin və Hindistana təsir edəcək

ABŞ Nümayəndələr Palatası Rusiyaya qarşı genişmiqyaslı yeni sanksiyalar paketini təsdiqləyib və bu, Prezident Donald Trampın Ağ Evə qayıtmasından bəri Moskvanı hədəf alan ən əhəmiyyətli qanunvericiliyi imzalamasına yol açıb.

Konqres bu qanun layihəsini 262-yə qarşı 159 səslə qəbul edib, Senat isə bir ay əvvəl onu 86-ya qarşı 11 səslə təsdiqləmişdi. D.Tramp qanun layihəsini imzalayacağını bildirib.

Sanksiyalar Rusiyanın enerji və müdafiə sektorlarını, Prezident Vladimir Putini və onun yaxın ətrafını, eləcə də Moskvanın mövcud Qərb məhdudiyyətlərindən yayınmaq üçün istifadə etdiyi "kölgə donanmasını" hədəf alır.

Qlobal enerji bazarları üçün xüsusilə əhəmiyyətli olan odur ki, bu tədbir D.Trampa böyük həcmdə Rusiya neftini və qazını almağa davam edən ölkələrə 100 faizə qədər tarif tətbiq etmək səlahiyyəti verir. Bu tədbir əsasən Moskvanın ən böyük iki müştərisi olan Çin və Hindistanı əhatə edir.

Tarif məsələsi hətta Vaşinqtondakı Ukrayna tərəfdarları arasında da mübahisələrə səbəb olub. Bəzi demokratlar Rusiyaya təzyiqin artırılmasını müdafiə etsələr də, prezidentə ticarət siyasəti ilə bağlı bu qədər geniş səlahiyyətlərin verilməsinə etiraz ediblər.

Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin baş demokratı Qreqori Miks qanun layihəsini tənqid edərək, onun məcburi sanksiya mexanizmlərindən daha çox prezidentin tarif səlahiyyətlərinə üstünlük verdiyini bildirib. O, tarif müddəaları çıxarılsaydı, qanun layihəsini dəstəkləyəcəyini söyləyib, lakin respublikaçılar layihəyə düzəliş etmək cəhdlərinin qarşısını alıblar.

Bu fikir ayrılıqlarına baxmayaraq, demokratların əksəriyyəti sonda qanun layihəsinə səs verib, respublikaçıların kiçik bir qrupu isə azad bazara sadiq olduqlarını əsas gətirərək ona qarşı çıxıb.

Sanksiya tərəfdarları Rusiyanın tammiqyaslı işğalının beşinci ilinə qədəm qoyduğu və atəşkəsin əldən verildiyi üçün əlavə təzyiqin zəruri olduğunu iddia edirlər.

Bu arada, Kreml "cəhənnəm" sanksiyaları ilə bağlı vəziyyətin inkişafını izlədiyini bildirib: "Əlbəttə ki, biz bu sənədin qəbulunu izləyirik", - deyə V.Putinin mətbuat katibi Dmitri Peskov qanunun qəbul edilməsini "dost olmayan hərəkət" adlandırıb və sanksiyaların tətbiq olunacağı təqdirdə Ukraynada "dinc nizamlama" tapmaq səylərini çətinləşdirəcəyini qeyd edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## BİLDİRİŞ

"AZƏRGEOMAŞ" Elmi İstehsalat Müəssisəsinin (2000517591) nizamnaməsinin latın qrafikalı əlifbaya uyğunlaşdırılması ilə əlaqədar olaraq yeni redaksiyası təsdiq edilmişdir. Kreditorların və maraqlı şəxslərin tələbləri elanın dərc olunduğu tarixdən etibarən 2 həftə ərzində aşağıdakı ünvana qəbul edilir:

**Ünvan: Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, H.Məmmədov küçəsi, ev 25, mənzil 17.**

***DİREKTORLUQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi "Azərenerji"nin baş mühəndisi Osman İlyasova atası

**VƏLİ İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1979 və 1980-ci il buraxılış 10-cu sinif məzunları sinif yoldaşları Sarı Məmmədova həyat yoldaşı

**ELMİRA SÜLEYMAN QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3315
Sifariş 1205

Qiyməti 60 qəpik